Nino Eremaşvili
Levan Axvlediani
Davit Losaberidze
Tamar Ruxadze

**Müəllimin kitabı**

# YERLİ HAKİMİYYƏTLƏ VƏ MEDİA İLƏ ƏMƏKDAŞLIQ

IX sinif üçün vətəndaş təhsilinə köməkçi dərslik

USAID FROM THE AMERICAN PEOPLE

PH international ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

# YERLİ HAKİMİYYƏTLƏ VƏ MEDİA İLƏ ƏMƏKDAŞLIQ
**Müəllimin kitabı**

IX sinif üçün Vətəndaş təhsili üzrə köməkçi dərslik, üçüncü nəşrin Azərbaycan dilində tərcüməsi

Dərsliyin ötən nəşri „Fountain Georgia“ MMC-də nəşr olunub

Müəlliflər:
**Nino Eremaşvili**
**Levan Axvlediani**
**Davit Losaberidze**
**Tamar Ruxadze**

Konsultant:
**Nino Qvaramadze**

Tərcümə edəni: **Əhmədova Qızxanım**
Redaktor: **Kazımov Oqtay**

Dizayner: **Marta Tabukaşvili**
© Project Harmony, Inc., 2019
Bütün hüquqlar qorunur

ISBN: ISBN 978-9941-8-0576-9

Dərslik Amerika xalqının dəstəyi və Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin səyi nəticəsində hazırlanmışdır. Bu dərslikdəki informasiya və onda söylənilən fikirlər üzrə məsuliyyət birmənalı şəkildə müəlliflərə aiddir və bu fikirlər Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin və ya Amerika Birləşmiş Ştatlarının hökumətinin nəzərlərini təqdim etmirlər.

# Ön söz

2010-2014-cü illərdə Gürcüstanda Vətəndaş təhsili və müəllimlərin hazırlıq proqramı həyata keçirilmişdir. Proqramı Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyə dəstəyi ilə PH İnternational həyata keçirmiş və Gürcüstan Elm və Təhsil Nazirliyi tərəfindən dəstəkləndirilmişdir.

Proqramın məqsədi vətəndaş təhsili üzrə məktəb proqramının keyfiyyətinin yaxşılaşdırılması və demokratik cəmiyyətin quruculuq prosesində gənclərin iştiraklarına dəstəyin verilməsi idi.

Bu məqsədə nail olmaq üçün proqram çərçivəsində vətəndaş təhsilinin tədrisi üçün 4 köməkçi vəsait tərtib olundu; müəllimlər üçün treninqlər keçirildi; məktəbdə vətəndaş klubları yaradıldı; şagirdlərin, müəllimlərin və valideynlərin vətəndaş təşəbbüsləri üçün kiçik qrantlar verildi; vətəndaş təhsili müəllimlərinin forumunun əsası qoyuldu; vətəndaş təhsilinin yay düşərgələri təşkil edildi; vətəndaş təhsili və vətəndaş təşəbbüsləri üzrə iki internet-portalı www.civics.ge və www.initiatives.ge yaradıldı, şagirdlər üçün sosial mediasiya üzrə treninqlər keçirildi və mülki təhsil kitabxanaları açıldı.

Qarşıdakı dərslik proqram çərçivəsində yaradılan köməkçi dərsliklərin seriyasından biridir. Dərsliyin ikinci nəşri 2015-ci ildə Vətəndaş təhsilinin yeni proqramı "Gələcək nəsil" çərçivəsində çap edilmişdir. Bu proqram da PH International təşkilatı tərəfindən Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi və Gürcüstan Təhsil və Elm Nazirliyinin tərəfdarlığı ilə həyata keçirildi. İndi də eyni proqramın çərçivəsində hazırlanmış dərsliyin üçüncü nəşrini sizə təklif edirik ki, bu da axırıncı qanunvericilik dəyişikliklərinin nəzərə alınması ilə tərtib edilmişdir. Dərslik bir çox maraqlı və faydalı məlumatlardan ibarətdir; aldığınız biliyi gündəlik həyatda və fəaliyyətinizdə istifadə etmək imkanını verəcəkdir; həmfikirlər və tərəfdaşlar axtarıb tapa biləcəksiniz; yerli özünüidarəetmə orqanları ilə icma və cəmiyyət üçün mühüm problemlərin həlli məqsədilə əməkdaşlıq edəcəksiniz. Dərslik sizə dövlət və cəmiyyətin inkişafında medianın rolu haqqında məlumatınızın olmasında köməklik göstərəcəkdir. Praktiki fəaliyyətdə yaxşı vətəndaşlıq prinsiplərini həyata keçirməklə, siz güclü demokratik dövlət olaraq, Gürcüstanın quruculuğunda və inkişafında iştirak edəcəksiniz.

Gələcək nailiyyətlər arzusu ilə,
**Marina Uşveridze**

"Gələcək nəsil" Vətəndaş təhsili proqramının direktoru
PH International - Gürcüstan

# M ü n d ə r i c a t

Giriş 5
Kitabdan necə istifadə edək? 7
İstifadə edilən metodların təsviri 8
Faydalı məsləhətlər 15

**Mövzu 1** Yerli özünüidarəetmə - tarixi icmal və demokratik ölkələrin təcrübələri 19

**Mövzu 2** Yerli özünüidarəetmənin məğzi və əhəmiyyəti, özünüidarəetmə sistemi və Gürcüstanda qanunvericilik bazası 23

**Mövzu 3** Yerli özünüidarəetmənin xüsusiyyətləri və əsas məqsədləri 27

**Mövzu 4** Yerli özünüidarəetmənin təmsilçi və icraçı orqanları 33

**Mövzu 5** Medianın demokratik cəmiyyətdə rolu 37

**Mövzu 6** Özünüidarəetməni necə həyata keçirək? 43

Yerli özünüidarəetnə nümayəndələri ilə görüş 47
Layihə nəticələrinin yekunlaşdırılması və analizi 48

Faydalı resurslar 1, İlya Çavçavadze “Həyat və Qanun” 49
Faydalı resurslar 2, Gürcüstanın Orqan Qanununu – Yerli Özünüidarəetmə Məcəlləsi” 54

1. Yerli Özünüidarəetmə Məcəlləsinin strukturunun qısa təsviri 55
2. Yerli özünüidarəetmə Məcəlləsinin fəsillərinin, maddələrinin siyahısı 57
3. Yerli özünüidarəetmə məcəlləsinin geniş çıxarış 65

Terminlərin izahatlı lüğəti 90
İstifadə edilən ədəbiyyat 98

# Giriş

Verilən dərsliyin məqsədi ondan ibarətdir ki, şagirdlər yerli özünüidarəetmənin əhəmiyyəti və funksiyalarını dərk etsin, yerli özünüidarəetməyə nə vaxt və nə üçün müraciət etməli olduqlarını anlasın, özünüidarəetmə ilə əməkdaşlıq vərdiş-bacarıqlarını inkişaf etdirsin, yerli özünüidarəetmənin həll etməyə çalışdığı problemləri eyniləşdirsin, layihələr hazırlasın və özünüidarəetmə ilə birlikdə qeyd edilən problemləri həll etsinlər.

Gürcüstanda yerli demokratiyanın bərqərar olunması üçün bir çox mühüm addımlar atılmışdır, amma mükəmməl özünüidarəetmənin bərqərar olunmasına qədər hələ ki, uzun yol keçilməlidir. Bu mühüm işdə aktiv vətəndaşların və aktiv vətəndaş cəmiyyətinin rolu çox böyükdür.

Vətəndaş fəallığı prinsiplərini ayırd etmələri üçün şagirdlər bu dərsliyin vasitəsilə medianın iş prinsipləri ilə tanış olacaq; jurnalistlərin özləri ilə necə işləmək haqqında öyrənəcəklər. Dərsliyin bu hissəsi şagirdlərə kömək edəcəkdir ki, anlasınlar: media nədir və nə üçün lazımdır; dövlət üçün media azadlığı nə üçün həllediciidir və ümumiyyətlə, onun demokratik cəmiyyətdə hansı rolu vardır?

Gənclər yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyətinin nümayəndələri (media, qeyri-hökumət təşkilatları) ilə daha aktiv əməkdaşlıq etməli və şəhərləri, qəsəbələri və ya kəndləri üçün qanunla müəyyənləşdirilmiş faydanı əldə etməlidirlər.



## Kitabdan necə istifadə edək?

Dərslik altı mövzudan ibarətdir. Bu da ümumilikdə 12 dərsdən, özünüidarəetmənin nümayəndələri ilə bir görüşdən və bir yekunlaşdırıcı dərsdən ibarətdir. Vəsaitdə həmçinin hər bir dərsin ehtimal ssenarisi və istifadə edilən metodların təsviri də verilir. Hər bir dərs nəzəri hissədən, sinif işlərindən və ev tapşırıqlarından ibarətdir.

Hər bir dərsin sonunda verilən ev tapşırıqları bir böyük layihəni həyata keçirməkdə sizə yardım edəcəkdir. Bu layihə yerli özünüidarəetmə və media ilə əməkdaşlığa, şəhərinizin, qəsəbənizin və ya kəndinizin problemlərinin həlli yollarının axtarılmasına və nizamlanmasına yönəldilmişdir.

Dərslərdə yerli özünüidarəetmənin nəyi bildirdiyi, ölkə və ayrı-ayrı vətəndaşlar üçün onun hansı əhəmiyyət kəsb etməsi və onunla necə əməkdaşlıq edilməsi ətraflı şəkildə izah edilmişdir.

Dərslərə həmçinin qoşmalar da əlavə edilir, onlar tapşırığın hazırlanmasında və layihənin yaradılması-həyata keçirilməsində sizə yardım edəcəklər.

Kitabda eləcə də terminləri izah edən lüğət də verilir.

Sizə nailiyyətlər arzulayırıq!

# İstifadə olunan metodların təsviri

## Beyin həmləsi

**Beyin həmləsində** qısa zaman içərisində bir neçə növ ideyanın toplanılmasına imkan verilir. O, müstəqil şəkildə həyata keçirilir və ya digər çalışmaların bir hissəsini təqdim edir. Bu metoddan istifadə hər bir şagirddən fərdi fəallıq tələb edir və ümumi problemin birgə həllinə səbəb olur.

Müəllim əvvəlcədən mövzunu seçir və sual şəklində onu formalaşdırır. Sual aydın şəkildə formalaşdırılmalı və şagirdlər üçün aydın formada çatdırılmalıdır.

Bundan sonra şagirdlər öz fikirlərini bildirir və problemin həlli yollarını təklif edirlər. İdeyaların yaranması zamanı növbəti prinsiplərə riayət etməyimiz yaxşı olardı:

1. Şagirdlər tərəfindən fikirlərin söylənilməsi zamanı mübahisə aparmaq, tənqid etmək və qiymətləndirmək olmaz. Bütün fikirlər dəyərlidir, - prinsipi ilə çalışmalıyıq.
2. Fikrin söylənilməsi könüllü və azaddır. Şagirdlər fikirlərini müəllim tələb etdiyi zaman deyil, özləri istədikləri zaman bildirməlidirlər, ideya həm orijinal, eləcə də, başqasının ideyasının təkmilləşdirilmiş nəticəsi ola bilər.
3. Bu mərhələdə keyfiyyət deyil, ideyaların sayı əhəmiyyətlidir. Keyfiyyət barədə müzakirə ideyaların yaranma mərhələsinin bitdiyindən sonra olmalıdır (qiymətləndirmə mərhələsi).
4. Bütün ideyalar lövhədə və ya böyük kağızda yazılmalıdır (ən qəbul edilməyəni də belə).
5. Qiymətləndirmədən əvvəl şagirdlərin düşünmək imkanları olmalıdır.
6. İdeyaların toplanılma mərhələsinin müddəti dərsin gedişindən asılıdır, amma müəllim onu əvvəlcədən müəyyən edə bilər (2-5 dəqiqə tövsiyə olunur, amma mürəkkəb sual halında 20 dəqiqə də ola bilər).

Müəllim aktiv işin gedişində müəyyən etməlidir ki, neçə dəqiqədən sonra qiymətləndirmə mərhələsi başlayacaqdır: elə həmin dərsdəmi və ya növbəti günmü. Bu müddət ərzində şagirdlər tərəfindən söylənilən fikirlər lövhəyə və ya divara yapışdırılan böyük kağıza yazılmalıdır.

İdeyaların qiymətləndirilməsi zamanı fikirlər qısa şəkildə icmal edilməlidir. Şagirdlər müəllimlə birlikdə oxşar ideyaları qruplaşdırmağı və onları ayırmağı müəyyən etməlidirlər.

Oxşar ideyaların birləşdirilməsindən sonra onların pis-yaxşı olması haqqında qısa diskussiya aparmaq olar, bundan sonra onlar

əhəmiyyətlərinə əsasən çeşidlənirlər – hər şagird, onun fikirincə, ən dəyərli mövzunun bir neçəsini seçə bilər və onları əhəmiyyətlərinə əsasən yerləşdirə bilər (öz münasibətini ballarla ifadə edə ilər).

Ballar yekunlaşdırıldıqdan sonra sinfin üstünlük verdiyi 1, 3 və ya 5 ideya ayrılmalıdır.

Dərsin özünəməxsusluğunu nəzərə alaraq, müəllim qiymətləndirmə mərhələsinin davamiyyətini dəyişdirə bilər, məs., əsas aksenti diskussiyanın özünə yönəldə bilər. Diskussiya qiymətləndirmə ilə (ballarla) deyil, şagirdlərin razılığı ilə bitir, amma bu razılıq süni və "başa yeridilən" olmamalıdır.

## Sinif diskussiyası

İnteraktiv metodikanın effektiv üsulunu **sinif diskussiyası** təşkil edir. O, fəal şəkildə dinləmə, öz fikrini bildirmə və dəlil gətirmə, müzakirə, başqalarını dinləmə-nəzərə almaq, fərqli fikirlərlə bölüşmək bacarığı kimi vacib olan vərdiş-bacarıqların formalaşmasına dəstək verir.

Diskussiyanın uğurla keçirilməsi üçün sinifdə etimad və qarşılıqlı ehtiram abu-havasının olması lazımdır. Burda, ilk öncə, müəllimin özü təqli üçün nümunə olmalıdır.

Diskussiyanın düzgün aparılması üçün onun təşkil edilməsi və tənzimlənməsi vacibdir, diskussiya iştirakçıları müəllimlə birlikdə özləri formalaşdıracaqları qaydalara riayət etməlidirlər. Qaydaların siyahısı bu cür ola bilər:

1. biri danışanda, digərləri dinləyirlər;
2. nə isə söyləmək istədikdə, əlini qaldır;
3. başqasının sözünü kəsmə;
4. başqası danışanda gülmək lazım deyil, yalnız onun zarafat etdiyi halda gülmək olar;
5. mübahisədə hamı iştirak edir;
6. və digər qaydalar (hansıları sinif əlavə olaraq təklif edir).

Diskussiya motivasiya ilə başlayır. O, bunları nəzərdə tutur:

problemin qaldırılmasını və ya konkret halın təsvir edilməsini, şeirin və ya vəziyyət üzrə məsələnin oxunulmasını, şəkillərin göstərilməsini, melodiyaların dinlənilməsini.

Müəllim şagirdlərə suallar verir: nə? necə? niyə? nə baş verərdi, əgər ki....? nə təsir göstərdi? Alternativ varmı?......

**Diskussiyanın gedişi:**

- Dərsdə səs-küy və xaosun qarşısını almaq üçün hər bir iştirakçı müəllim və ya sinif tərəfindən seçilən liderin izni ilə aparıcı rolunda çıxış edə bilər;
- çıxış edən iştirakçı reqlamentə əməl etməlidir;
- iştirakçılar arasında qarşıdurmaya icazə verilmir;
- diskussiya iştirakçıları çalışmalıdırlar ki, hər bir fikir əsaslandırılmış və faktlarla sübut olunmuş olsun;

- hər bir iştirakçıya fikrini ifadə etmək imkanı verilməlidir;
- hər bir söylənilən fikir diqqətlə müzakirə edilməlidir;
- müzakirə düzgün olmağı, qarşılıqlı ehtiramı tələb edir;
- təhqiramiz ifadələrə icazə verilmir.

Əgər dialoq gərginləşirsə, o zaman diskussiya vətəndaş dəyərlərinə əsaslanaraq aparılmalıdır. Məsələn, əgər şagirdlər geyim mədəniyyəti haqqında, xüsusilə də, məktəbdə diqqəti cəlb edən geyimin qadağası barədə müzakirə aparırlarsa, o zaman, əvvəlcədən müəyyən etmək yaxşı olardı ki, onlar ümumiyyətlə məktəbin bu və ya digər məsələ üzrə şagirdin fikrini nəzərə almalı olduğunu düşünürlərmi?

Hər bir şagirdin öz fikrini bildirməyə hüququ var. Diskussiya zamanı mülki dəyərlərə diqqət yetirmək lazımdır və qərar qəbul etmək hüququnun kimdə olmasını qeyd edin.

Diskussiyanın növbəti formaları yayılmışdır:

**Dəyirmi masa** – söhbət, bunda eyni əsaslarla şagirdlərin kiçik qrupları (4-5 nəfər) iştirak edir, həm bir-biri ilə, eləcə də, siniflə fikir mübadiləsi aparılır.

**Panel-diskussiya** – qrupun əvvəlcədən seçilmiş lideri vardır. Qrup məsələni müstəqil şəkildə müzakirə edir və sonra sinfə təqdim edir. Qrupun hər bir üzvünün öz fikirlərini açıq şəkildə söyləmək hüququ var.

**Forum** – panel-diskussiyasına bənzəyir, bu zaman qrup siniflə fikir və ideyaların qarşılıqlı mübadiləsini həyata keçirir.

**Simpozium** – şagirdlər bu və ya digər məsələ ətrafında öz fikirlərini bildirir, eləcə də sinfin suallarını cavablandırırlar.

## Müzakirələr (debatlar)

**Müzakirələr** (debatlar) – diskussiya formalarından biridir və iştirakçıların əvvəlcədən planlaşdırılmış çıxışları üzərində qurulmuşdur. Təqdimatçıları qrupdan seçirlər. Mübahisə iki qarşılıqlı tərəfin bir üzvünün çıxışı ilə başlayır. Onlardan sonra sual və icmallar üçün tribun hər tərəfdən olan digər iştirakçılara verilir. Müəllim hər bir çıxış edən üçün müəyyən vaxtı təyin etməlidir.

Bir qayda olaraq, müzakirələrin başlanılmasına qədər və onun sona çatmasından sonra sinfin ümumi nəzəri qiymətləndirilir, məsələn:

| Mövqe: “.......” | Müzakirələrin başlanılmasına qədər | Müzakirələrin sonunda |
|---|---|---|
| Özünü doğruldur | | |
| Özünü doğrultmur | | |
| Bəzən özünü doğruldur,<br>Bəzən də doğrultmur | | |

# Müzakirələrin (debatların) istifadəsi

Məsələn, ölümə məhkum olunma mövzusu mədəni, siyasi və ümumiyyətlə, dəyərlər nöqteyi-nəzərindən kifayət qədər aktualdır, bunun üçün də, təbiidir ki, şagirdlər mövzu ətrafında müxtəlif informasiyaları araşdırırlar. Bəziləri ölüm hökmünü doğruldan dəlilləri tapırlar, digərləri isə, əksinə - ölüm hökmünün əksinə olan dəlilləri tapırlar. Elə ola bilər ki, hər iki qrupun dəlillərindən üçüncü qrup öz mövqeyini müdafiə etmək üçün istifadə etsin. Bu yaş dövrünün uşaqları üçün səciyyəvi olan kəskin ifadə olunan fərdiyyətçiliyə baxmayaraq, aktiv metodlarla aparılan iyirmiyə qədər mövzunun keçilməsindən sonra sinif kifayət qədər açıq və səmimi olacaqdır. Uşaqlar şəxsi ambisiyaları və israrlarına əsasən deyil, dəlillər və meyarların tənqidinin təhlili əsasında seçim edəcəklər.

Müəllimin missiyası şagirdlərə müzakirələrlə tədrisin strategiyasını göstərmək, onları idrakın çox maraqlı yolu ilə "səyahətə çıxarmaqdır", hansında bilik, duyğu, emosiya və yanaşmaların sintezi əldə edilir.

*Müzakirələr hansı üstünlüyə malikdirlər?*

- Müzakirələr tədris prosesi haqqında fikir və onun üzərində müşahidədir. Şagirdlər kiçik yaşlarından bir çox şeylər əldə etmişlər. İlk əvvəl, hər şey bir sözün tələffüz edilməsi ilə başlamış, sonra çoxalıb artmışdı. Müzakirə elə bir vasitədir ki, icazə verilən və verilməyəni, hissəni və bütövü, söz və iş prinsiplərini öyrənir, kəskin halları ayırır və oxşarlıq-fərqləri təqdim edir.
- Müzakirələr informasiyanın əldə edilməsinin effektiv metodlarından biridir. Şagird müzakirələri aparmaq üçün bir çox yeni material əldə etməli, opponentinin informasiyasını aktiv şəkildə dinləməli və dialoqun gedişində bundan istifadə etməlidir.
- Müzakirələr ideyaları təhlükə xaricində öyrənməyə imkan verir. Adi mübahisəyə nəzarət olunmaya da bilər. Müzakirələr zamanı proseslərə tamamilə nəzarət olunur. İlk öncə, şagirdlərə qaydalara riayət etmək kifayət qədər ciddi və mürəkkəb görünür, amma onların xaricində ədaləti qorumaq və şəxsi təhqirin istisna edilməsi mümkün deyildir.
- Müzakirələr mübahisə məharətinin praktiki təcrübəsini verirlər, bunlar isə, bütün həyat boyunca insan üçün vacibdir. Mübahisələr üçün lazım olan bacarıqlar həm peşəkar təkmilləşmə, eləcə də ümumiyyətlə, vətəndaş həyatı üçün vacibdir. Məntiqi müzakirəyə, əsaslandırıcı materiala, misallara və statistik məlumatlara əsaslandırılmış nəticə, yeni dəlillərin və sübutların birliyi əsaslı və ya əsassız mövqeni yaradır.

# T diaqramı

Müəllim bu sxemdən hərtərəfli istifadə edə bilər. O, qarşılıqlı fikirləri söyləmək, hadisələr və ya faktları qarşı-qarşıya qoymaq və müqayisə etmək, fəaliyyətdə olan qəhrəmanları xarakterizə etmək üçün çox əlverişlidir.

**T sxemi** imkan verir ki, müzakirə olunası məsələlər arasında (faktlar, hadisələr, insanlar, əşyalar və s.) qarşıdurmanı təqdim edək.

Çalışma informasiyanı çeşidləndirmək (demək olar ki, müsbət və mənfi) və qruplara ayırmaq üçün yaxşıdır. İş fərdi olaraq, cütlərdə və ya qruplarda yerinə yetirilir, müəllimin nəzərinə əsasən: lövhədə, dəftərdə və ya böyük vərəqdə. Əvvəlcə sxemin sol tərəfi doldurulur (5 dəqiqə), sonra – sağ tərəfi (5 dəq.).



# Fasilələrlə oxu

**Fasilələrlə oxu** mətnin oxu metodlarından biridir. Müəllim bədii əsərləri, məlumatı/elmi mətni, publisistik məktubu və ya başqa növ mətni əvvəlcədən hissələrə bölür.

Hər bir hissənin oxunulmasından öncə şagirdlərə hazır suallar verir.

Şagirdlər ehtimal edirlər ki, mətnin oxunulan hissəsində nə haqqında söhbət olacaqdır.

Müəllim suallarla çalışır ki, mətndə təhlil edilən mühüm məsələləri vurğulasın.

Metod oxu zamanı şagirdlərin diqqətinin cəmləşdirilməsinə və mətnin dərin qavranılmasına dəstək verə; şagirdlər arasında oxu mətninə qarşı marağı oyada bilər.

# Layihələr

**Layihə** - konkret problemin həll edilməsinə və ya təşəbbüsün həyata keçirilməsinə yönəlmiş müxtəlif növ işdir ki, burda tədqiqatçılıq, yaradıcılıq, əməkdaşlıq və kommunikasiya bacarıqlarının inkişafı idarə olunmalıdır. Bu metod fəal və məqsədyönlü təhsil üçün imkan verirdi və indi də verir.

Şagirdlər hər zaman sual verirlər: bu və ya digər məsələni bizə niyə öyrədirsiniz? Bu bilik bizə nə üçün lazım olacaqdır? Müəllim bu suallara inandırıcı və əsaslı cavablar verməkdə çətinlik çəkir. Müəllimə bu problemin həllində şagirdləri dərs layihəsi üzərində necə işlətməyi bilmək yardım edəcəkdir. Layihə üzərində işləyərkən şagirdlər real problemin həlli üçün əldə edilən bilik və bacarıqlardan istifadə edirlər. Layihə ilə tədris şagirdlər arasında motivasiyanı yaradır və onların məsuliyyətlərini artırır. Onlar işləri həvəslə yerinə yetirir və verilən məsələ üzərində uzun müddət işləyə bilirlər.

Məsələlər üzərində şagirdlər uzun müddət ərzində (bir və ya bir neçə həftə) işləyir və sonra da bütün sinfə və ya daha geniş auditoriyaya təqdim edirlər. Layihələr yeniyetməyə real həyatda qarşısına qoyduğu məqsədə nail olmaq üçün əldə etdiyi bilik və təcrübədən istifadə etmək imkanını verirlər.

Layihə üzərində iş planlaşdırma, tədqiqat, praktiki fəallıq və seçilən məsələyə uyğun olaraq nəticələrin təqdim edilmə mərhələlərini təqdim edir. Əgər ki, layihənin nəticələri əyani və inandırıcı, düzgün forma ilə təqdim edilibsə (məs.: yazılı sənəd, maket, səhnələşdirmə, müzakirələr, aksiya, ardıcıl tədbirlər və s.), o zaman layihə həyata keçirilmiş hesab ediləcəkdir.

Müəllim dərs layihələrinin aparıldığı zaman məsləhətçi rolunu yerinə yetirir, işlərə rəhbərlik edir, axtarış və tədqiqat zamanı istiqamət verir. Eləcə də, informasiya mənbələrini göstərir.

Layihə üzərində iş zamanı şagirdə yaradıcılıq, informasiya məkanında səmtləşmə və sərbəst təhsil bacarıq-vərdişləri gərəkdir.

Dərs layihəsinin planlaşdırılması zamanı müəllim nəzərə alır:

- tədqiqat tələbatı olan problemin nə dərəcədə vacib olduğunu;
- gözlənilən nəticələrin tətbiq edilməsini (obyektiv və ya subyektiv);
- layihə üzərində iş zamanı istifadə edilən metodların tədqiqatla əlaqəsini;
- şagirdlərin məsuliyyətlərinin artmasına səbəb olan seçim imkanının olmasını.

Layihə fərdi, cütlərdə və ya qruplarda yerinə yetirilə bilər; bir fənn; bir neçə fənn çərçivəsində (fənlərin inteqrasiyası);

Layihənin ideyası şagirdlərdən gələ bilər, layihənin şagirdlər tərəfindən təşəbbüs edilməsi daha dəyərlidir, onlar tədqiqat metodlarını və problemin həlli yollarını müstəqil seçirlər, müəllim isə təkcə konsultant rolunu yerinə yetirir.

# Layihənin təsviri

Layihənin təsviri onun əsas tərkib hissəsidir. Yaxşı olardı ki, qeyd olunan bənd altbəndlərə bölünsün. Həmin altbəndlərdə bu növ informasiyalar birləşəcəkdir:

a) **problemin müəyyən edilməsi** (eyniləşdirilməsi) – cavab olaraq layihənizin yönəldiyi konkret problemin qeyd edilməsini nəzərdə tutur.

b) **Məqsəd** – nəyi əldə etmək istədiyiniz haqqında geniş, ümumi qərarı nəzərdə tutur. Layihənin məqsədini yuxarıda qeyd olunan problemlə məntiqi əlaqədə olan mühit və ya şərtlər təqdim etməlidir.

c) **Məsələlər** – məqsədə nail olmaq üçün konkret addımları nəzərdə tutur, burada layihənizdə göstərilən məqsədlərə nail olmaq üçün hansı məsələləri həll edəcəyinizi qeyd etməlisiniz. Məqsədə nail olmaq üçün layihənizin spesifikasını nəzərə almaqla bir, iki və ya bir neçə məsələni göstərə bilərsiniz.

ç) **Həyata keçirmə yolları** – sizin tərəfinizdən qoyulan məsələlərin yerinə yetirilməsi üçün daha konkret addımları nəzərdə tutur. Həyata keçirilmə yolları növbəti suallara cavab verən bir prosesdir.

1) “Necə?” – layihənizin məsələlərini necə həyata keçirəcəksiniz?
2) “Kim?” – layihənizin həyata keçirilməsində kim iştirak edir və layihədə onların funksiyaları nədən ibarətdir?

**Layihənin yerinə yetirilmə müddətləri**

Layihə vaxta bölünən hissələrdən ibarət olmalıdır. Onda layihənin xüsusiyyətindən irəli gələrək mərhələlərə bölünmüş layihənin yerinə yetirləcək işləri bölünmüş günlər, həftələr, aylara əsasən əks olunmalıdır.

**Gözlənilən nəticələr**

Bu hissədə layihənin uğurla həyata keçirilməsinə səbəb olacaq ehtimal olunan effekti və ya gözlənilən nəticəni təsvir edin.

**Monitorinq**

Bu hissədə, layihənizin inkişafı üzrə nəzarət (monitorinq) mexanizmi və dövriliyi konkret olaraq necə olacağını göstərməlisiniz.

**Qiymətləndirmə**

Layihənizin uğrunu müəyyən edən, ehtimal olunan meyarları (göstəriciləri) qeyd edin.

**Layihənin qiymətləndirmə meyarları:**

| |
|---|
| problemin eyniləşdirilməsi; |
| praktiki fəaliyyətdə nəzəri bilikdən istifadə etmək; |
| informasiyanı əldə etmək qabiliyyəti; |
| tədqiqatların planlaşdırılması və keçirilməsi qabiliyyəti; |
| ictimaiyyət və müvafiq hökumət və ya qeyri-hökumət təşkilatları ilə münasibət qabiliyyəti; |
| qrupun yaradıcılıq qabiliyyəti; |
| əldə edilən informasiyanı çeşidləndirmə və icmal etmə qabiliyyəti; |
| tədqiqat nəticələrinin təhlil qabiliyyəti; |
| problemin həlli yollarının təklif edilməsi; |
| qərarların qəbul edilməsi; |
| təqdim edilən işin təşkili; |
| şagirdlər tərəfindən hazırlanmış əyani vəsaitlər. |

# Faydalı məsləhətlər

**Vətəndaş mütaliəsinin inkişafı**
*(Çap materialı üzərində iş)*

Vətəndaş təhsilinin tədrisində şagirdlərin çap materialından dərs prosesində necə istifadə etmələri vacibdir. Bu, müxtəlif xarakterli məqalələr və ya qəzet materialı, siyasətçilərin və ictimai xadimlərin çıxışları, qanun mətnləri və s. ola bilər.

Materialın miqdarı və rəngarəngliyi onun əlçatmasından və işləniləsi mövzunun əhəmiyyətindən asılıdır.

Hər bir növ çap materialı aydın, onun üçün səciyyəvi xüsusiyyətlərlə xarakterizə olunur. Onların analizi də müxtəlif yollarla həyata keçirilir. Amma qətiyyətlə deyə bilərik ki, onların işlənib hazırlanması üçün istifadə edilən sualların siyahısı eyni qəbildən ola bilər.

Müxtəlif növ sənədlərin işlənib hazırlanmasında bizə yardım edən suallar:

1. Sənədin müəllifi/müəllifləri **kimdir**? Müəllifdən/müəlliflərdən əlavə sənədin işlənib hazırlanmasında başqa şəxs/şəxslər iştirak edirdilərmi və ya yox? Bu müəllif/müəlliflər haqqında nə bilirsiniz? Öyrəniləsi sənəddən müəllif/müəlliflər haqqında əlavə nəyi öyrənə bilərsiniz?
2. Sənəd **nə zaman** hazırlanıb və ya yazılıb? Sənədin məzmununa əsaslanaraq, bunu təyin etmək olarmı? Sənədin yaranma zamanının təyin edilməsinin hansı əhəmiyyəti var?
3. Sənəddə söhbət getdiyi hadisənin/hadisələrin əsası **harada** qoyulmuşdur? Sənədin məzmunundan irəli gələrək, bunu necə təyin etmək olar?
4. Sənəddə **hansı faktlar** gətirilmişdir? Bu faktlarla tanışlıqdan sonra hansı nəticələri çıxarmaq olar?
5. Bu sənəd **nə üçün** yaradılmışdı? Onun yaradılmasına səbəb nə idi?
6. Bu sənəd öyrənilən hadisə/hadisələr haqqında daha çox məlumat öyrənməyə **necə** yardım edəcəkdir?

Sualların bu cür unifikasiyasına baxmayaraq, hər növ sənədin öz xüsusiyyəti var. Aşağıda hüquqi sənədlərin analizinin spesifikasını nəzərdən keçirəcəyik. Bu, bizə mülki təhsil dərslərini effektiv keçirməkdə yardım edəcəkdir. Söhbət üç növ sənəddən gedir: Konstitusiya, Məcəllə və Qanun.

**Konstitusiya** – dövlətin əsas qanunudur. O, ölkənin idarəetmə formasını bərqərar edir, sosial və siyasi hüquqların zəminlərini verir və siyasi prinsipləri müəyyənləşdirir.

**Məcəllə** – müəyyən edilmiş ictimai hadisələrə aid olan qanunların və qaydaların toplusudur.

**Qanun** – qanunvericilərin və ya prezidentin hazırladığı nizamnamələri təqdim edir və hökumətin və cəmiyyətin konkret sahədə əməllərini tənzimləyir.

Bu üç hüquqi sənəd iyerarxiya strukturunu yaradır. Hər bir qanun Konstitusiyanın konkret nizamnaməsinə əsaslanmalı və konkret məcəllənin tərkib hissəsini təqdim etməlidir.

Tərəfimizdən sadalanan sənədlərin analizi oxşar metodlarla həyata keçirilir. Əgər şagirdlərə bu sənədləri öyrənməyi tapşırsanız, o zaman onlar konkret sənədin meydana gəlmə tarixini, onun əhəmiyyətini və hüquqi izahatını, istifadə sahəsini və istifadə nəticələrini axtarmalı və analiz etməlidirlər.

Sənədin yaranmasının tarixi analizi növbəti suallara cavabın verilməsini nəzərdə tutur:

- Öyrənilən sənəd harada, nə zaman və hansı siyasi vəziyyətdə yaranmışdı?

- Onun “sələfləri” var idi və ya yox?
- Onun və başqa, eyni problemlər üzrə mövcud sənədlər arasında hansı münasibət var?
- Onun yaradılmasında kim iştirak edirdi?
- Sənədin qəbul edilməsinin tərəfdarları və əleyhdarları kim idi?
- O, hansı məqsədlə yaradılmışdı?

Sənədin əhəmiyyətini analiz etdikdə növbəti suallar yarana bilər?

- Sənədin yaradılması prosesində müvafiq üsuldan nə üçün istifadə etmişlər?
- Sənədin rəsmi icmalı necədir, onun əhəmiyyəti dəyişir ya yox?
- Bütöv sənəddə konkret fəsil və ya hər hansı bir nizamnamə hansı yeri tutur?

Sənədin müasir istifadəsi üçün növbəti suallar verilə bilər:

- Bu sənəd hazırkı günə qədər necə istifadə olunurdu?
- Bundan istifadə etdikdə hər hansı bir problem yarandı ya yox?
- Sənəd dəyişdi ya yox və əgər dəyişdisə - necə?
- Hal-hazırda ondan istifadə etdikdə hansı problemlər yaranır?
- Sənədin təkmilləşdirilməsi üçün hansı düzəlişlər təklif olunmuşdu?
- Hansı səbəb bu düzəlişlərin əsasını qoyur?
- Sənəd və onun istifadəsi haqqında şagirdlərin fikirləri necədir?

Sənədləri öyrəndikdə başqa materiallardan da istifadə etmək olar: tədqiqatlar, siyasi çıxışlar, qəzet məqalələri və müsahibələr, televiziya verilişləri, debatlar və s.

Müəllim şagirdləri daha böyük layihələrə cəlb edə bilər. Bu halda ayrı-ayrı şagirdlərə və şagird qruplarına öyrənmək üçün böyük sənədin hər hansı bir fəsli verilir. Böyük sənəd sinifdə bu yolla bölünür. İş bitdikdən sonra sinif tərəfindən yerinə yetirilən iş birləşdirilir.

MÖVZU

1



# YERLİ ÖZÜNÜİDARƏETMƏ – TARİXİ İCMAL VƏ DEMOKRATİK ÖLKƏLƏRİN TƏCRÜBƏLƏRİ

MÖVZU

1

# YERLİ ÖZÜNÜİDARƏETMƏ – TARİXİ İCMAL VƏ DEMOKRATİK ÖLKƏLƏRİN TƏCRÜBƏLƏRİ

**Məqsədlər:**
- Köməkçi dərsliyin və onun məqsədlərinin təqdimatı;
- Yerli özünüidarəetmənin ümumi anlayışı;
- Demokratik ölkələrin təcrübəsi ilə paylaşmaq.

**Lazımi resurslar** – dərsliklər, iş dəftəri, qələmlər, lövhə, təbaşir.

**Müddəti** – iki dərs.

## 1-ci dərs

**Fəallıq № 1**

İlk növbədə, müəllim şagirdləri dərsliyin məqsədləri ilə tanış edir.

Sonra beyin həmləsi metodundan istifadə edərək araşdırır ki, şagirdlər yerli özünüidarəetmə haqqında nəyi bilirlər.

Müəllim şagirdlərə özünüidarəetmənin nə olduğunu və əsasını haradan götürdüyünü və demokratik Qərb ölkələrində necə inkişaf etdiyini izah edir.

**Fəallıq N2**

Qalan vaxt ərzində müəllim şagirdlərə ev tapşırığını verir. Layihənin nə olduğunu və onu necə həyata keçirməyi başlayacaqlarını izah edir. Birinci mərhələdə, “Özünüidarəetmə nədir?” (Bax, Şagirdin kitabı: Layihə, I mərhələ) mövzusu üzrə rəy sorğusunu qonşuluqda, ailədə, dostlar arasında keçirmək

lazımdır. Şagirdlərin bu cür işi yerinə yetirmələrinin onların birinci cəhdləri olduğunu qeyd etmək lazımdır. Şagirdlər, həmçinin, kiçik ölçülü təqdimat hazırlamalıdırlar. Bu işi qruplarda yerinə yetirə və ya cütlərdə işləyə bilərlər.

## 2-ci dərs

**Fəallıq #1**

Müəllim şagirdlərə özünüidarəetmənin xaricdən götürülmüş yeni ideyanı təqdim etmədiyini və onun əhəmiyyətini gürcü mütəffəkkirlərinin də yaxşı dərk etdiyini izah edir. Bunun ən yaxşı misalı **İlya Çavçavadzenin "Həyat və Qanun" məqalələr silsiləsidir. İlya Çavçavadze onda XIX əsrin 70-80-ci illərində özünüidarəetmənin məhz 100 ildən sonra (1985-ci ildə) yerli özünüidrəetmənin Avropa xartiyasının əsasını qoymuş prinsiplərini formalaşdırmışdı.** İlyasayağı nəzərlə tanış olmaqla biz özünüidarəetmənin mahiyyəti, onun rolu, funksiyaları və iş prinsiplərini dərk edə bilərik.

Şagirdlər, fasilələrlə oxu metodunun istifadəsi ilə, İlya Çavçavadzenin əsəri ilə tanış olur və hər bloku oxuduqdan sonra müvafiq suallar verirlər.

Mətnin tanışlığından sonra müəllim bildirir ki, inkişaf etmiş ölkələrdə özünüidarəetmə bu gün də məhz bu prinsiplə təşkil edilmişdir.

***Qeyd:*** *Müəllimin kitabının sonunda (Faydalı resurslar) İlya Çavçavadzenin* ***"Həyat və Qanun"*** *məqalələr silsiləsindən çıxarış verilmişdir. Şagirdin dərsliyindən fərqli olaraq, burada İlyanın nəzəri baxışlarından bir neçə parça verilmişdir (mətn əyri şriftlə, boz rəngli fonda verilir):*

- *İnsanın əsas hüquqları kimi, əmlak;*
- *Desentralizasiya haqqında Bismarkın fikri;*
- *Subsidiarlıq prinsipinin əsaslandırılması;*
- *Müxtəlif dövlət rejimlərində özünüidarəetmə;*
- *Özünüidarəetmə vahidlərinin ölçü məsələsi.*

*Müəllim qeyd edilən fikirləri, istəyi olduğu halda, əlavə olaraq şagirdlərə izah edə bilər.*

# MÖVZU 2



# ÖZÜNÜİDARƏETMƏNİN MƏĞZİ VƏ ƏHƏMİYYƏTİ, ÖZÜNÜİDARƏETMƏ SİSTEMİ VƏ GÜRCÜSTANDA QANUNVERİCİLİK BAZASI

MÖVZU 2

# ÖZÜNÜİDARƏETMƏNİN MƏĞZİ VƏ ƏHƏMİYYƏTİ, ÖZÜNÜİDARƏETMƏ SİSTEMİ VƏ GÜRCÜSTANDA QANUNVERİCİLİK BAZASI

**Məqsədlər:**
- Demokratik cəmiyyətdə özünüidarəetmənin əhəmiyyətini analiz etmək.
- Özünüidarəetmənin hüquqi əsaslarını və qanunvericiliyini öyrənilmək.
- Yerli özünüidarəetmə sahəsində dövlət hakimiyyətinin səlahiyyətləri ilə tanışlıq.

**Lazımi resurslar** – dərslik, iş dəftəri, qələmlər, lövhə, təbaşir.
**Müddəti** – bir dərs.

## 3-cü dərs

**Fəallıq № 1**

İlk növbədə, şagirdlər öz təqdimatlarını nümayiş etdirirlər. Onlar “Özünüidarəetmə nədir?”, “Bələdiyyənizdə hansı əsas problemlər vardır?”mövzusunda təqdimat hazırlamalı idilər.

**Fəallıq № 2**

Müəllim Gürcüstanda yerli özünüidarəetmənin fəaliyyətinin nə vaxt başladığını, Gürcüstanın Yerli Özünüidarəetmə haqqında Avropa Xartiyasına nə vaxt qoşulduğunu, bu xartiyanın ratifikasiyasının ölkəmizə hansı öhdəlikləri həvalə etdiyini və Gürcüstanda özünüidarəetmənin həyata keçirilməsinin hansı hüquqi mexanizmləri təmin etdiyini qısaca icmal edir. Müəllim orqan qanunu – “Yerli özünüidarəetmə məcəlləsi”-nin izahatına diqqəti yönəltməlidir. O, şagirdlərin orqan qanununun əhəmiyyətini yaxşı başa düşdüklərinə əmin olması üçün məntiqi xəritədən istifadə edə bilər.

***Qeyd:***

*Müəllim növbəti məsələlərə diqqəti yönəltməlidir:*

- *Gürcüstanda özünüidarəetmə təcrübəsi tarixən mövcuddur. XX əsrin əvvəlində gürcü cəmiyyəti hazırkı günündən daha irəlidə idi. Gürcüstanın I Respublika dövründə (1918-1921) ölkədə özünüidarəetmənin ənənəvi Avropa sistemi yaranmışdı və müasir Gürcüstanın belə bir nailiyyət əldə etməsinə hələ çox çalışması lazımdır;*
- *Gürcüstan Avropa Xartiyasına 2002-ci ildə birləşdi, 2005-ci ilin aprelin 1-dən isə Xartiya Gürcüstan ərazisində qüvvədədir;*
- *Subsidiarlıq prinsipi (Mənbə 1: Yerli özünüidarəetmənin Avropa Xartiyası, Maddə 4, bənd 3);*
- *Özünüidarəetmənin hüququ bizim Konstitusiya hüququmuzdur (Mənbə 2: Gürcüstan Konstitusiyası, Maddə 2, bənd 4).*

**Fəallıq #3**

Özünüidarəetməni tənzimləyən hüquqi sənədlərin (yəni müxtəlif qanunların) icmalından sonra müəllim şagirdlərə izah edir ki, dövlətin (mərkəzi hakimiyyətin) yerli özünüidarəetmə qarşısında hansı öhdəlikləri vardır.

Bu öhdəlikləri ayırd etdikdən sonra şagirdlər Yerli özünüidarəetmə məcəlləsinin 7-ci maddəsini təhlil edirlər (Şagirdin kitabında Qoşma 1-də və ya Müəllimin kitabının faydalı resurslarında verilmiş; 2. Yerli özünüidarəetmə məcəlləsi). Sonra müəllim şagirdləri beş qrupa bölür və qruplarda müzakirə etməyi tapşırır. Qruplardan hər biri müvafiq olaraq 7-ci maddənin 1,2,3,4 və 5 bəndlərini təhlil edir.

Sonda, hər bir qrup öz işini təqdim edir və sinif diskussiyası aparılır.

***Qeyd:***

*Hər bir bənd qiymətləndirildikdə müəllim növbəti prinsipləri rəhbər tuta bilər:*

1. *Özünüidarəetmənin və dövlətin qarşılıqlı münasibətinin qurulması – mərkəzi hakimiyyət yerli hakimiyyətin “rəhbəri” deyil;*
2. *Dövlət məcburdur ki, özünüidarəetmələrin iş fəaliyyətini dəstəkləmək üçün müvafiq hüquqi, maliyyə-iqtisadi və təşkilati şərtlər yaratsın;*
3. *Əgər dövlət (Mərkəzi hakimiyyət) özünüidarəetmələrlə əlaqədar qanunvericiliyi dəyişirsə, o zaman özünüidarəetmələrlə əvvəlcədən məsləhətlər aparmalıdır;*
4. *Əgər hüquqları mərkəzi hakimiyyət tərəfindən tapdalanırsa, o zaman özünüidarəetmələr mərkəzi hakimiyyəti məhkəmədə şikayətləndirə bilərlər;*
5. *Əgər özünüidarəetmələrin hər hansı bir yeni qanunla hüquqları tapdalanırsa, o zaman bu dəyişiklikləri məhkəmədə şikayətləndirə bilərlər.*

# MÖVZU 3



# YERLİ ÖZÜNÜİDARƏETMƏNİN XÜSUSİYYƏTLƏRİ VƏ ƏSAS MƏQSƏDLƏRİ

MÖVZU 3

# YERLİ ÖZÜNÜİDARƏETMƏNİN XÜSUSİYYƏTLƏRİ VƏ ƏSAS MƏQSƏDLƏRİ

**Məqsədlər:**
- Özünüidarəetmənin əsas prinsipləri və funksiyaları ilə tanışlıq-analiz etmə;
- Özünüidarəetmənin səlahiyyətlərə, funksiyalara görə ayrılması;
- Özünüidarəetmənin ictimai məktəblə əlaqədar səlahiyyətlərinin analiz edilməsi.

**Lazımi resurslar** – dərslik, iş dəftəri, iri formatlı kağızlar, markerlər, qələmlər.

**Müddəti** – bir dərs.

## 4-cü dərs

**Fəallıq #1**

Müəllim şagirdlərə 3.1 tapşırığını verir və bunun üçün şagirdləri qruplara bölür.

Hər bir qrup yerli özünüidarəetmə məcəlləsinin müvafiq maddəsini sərbəst şəkildə təhlil edir.

Sonda, hər bir qrup öz işini təqdim edir və sinif diskussiyası keçirilir.

***Qeyd:***

*Yaxşı olardı ki, müəllim özünüidarəetmənin hansı əlamətlərlə xarakterizə edilməsi üçün İlya Çavçavadzenin nəzərləri və qüvvədə olan qanunvericiliyi (Özünüidarəetmə Məcəlləsinin 2-ci maddəsinin 2-ci bəndinin prinsiplərini) bir-biri ilə əlaqələndirsin.*

Sonda isə nəticə şəklində şagirdlərə izah etsin ki, bu prinsiplər bir-birinə təsadüf edir, çünki onlar sağlam fikrə - məntiqə əsaslanmış prinsiplərdir.

**Fəallıq #2**

Müəllim şagirdləri yerli özünüidarəetmənin əsas funksiyaları ilə tanış edir. Münaqişələrin qarşısının alınması və həlli məsələsində yerli özünüidarəetmənin roluna diqqətin yetirilməsi vacibdir. Funksiyaların icmalından sonra isə özünüidarəetmənin səlahiyyətlərin təhlili başlanılır.

Şagirdlər yaxşı dərk etməlidirlər ki, bu və ya digər funksiyanın yerinə yetirilməsi üçün özünüidarəetmə konkret olaraq hansı səlahiyyətlərdən faydalanır. Müəllim onlara tapşırıq verir (3.2.), onun əsasında onlar dörd əhvalatla tanış olmalı və araşdırmalıdırlar ki, özünüidarəetmə orqanı əsas funksiyanı yerinə yetirirdimi və ya yox?

Qeyd etmək lazımdır ki, bütün bu hallar dərslikdə verilən kimi gerçəkdir və müxtəlif internet səhifələrdə dərc edilən məlumata əsaslanır.

Ola bilsin ki, müəllim şagirdlərə oxşar hadisələri özlərinin axtarıb tapmalarını tapşırsın.

***Qeyd:***

- ***Hadisə 1*** *(Gənclər mərkəzi) vətəndaşların sülhü və sabit inkişaf sahəsinə aiddir;*
- ***Hadisə 2*** *(kitabxananın və ambulatoriyanın təşkili) ictimai xidmətin çatdırılmasıdır;*
- ***Hadisə 3*** *(meliorasiya) həmçinin ictimai xidmətin çatdırılması və müəyyən qismdə, sabit inkişafın təminatı ilə bağlıdır;*
- ***Hadisə 4*** *(təmizlik və möhkəm tullantıların daşınılması) intermunisipal əməkdaşlığın (munisipalitetlər arası) bu sahədə ictimai xidmətinin nümunəsini təqdim edir, bununla belə daha perspektivlidir və sabit inkişafın təmin edilməsinə yönəlmişdir.*

**Fəallıq #3**

Şagirdlər müəllimlə birlikdə N2 fəallığının tapşırığını yekunlaşdırırlar, müəllim onlara yeni tapşırıq verir: Şagirdin kitabının Qoşma 1-də Gürcüstanın Orqan Qanunu – “Yerli özünüidarəetmə Məcəlləsinin” 16-cı maddəsi və onda verilən özünüidarəetmənin səlahiyyətləri ilə tanış olsunlar, funksiyalarının əsasında onları qruplaşdırsınlar, verilən cədvəli isə dəftərə köçürüb doldursunlar.

**Tapşırıq 3.3**-ü şagirdlər evdə yerinə yetirirlər.

***Qeyd:***

*1. Tapşırıq 3.3- cədvəlində misal şəklində bir neçə bəndlə/yarımmadə ilə müəyyənləşdirilmiş səlahiyyətlər verilmişdir;*

*2. Müəllim nəzərə almalıdır ki, “Yerli Özünüidarəetmə Məcəlləsinin” 16-cı maddəsinin 2-ci bəndində sadalanan səlahiyyətlər özünüidarəetmənin* ***özəl səlahiyyətləridir və yalnız özü onları yerinə yetirməlidir.*** *16-cı maddənin 4-cü bəndinə gəldikdə isə, bu, əsasən, mərkəzi hakimiyyətin funksiyalarıdır və* ***özünüidarəetmə*** *onların həllində* ***mərkəzi hakimiyyətə*** *köməklik göstərə bilər.Məhz buna görə də qanunda bu halda* ***”həyata keçirmə”*** *termini deyil,* ***”dəstək”*** *və* ***“tərəfdaşlıq”*** *terminlərindən istifadə olunur.*

*3. Şagirdlər hər hansı bir səlahiyyəti müxtəlif qrafada yaza bilərlər:məsələn, 2.a bəndi (büdcənin tərtib edilməsi, təsdiqi, həyata keçirilməsi və həyata keçirilməsinə nəzarət) bəzi şagird “sabit inkişaf”, bəziləri isə “sabitliyin təminatı” qrafasına yaza bilərlər. Bu nəzərlərdən heç biri səhv deyil, üç funksiya (ictimai xidmətin çatdırılması, sabit inkişaf, sabitliyin təmin edilməsi) şərtidir. Tapşırığın məqsədi odur ki, şagirdlər yadda saxlasınlar ki, yerli özünüidarəetməyə hansı səlahiyyətlərin həyata keçirilməsi tapşırılır.*

**Fəallıq #4**

Müəllim şagirdlərdən xahiş edir ki, 3.3 tapşırığını yerinə yetirdikdən sonra layihənin I mərhələsinin nəticələrinə nəzər salsınlar və soruşulanlar tərəfindən sadalanan, özünüidarəetmədə mövcud problemlərdən həlli yerli özünüidarəetmənin səlahiyyətlərinə aid olan məsələləri ayırsınlar.

**Layihənin II mərhələsinin** tapşırığını şagirdlər evdə yerinə yetirirlər.

# MÖVZU 4



# YERLİ ÖZÜNÜİDARƏETMƏNİN TƏMSİLÇİ VƏ İCRAÇI ORQANI

MÖVZU 4

# YERLİ ÖZÜNÜİDARƏETMƏNİN TƏMSİLÇİ VƏ İCRAÇI ORQANI

**Məqsədlər:**
- Yerli özünüidarəetmənin təmsilçi və icraçı orqanlarının xarakterizə edilməsi;
- Bu orqanların seçki qaydası və mexanizmlərinin analiz edilməsi;
- Yerli özünüidarəetmə orqanlarının fəaliyyət nümunələri.

**Lazımi resurslar** – dərslik, dəftər, qələmlər.
**Müddəti** – iki dərs

## Dərs 5

**Fəallıq #1**

Müəllim şagirdlərə sakrebulonun, bələdiyyə başçısı/qamqebelinin kim olduğunu və onların necə seçildiklərini izah edir. Sonra, əqli həmlə metodunun istifadəsi ilə, şagirdlərdən xahiş edir ki, öz fikirlərini bildirsinlər, - onlar sakrebulonun üzvünün və bələdiyyə başçısının/qamqebelinin kimin ola biləcəyinə dair fikirlərini bildirməlidirlər. Müəllim onları tanış edir ki, özünüidarəetmənin üzvlük nümayəndəsinə qarşı tələbləri qanun irəli sürür
(Şagirdin kitabı, Qoşma 2, Seçki Məcəlləsindən çıxarış, maddə 134).

**Fəallıq #2**

Müəllim şagirdlərə sərbəst yerinə yetirilməsi üçün **tapşırıq 4.1**-i verir.

**Fəallıq N3**

Müəllim şagirdlərə sakrebulo və bələdiyyə başçısı/qamqebelinin seçki qaydası haqqında məlumat verir; eləcə də seçilmiş şəxslərin səlahiyyətləri və orqanların strukturları haqqında məlumat verir ki, özünüidarəetmələrin sakrebulo tərkibi haqqında məlumatı axtarıb tapsınlar (Tapşırıq 4.2).

***Qeyd:*** *bəzi şəhər hallarında, qeyd edilən məlumatı internet vasitəsilə tapmaq mümkündür (vətəndaş mədəniyyətinin beynəlxalq mərkəzinin saytı:* ***http://www.lsg.ge/****). Eləcə də sakrebuloya yazılı şəkildə müraciət etmək və qeyd edilən məlumatı tələb etmək olar. Məktəbin nümunəsi Şagirdin kitabı, Qoşma 3-də verilmişdir. Şagirdlər fərdi olaraq sakrebuloya müraciət edə və ya ona sinfin adından elektron məktub göndərə bilərlər.*

***Müəllim nəzərə almalıdır ki, munisipalitetdən məlumatın qəbuluna bir neçə gün lazım ola bilər və növbəti dərsin tarixi də buna uyğun planlaşdırıla bilər.***

## 6-cı dərs

### Fəallıq #1

Müəllim şagirdlərdən xahiş edir ki, hazırladıqları prezentasiyanı təqdim etsinlər. Fəallığın müddəti şagirdlərin sayından asılıdır. Hər bir şagirdə öz fikrini ifadə etmək imkanının verilməsi vacibdir.

### Fəallıq #2

Müəllim şagirdlərə yerli özünüidarəetmə orqanlarının strukturu, vəzifəli şəxslər, işçi dili və dövlət simvolikası haqqında məlumat verir və onlara tapşırıq verir ki, özünüidarəetmə vahidinin gerbi və bayrağı haqqında məlumat toplasınlar **(Tapşırıq 4.3).**

***Qeyd:*** *şagirdlər bu halda da məlumatı internet vasitəsilə əldə edə bilərlər (müvafiq munisipalitetin saytında)və ya özünüidarəetməyə yazılı şəkildə müraciət etsinlər.*

***Müəllim nəzərə almalıdır ki, munisipalitetdən məlumatın alınmasına bir neçə gün lazım gələ bilər və növbəti dərsin tarixini də müvafiq olaraq planlaşdırmalıdır.***

### Fəallıq #3

Dərsin ikinci hissəsi tam olaraq layihənin III mərhələsinə həsr edilir - özünüidaəetmənin səlahiyyətləri ilə tanışlığa və analiz edilməsinə. Müəllim şagirdlərdən xahiş edir ki, əqli həmlə metodu ilə munisipalitetlər tərəfindən həyata keçirilən və onların icma həyatını müsbət təsvir edən bir neçə fəallığı xatırlasınlar; eləcə də onların fikrincə, özünüidarəetmə ilə əməkdaşlıqla həll edilə biləcək məsələləri xatırlasınlar.

***Qeyd:*** *Özünüidarəetmənin köməkliyi ilə həll edilən problemlər haqqında misalları www.civics.ge internet səhifəsində tapmaq olar.*

# MÖVZU 5



# DEMOKRATİK CƏMİYYƏTDƏ MEDİANIN ROLU

MÖVZU 5

# DEMOKRATİK CƏMİYYƏTDƏ MEDİANIN ROLU

**Məqsədlər:**
- Medianın əhəmiyyəti, məsuliyyəti və hüquq-səlahiyyətləri ilə tanışlıq və onların analiz edilməsi;
- İctimai özünüidarəetmənin həyata keçirilməsində medianın rolu ilə tanışlıq və onların analiz edilməsi;
- Media ilə əməkdaşlıq imkanı ilə tanışlıq.

**Lazımi resurslar** – dərslik, iş dəftəri, qələmlər, lövhə, rəngli karandaşlar.
**Müddəti** – üç dərs.

## 7-ci dərs

### Fəallıq #1

Müəllim şagirdlərə demokratik cəmiyyətdə medianın rolu haqqında danışır; mediaya hansı rol həvalə edilir və vətəndaşlara və dövlətə nə üçün lazımdır? Əqli həmlə metodundan istifadə etməklə şagirdlərin media haqqında nəyi bildiklərini araşdırır. Şagirdlər eyni zamanda birinci suala cavab verirlər – hal-hazırda gürcü mediası necədir?

***Qeyd:*** *lazım gəldikdə, müəllim şagirdlərə qadın zorakılığına qarşı yönəlmiş videoklipləri sinif işi şəklində nümayiş etdirir.*

### Fəallıq #2

Müəllim şagirdlərə medianın tarixi haqqında danışır və onun cəmiyyətə göstərə biləcəyi təsiri izah edir. Əqli həmlə metodundan istifadə edərək araşdırır ki, şagirdlər Gürcüstanda medianın/mətbuatın tarixi haqqında nəyi bilirlər. Bir neçə qrupa bölünmüş şagirdlərə, ev tapşırığı şəklində, internet məkanda birinci gürcü qəzetinin/gürcü mətbuatının tarixi haqqında məlumat toplamağı və onun haqqında təqdimat hazırlamağı tapşırır.

### Fəallıq #3

Müəllim Şagirdin kitabının müvafiq yarımfəslində göstərilmiş məlumatın əsasında medianın peşəkar və etika standartları ilə şagirdləri tanış edir. Eyni yarımfəslin suallarına cavab vermək üçün diskussiya metodundan istifadəsi edərək sinifdə simpozium keçirir:

1. Medianın öz-özünü tənzimlənməsini necə başa düşürsünüz?
2. Necə düşünürsünüz, gürcü mediası etika prinsiplərinə əməl edirmi?
3. Medianın davranışının sizin üçün qəbuledilməz misallarını yadınıza salın. Sizin fikrinizcə, buna səbəb nə idi?

### Fəallıq #4

Əqli həmlə metodundan istifadə etməklə müəllim araşdırır ki, şagirdlər xəbərlər və jurnalist işi haqqında nə bilirlər; eləcə də onların regionunda/şəhərində/munisipalitetində fəaliyyətdə olan media vasitələri haqqında nəyi bilirlər. Müəllim Şagirdin kitabında təqdim edilən müvafiq materialın əsasında, şagirdlərə xəbərlərin hazırlanması prinsiplərini və məsələlərini izah edir. Şagirdlər sinifdəcə "Xəbərlərin" sonunda verilən suallara cavab verirlər, sütunda verilən ifadələrlə tanış olur və onları diskussiya metodunun istifadəsi ilə qiymətləndirirlər.

## 8-ci dərs

### Fəallıq #1

Şagirdlər ötən dərsdə birinci gürcü qəzeti və mətbuat tarixi haqqında verilən tapşırığı təqdim edirlər.

### Fəallıq #2

Müəllim şagirdlərə yenə də ötən dərsin mövzusunu xatırladır - xəbərlər və əqli həmlənin vasitəsilə şagirdlərin nəyi yadda saxladıqlarını təyin edir. Onlar sinifdə tapşırıq 5.1 və 5.2-ni yerinə yetirirlər. Əgər müəllim şagirdlərin tapşırıq 5.2-ni sinifdə yerinə yetirməkdə çətinlik çəkdiklərini görürsə, o zaman onu ev tapşırığı kimi verir.

**Fəallıq #3**

Müəllim şagirdlərə cəmiyyətə yönəlmiş medianın necə olmalı olduğunu izah edir; ictimai yayımçını, onun ehtiyacları və öhdəlikləri haqqında məlumatla tanış edir. Şagirdlər sinifdə tapşırıq 5.3-ü yerinə yetirirlər. Müəllim əqli həmlə metodundan istifadə edərək onların ictimai yayım haqqında nəyi bildiklərini və nə dərəcədə yetkinlik yaşına çatmayanların maraqlarını qane etdiyini təyin edir. Sinifdə müəllim şagirdlərə imkan verir ki, gürcü televiziyasında hansı mövzular üzrə hazırlanmış və necə bir verilişləri görmək istədikləri barədə öz fikirlərini söyləsinlər, xüsusilə də ictimai yayımçıda. Tapşırıq 5.4-ü müəllim ev tapşırığı şəklində verir.

## 9-cu dərs

**Fəallıq #1**

Şagirdin kitabında verilmiş xəbərin üç variantı haqqında tapşırığı şagirdlər qısa qrup təqdimatı şəklində– tapşırığın aşağısında verilmiş sualların əsasında təqdim edirlər. Onların yeni xəbərin verilmiş variantlarını analiz etmələri, eləcə də, suallara cavab vermələri çox vacibdir ki, bu və ya digər variant qərəzli və ya çox yaxşı hazırlanmış idimi? Eləcə də müəllimin medianın hansı halda və nə üçün ictimai maraqları müdafiə edə və özünüidarəetmənin həyata keçirilməsində köməklik edə bilmədiyini anlamaqda şagirdlərə yardım etməsi önəmlidir.

**Fəallıq # 2**

Müəllim şagirdlərə ötən tapşırığı (5.1.) xatırladır və onda verilən gələcək görüşü və ya viziti onlarla birlikdə planlaşdırır. Tədbirdə qonaq üçün verilən sualları şagirdlər evdə hazırlamalıdırlar.

**Fəallıq # 3**

Müəllim şagirdin kitabında verilmiş konkret misalların köməkliyi ilə şagirdləri media ilə əməkdaşlıq imkanları ilə tanış edir; əqli həmlənin vasitəsilə araşdırır ki, şagirdlər öz hüquqları haqqında nəyi bilirlər və BMT-nin uşaq hüquqları konvensiyasının Şagirdin kitabında təqdim edilmiş maddələrini onlara izah edir.

**Fəallıq # 4**

Dərsin sonunda müəllim media fəslini yekunlaşdırır və şagirdlərə ötən materialı xatırladır; sonra onları media üçün informasiyanın çatdırılması vasitələri ilə tanış edir, - o cümlədən, pres-anons və pres-relizlə.

# MÖVZU 6



# ÖZÜNÜİDARƏETMƏNİ NECƏ HƏYATA KEÇİRƏK?

MÖVZU 6

# ÖZÜNÜİDARƏETMƏNİ NECƏ HƏYATA KEÇİRƏK?

**Məqsədlər:**
- İctimai rəy sorğusu üçün hazırlıq və sorğunun keçirilməsi;
- Vətəndaşların tələbatları və problemlərin üzə çıxarılması vərdiş-bacarıqlarının əldə edilməsi;
- Özünüidarəetmələr qarşısında duran problemli məsələlər haqqında təqdimatların hazırlanması.

**Lazımi resurslar** - dərslik, iş dəftəri, qələmlər.
**Müddət** – üç dərs.

## 10-cu dərs

**Fəallıq #1**

Müəllim şagirdlərə qanuna əsasən vətəndaşlar tərəfindən yerli özünüidarəetmə necə həyata keçirilirməsini izah edir və bu proseslərə cəlb edilməyin mümkün olmasını izah edir; əqli həmlə metodundan istifadə etməklə, keçilən materiala əsaslanaraq şagirdlərdən konkret olaraq hansı məsələlər üzərində özünüidarəetmə ilə əməkdaşlıq etmək istədiklərini soruşur. Şagirdlər **tapşırıq 6.1**-də verilən misallarla tanış olmalı, eləcə də **tapşırıq 6.2**-də verilən “Yerli Özünüidarəetmə Məcəlləsinin” müvafiq maddələri ilə tanış olmalı və dərs mətnində qoyulan suala cavab verməlidirlər: munisipalitetinizdə “Yerli Özünüidarəetmə Məcəlləsi” ilə Gürcüstan vətəndaşları üçün verilən hər hansı bir hüququn istifadəsi halı olmuşdur ya yox? Xahiş edirik, misallar gətirin.

***Qeyd:*** *nəzərə alın ki, hər bir maddəni xırdalamaq lazım deyil. İştirak forması (bunun prosedurları ayrı-ayı maddələrdə ətraflı verilir) siyahı şəklində 85-ci maddənin 4-cü bəndində verilir.*

**Fəallıq #2**

Müəllim şagirdlərə ictimai rəyin hansı əhəmiyyətinin olduğunu izah edir və müəllimin köməkliyi ilə şagirdlər də mərhələlərə əsasən, birinci praktiki tapşırığı həyata keçirməyə başlayırlar. Layihənin həyata keçirilmə mərhələləri şagirdin kitabında ətraflı şəkildə təsvir edilmişdir. Şagirdlər onları 10-cu, 11, 12-ci dərslərin ərzində keçəcəklər.

***Qeyd:*** *Müəllim özünüidarəetmənin əsas məqsədini,* ***öz səlahiyyətləri*** *hüdudlarında vətəndaşların maraqlarının razı salınmasını təqdim edən mühitlərə diqqəti yönəltməlidir. Müvafiq olaraq, vətəndaşların istəklərini bilmək hər bir yaxşı hakimyyət üçün vacibdir.*

## 11-ci dərs

**Fəallıq #1**

Müəllim şagirdlərlə birlikdə diskussiya vasitəsilə layihənin I, II və III mərhələləri zamanı həyata keçirilmiş sorğu nəticələrini və analizi qısaca təhlil edir.

Şagirdlər öz yaşadıqları yerdə (şəhərdə/şəhərin məntəqəsində, qəsəbədə, kənddə) qonşuluqda, dostlar arasında, məktəbdə "İctimai və şəxsi tələbatlar – hansı məsələlərin və ya problemlərin həllində mənə özünüidarəetmə ilə sıx əməkdaşlıq etmək lazımdır? " ictimai sorğunu keçirmək üçün (sorğu anketinin nümunəsinə şagirdin kitabında Qoşma 6-da baxa bilərsiniz) sorğu anketini hazırlayırlar.

***Qeyd:***

*1. Sorğu anketi növbəti mərhələlərin əsasında hazırlanır:*

- *Sorğu anketinin məqsədləri və məsələlərinin müəyyənləşdirilməsi (tədqiqatın məqsədi vətəndaşların elə bir ehtiyaclarını aşkarlamaqdır, ki bunun da həlli özünüidarəetmə ilə əməkdaşlıq nəticəsində mümkün olur);*
- *Sorğu tipinin təyin edilməsi (şagirdlərin özləri respondentlərə sorğu anketlərini paylayırlar və ya telefon vasitəsilə onlarla əlaqə saxlayırlar);*
- *Funksiyaların bölünməsi (sorğu anketini kim tərtib edəcək, kim sorğunu keçirəcək, kim nəticələri yekunlaşdıracaq və tədqiqatın nəticələri üzrə təqdimatı kim hazırlayacaqdır).*

*2. Müəllim şagirdlərlə birlikdə müəyyənləşdirir ki,şagirdlər neçə vətəndaş arasında sorğu keçirəcəklər – bu rəqəm bir neçə onluqdan bir neçə yüzlüyə qədər ola bilər. Real olmayan planları əks etdirməyin, həddən artıq insanlar arasında sorğu aparmağa çalışmayın.*

*3. Növbəti dərsi müəllim sorğunu keçirdikdən sonra planlaşdırmalıdır.*

# 12-ci dərs

**Fəallıq #1**

Müəllim sorğu nəticələrini şagirdlərlə birlikdə cəmləşdirir. Sonra şagirdlər təqdimatları hansı məsələlər üzrə hazırlayacaqlarını seçirlər. Bunun üçün debatlar aparmaq və bu yolla şagirdlərin sonra yerli özünüidarəetmə nümayəndəsinə təqdim edəcəkləri məsələlər seçmək yaxşı olardı.

***Qeyd:***

1. *Təqdimatlar özünüidarəetmədə mövcud hər hansı bir konkret problemə (yararsız daxili yollar, zibilin çıxarılması, su təchizatı sistemində mövcud problemlər) toxunmalıdır;*
2. *Onlarda sorğu aparılmış vətəndaşların istəkləri və hakimiyyətə qarşı söylənilmiş konkret fikirlər və ya tövsiyələr görünməlidir.*

**Fəallıq #2**

Əsas məsələnin/məsələlərin təqdimatının cizgisini şagirdlər birlikdə edirlər: planlaşdırırlar ki, kim və hansı şəkildə təqdim edəcəkdir. Debatlar metodunun istifadəsi ilə bir neçə ən yaxşı layihə və təqdimat seçilir. Sonra müəllim şagirdlərin rollarını bölür – özünüidarəetmənin nümayəndələri ilə görüş zamanı kim nə etməlidir. Rollarla oyun və vəziyyətin modelləşdirilməsi metodlarının nəzərə alınması ilə, sinifdə modelləşdirilmiş görüş keçirilir ki, real görüş zamanı hər kəs öz funksiyasını dəqiq bilsin və hər hansı bir dəqiqsizliyin və ya anlaşılmazlığın qarşısını alsın.

***Qeyd:*** *müəllim təqdimatların həcminə diqqət verməlidir. Əgər bir neçə təqdimat olarsa, hər birinə bir neçə dəqiqə vaxt verməlidir. Ümumiyyətlə, qəbul edilmişdir ki,* ***ənənəvi təqdimatın müddəti 15-20 dəqiqədir,*** *bundan sonra dəqiqləşdirilmiş sual-cavab rejimində diskussiya keçirilir. Yaxşı*

*olardı ki, təqdimatlar və diskussiya, maksimum olaraq,* ***1-1,5 saat*** *davam etdirilsin ki, dinəyicilər yorulmasınlar və məlumat axıra qədər uyğun şəkildə qavranılsın.*

**Fəallıq #3**

Təqdimatın (təqdimatların) hansı məsələlər üzrə hazırlanacağı seçildikdən sonra şagirdlər müəllimin köməkliyi ilə rəsmi məktub hazırlamalı və özünüidarəetmə nümayəndəsini görüşə dəvət etməlidirlər. Görüş məktəbdə və ya sakrebuloda keçirilə bilər (bu məqsədlə, şagirdin kitabının Qoşma 3-də verilən kollektiv məktub formasından istifadə etmək olar).

***Qeyd:*** *özünüidarəetmə nümayəndələrinin dəvəti baş tutmadığı halda:*

- *İctimai məsləhətçilər şurasının nümayəndələri ilə görüş keçirilə bilər ki, bunların da bələdiyyə başçısına konkret təklifləri çatdırmaq imkanları vardır;*
- *Məntəqənin ümumi toplantı təşəbbüskarlarının və ya seçilmiş şəxsin dəvət edilməsi də imkanlardan biridir (bu strukturun olduğu məntəqədə)*

***Qeyd:*** *əgər müəllim 12-ci dərsin ərzində təqdimatları yoxlaya bilmirsə, arzu olunduğu halda, ona əlavə dərs ayırmalıdır.*

# Dərs 13

# Özünüidarəetmə nümayəndələri ilə görüş

**Məqsədlər:**

- Özünüidarəetmənin nümayəndələri ilə görüşün təşkili;
- Yerli özünüidarəetmə ilə əməkdaşlığın konkret yollarının əks etdirilməsi.

**Lazımi resurslar** – dərslik, iş dəftəri, qələmlər. İmkan daxilində, proyektordan istifadə etmək yaxşı olardı.

**Müddəti** – bir dərs.

**Fəallıq #1**

Özünüidarəetmə nümayəndəsi/nümayəndələri ilə görüş təqdimatların və diskussiyaların formatında keçiriləcəkdir:

1. Şagirdlər özünüidarəetmə hakimiyyətinin orqanlarına öz təqdimatlarını və təkliflərini təqdim edirlər;
2. Özünüidarəetmə nümayəndələri şagirdləri bu məsələ ilə əlaqədar özünüidarəetmənin münasibəti ilə tanış edir (artıq nə planlaşdırılmışdır, nə planlaşdırılır, nə həyata keçirilə bilməyəcəkdir və nə üçün?);
3. Şagirdlər sual-cavab rejimində maraqlı məsələlər üzrə məlumat alacaqlar;

**Unutmayın:** problemin səbəblərindən biri məhz özünüidarəetmə tərəfindən passivlik və ya əməkdaşlığın qəbul edilməməsi ola bilər. Əgər bu zaman şagirdlər artıq özünüidarəetmənin funksiyasının nə olduğunu və vətəndaşların da ondan nəyi tələb etdiklərini bilirlərsə, o zaman özünüidarəetmənin nümayəndələrindən daha aktiv və ən əsası isə, qanuni şəkildə öz funksiyalarını yerinə yetirməyi tələb edə bilərlər.

***Qeyd:*** *görüşün əsas məqsədi konkret məsələnin həlli deyil, şagirdlərə qanunvericiliklə verilmiş hüquqlardan necə istifadə edəcəyimizi göstərməkdir.*

# Dərs 14

# Layihə nəticələrinin yekunlaşdırılması və analizi

**Məqsədlər:**

Tədris proqramının yekunlaşdırılması, bu və ya digər gözlənilən nəticənin müqayisəsi.

**Lazımi resurslar** – dərslik, iş dəftəri, qələmlər.
**Müddəti** – bir dərs

**Fəallıq #1**

Dərsdə mövzu üzrə müzakirələr keçirin və soruşun ki, onlar tərəfindən həyata keçirilən fəallıqlar hansı nəticələri verdilər. Görüşün nəticələri ilə razısınızmı? Konkretləşdirin, hansı nəticəni gözləyirdiniz? Nəticə özünü doğrultdumu? Bütövlükdə nəticə yaxşıdır, kafidir və ya qeyri-kafi? Gələcəkdə yenə də yerli özünüidarəetmə ilə əməkdaşlıq etmək istərdinizmi və ya yox?

# FAYDALI RESURSLAR 1

## HƏYAT VƏ QANUN

### İLYA ÇAVÇAVADZE



Təbiət hər hansı bir guşəni, yəni ölkəni nə qədər zəngin bəzəsə də, insan həyatı üçün nə qədər sağlam hava və münbit torpaq versə də, insanların xoş güzəranı üçün başqa tərəfdən də şərait yaratmaq lazımdır. Əgər insanlar arasında qarşılıqlı hüquq və vəzifələr yaxşı təyin edilməmiş və aydın müəyyənləşdirilməmişdirsə, o zaman nə havanın təmizliyi, nə torpağın məhsuldarlığı və nə də ki, hər növ istehsal insanın karına gələ bilməz. İnsanların razı düşməsi, xalqların rifahı üçün bunlar çox vacibdir.

Dağlıq Şotlandiyanın mühitini yoxsul təbiət əhatə edir. O, böyük əmək və səylə təbiətdən bir tikə çörəyini ala bilir. O, fədakarlıqla, gecə-gündüz təbiətlə mübarizə aparır və bu yolla tapdığı bir tikə çörək onun zəhmətinin qüvvəsidir. Bu yolla gecəsini gündüzünə qatmağına baxmayaraq, daha xoşbəxt və məmnundur, nəinki taleyinə insan həyatı və yetişməsi üçün daha yaxşı ölkə yazılan fars. Biri özünü bəyənən, cəsarətli, azad, ürəklidir, digəri isə qapalı, əlacsız, ehtiyatlı və tapdanılmışdır. Biri ümidlə dolu irəli baxır və irəli atdığı hər bir addımı sabaha olan gücüdür, digəri isə ümidsizdir, qorxu ilə geri baxır və dünənki, dinc keçirdiyi günün həsrətini çəkir və sabaha inamı yoxdur. Biri – ruhu və varlığı ilə hər gün nailiyyətlidirsə, digəri – ruhu və varlığı ilə ölümə gedir, baxmayaraq ki, onun ətrafındakı təbiəti bol və zəngindir. Bunun səbəbi nədir? Səbəb ondadır ki, xoşbəxt şotlandiyalı: “mənimki burada bitir və burada başqasınınkı başlayır” - məsələsini bilir. Bədbəxt fars isə nə özününkünü və nə də ki, başqasınınkını bilmir. Başqasınınkı – mənim vəzifəmdir, mənimki – mənim hüququmdur.

*Hüquq və vəzifə qarşılıqlı münasibətlərdə birinci və sonuncudur. Onlar yalnız xalqın qanunvericiliyinin qüvvəsi və istedadı ilə təyin və müəyyən olunurlar. Bu cəhətdən, əlbəttə ki, təsir göstərən qanunun yararsızlığına və ya xeyrinə xalqın bais olduğunu deyənlərin dəlil-sübutları var. Axı qanunların elə əvvəli də, sonu da xalqdır. Bu sübutun nə qədər qəbul edilən olmasını araşdırmağa başlamayacağıq; biz yalnız onu söyləmək istərdik ki, ölkə təbiəti ilə nə qədər zəngin olsa da, əgər orada mənim və sənin, yəni ki, insanın hüquqları və vəzifələri çətin bir-birindən ayrılırsa və ümumiyyətlə, aydın şəkildə müəyyənləşdirilməmişdirsə, orada xalqın nailiyyəti və firavanlığı hər gün geri getməsə də, əngəllərlə və qarşılaşır. Buna misal elə bizim ölkəmizdir. Bir deyin görüm, allah xöşbəxtliyimiz üçün nə verməyibdir? Hər şeyimiz boldur, yalnız qarşılıqlı münasibətimiz yoxdur….*

Hər bir nizam-intizamlı dövlət hissə-hissə bölünmüşdür ki, ona xidmət göstərmək və qayğısını çəkmək asand olsun ...

Ölkənin idarəetməsinin iki növ quruluşu və təşkili var idi və vardır. Əgər haradasa nə isə dəyişiklik olarsa, yenə də idarəetmə ya bir tərəfə və ya ikinciyə tərəf yönəlməli deyil. **Birtərəfli idarəetmə** odur ki, dövlətin tələbatını da, cəmiyyətin tələbatını da hər yerdə və hər bir hissədə hökumət həll edir. Bu halda hökumət hər növ işi başlayan və bitirəndir, hər növ işi yaradandır – hər şeyin qayğısına qalan və sədrdir. Belə ki, hər şey ondan irəli gəlir və hər şey ona birləşir. Belə bir rəhbərlik üçün onun özünün məmurları var. Məmurları özü seçir, özü təyin edir, özü azad edir və onlar yalnız onun qarşısında məsuliyyət daşıyırlar. Belə bir idarəetmə mərkəzləşdirmə adlanır.

**İkinci növ idarəetmə** odur ki, hakimiyyət yalnız bütöv dövlət tələbatlı işləri əlində tutur və qalanları isə cəmiyyətin ixtiyarına verilir. Elə ki, hər bir hissəyə özünün yerli işləri etibar olunur. Cəmiyyətin tələbatlı işləri yerlərdə hissələrə bölünmüş, yerli məmurların köməyi ilə yerinə yetirilir. Həmin məmurları yerli sakinlərin cəmiyyətinin özü seçir və bu məmurlar həmin cəmiyyətin qarşısında məsuliyyət daşıyırlar. Belə bir rəhbərlik özünüidarəetmə adlanır, çünki bu halda dövlətin hər bir hissəsi öz işinə özü sahiblik edir, özü işinin qayğısına qalır və özü idarə edir. Bir sözlə, belə bir idarəetmənin mənası belədir ki, yerli işlər yerli sakinlər tərəfindən yerinə yetirilsin.

Bu cür idarəetmə ölkənin firavanlığı üçün daha əlverişlidir: xalqı ayıq edir, xalqın ağlını və təfəkkürünü açır, çünki xalqı ictimai firavanlıq üçün oyadır və ictimai iş üçün çalışdırır və təlim verir. Belə bir idarəetmə elə bir xüsusiyyətdir, insan harada istədikdə hər yerdə və hər zaman xalqa xeyir gətirə bilər və adətən bəhrə verər. Onun yolu və yeri olduğu hər yerdə insanların güzəranları çiçəklənmiş və ölkəyə rəhbərlik etməkdə hökumət üçün də ağır yükü yüngülləşdirmiş, üzərinə götürmüşdür.

Bir yazıçı deyir: "Tarix təsdiq edir ki, özünüidarəetmə xalqın hər növ ehtiyacı üçün ən yaxşı əlacdır. Əkdiyiniz hər yerdə xeyir gətirir: İngiltərədə, hər bir quruluşun əsasını böyük insanlıq təşkil edir, Amerikada, burada dövlətin əsası kimi bərabərlik təşkil edir. İsveçrə kimi balaca bir ölkə də (739 dördbucaq mil) eyni xoşluq və xeyirlə hərəkət edir və ucsuz-bucaqsız çılpaq çölləri olan Şimali Amerikada da belədir. Orada da xoş güzəran var və mənimsənilmişdir, məşhur təhsili olan Londonda da və təhsilsiz xalqı olan Kanadada, Avstraliyadada və digər ingilis müstəmləkələrində də…."

Belədir, amma bu özünüidarəetmənin olduqca çoxlu düşmənləri var; bəzilərinin yuxusuna və dincliyinə rahatlıq vermir. Deyirlər ki, cəmiyyətə bu hüququn verilməsi təhlükəlidir: qatma-qarışıqlığa səbəb olacaq, özünü böyüdəcək və tabeçilikdən çıxacaq.

*Prussiya Elzası və Lotaringiyanı Fransanın əlindən alandan sonra parlamentdə söhbət ondan düşdü ki, bu yenicə zəbt olunmuş ölkələrə necə bir idarəçilik verilsin. Bismark belə dedi: "**Elzas və Lotaringiyada** özünüidarəetməni gücləndirmək lazımdır. Yerli cəmiyyəti yerli özünüidarəetmə üçün toplamaq lazımdır. Bu toplantıdan ölkənin ehtiyaclarını daha çox öyrənə biləcəyik, nəinki Prussiya məmurlarından. Yerli əhali arasında seçilən məmurlar bizim üçün heç bir təhlükə yaratmırlar. Bizim tərəfimizdən təyin edilən məmur onlar üçün yad adam olacaq və onun sıradan kənar bir əməli belə camaat arasında narazıçılığa səbəb olacaq və hökumətin niyyəti və istəyi ilə razı olmayacaq. Mənə elə gəlir ki, onlar tərəfindən seçilən məmurlar elə də qorxulu deyillər, nəinki bizim Prussiyanın məmurları".*

*Əgər azadlığın tərəfdarı olmayan Bismark kimi bir insan özünüidarəetmə üçün və Almaniyaya tabe olmaq istəməyən ölkələr haqqında belə çalışırdısa, deməli daşürəkli və zalım olan Bismark özünüidarəetməni verməkdən başqa yolla xalqın ürəyini almağı bacarmırdı.*

Bu özünüidarəetmənin təyin edilməsi üçün ümumi dövlət tələbatlı işlərin dövlət hökuməti ilə ölçüləcəyi və ictimai işlərin isə - yerli cəmiyyətlə ölçüsünü tapmaq çox çətindir. Bu orta həqiqətin sərhədini tapmaq çətindir, çünki təbiətinə əsasən də bu iki tələbatların sapları bir-birinə bağlanmışlar, hər şeydə olmasa da, bir çox şeylərdə. Amma özünüidarəetmənin tərifinə onu deyə bilərik ki, əgər burada hədd aşılarsa, bunun heç bir fəsadı yoxdur, hər halda dövlət – hökumət həddi aşdığında vurulan zərər qədər fəsadı yoxdur...

Yerli özünüidarəetmə və ali hakimiyyət nə bir-birinin eynisi, nə də ki, mübahisəçi və düşmən deyillər. Eyni ölkədə, hər ikisi də dinc şəkildə yerləşir və bir-birinin xeyrinə davranmalıdırlar...

*Hər bir dövlət bir xalqdan və millətdən ibarət olsa da, yenə də yerli müxtəlifliyə görə müxtəlif xassələrin tərəfini təqdim edir. Eyni bir dövlətdə hər bir tərəfin, hər bir hissənin özünün ağrısı və şadlığı, özünün ehtiyacı, öz qayğısı və ürəyini ağırlaşdıran fikri var.* Ali hökumətin birbaşa təyinatı odur ki, hamının ağrısını bilsin, ona əlac tapsın, bütün xeyirlərə və xoş güzərana yol açsın. Bunun üçün hökumət hər bir guşənin həqiqi vəziyyətini, onun xeyir-kədərini çox yaxşı bilməli və kömək mümkün olduğunda kömək əlini uzatmalıdır. *Əlbəttə ki, ali hökumətin özü, başqalarının yardımı xaricində, hər yerə nəzarət etmək üçün nə göz, nə dinləmək üçün qulaq və nədə əl yetirmək üçün əl çatdıra bilməz. Əlbəttə ki, bunun üçün onun hər yerə yayılmış və yerlərə uyğun olan öz məmurları olmalıdır, yəni bu məmurluğu yerli əhalinin özünə təhvil verməlidir, etibar etməlidir. Birinci variant özünü heç bir yerdə doğrultmadı, bunun üçün də başqasının əli ilə iş görmək heç yerdə və heç nədə yararlı olmayıb və olmayacaqdır. Başqasının, yalandır, mənim üçün ürəyi ağrımayacaq, necə ki, mənim özümün; başqası ağrımı-acımı mənim özüm kimi paylaşmayacaq. Bunu hər yerdə belə qəbul edirlər və bunun üçün də həmin vasitə heç yerdə bəyənilməmiş və rədd edilmişdir.*

Ancaq ali hökumətin yerli əhalidən nəzarətçi, məmur və yerli işlərin rəhbərini seçməsi tam başqa haldır. Onlar öz vəziyyətlərini, öz ehtiyaclarını və özlərinə qayğı göstərməyi daha yaxşı bilir, öz işlərinə daha yaxşı sahib çıxırlar. Bu halda, bir tərəfdən, hər guşənin həqiqi ehtiyacı, yalansız ağrısı və həqiqi intizarları hökumətə qədər çatır, ikinci tərəfdən - ali hökumətin ümumi qayğısı eyni ürək ağrısı ilə, eyni xeyirlə hər bir guşəyə çatır, yararlı olur.

Buradan ali hökumət və özünüidarəetmənin arasında sərhədin harada qoyulmalı olması məlum olur. Ali hökumət, hər növ ümumi işlərin qayğısına qalanı və xadimidir -yəni hər bir hissənin deyil, hamıya eyni şəkildə aid olan və ümumi xoş güzəran üçün tanınan işlərin.

Bu növ işlər ümumi qanunvericiliyin meydana gəlməsinə, ümumi maliyyə (mədaxil-məxaric) hərəkətinə və ümumi hərbi əhval-ruhiyyəyə aiddir. Bunların hamısı ali hökumətə məxsusdur və özünüidarəetmənin, bir özəl idarə kimi, bu işlərdə səsi olmur: o, ali hökumətdən verilən, təşkil və təsis edilən hər bir sərəncama tabe olur. Belə halda özünüidarəetmə ali hökumətə tabe olur və ümumi qanunun yerli müdafiəçisi və icraçısıdır.

Dövlətin ümumi vəziyyətindən ibarət olmayanlar şübhəsiz özünüidarəetməyə aiddirlər. Özünüidarəetmə öz yerində hər bir daxili işin rəhbəri və icraçısı, hər ümumi dövlət xərclərinin və xidmətin yerli sakinlər arasında bölüşdürəni, yerli cəmiyyətin sırası və qaydasının qurucusu, onun mənəviyyatının, hörmətinin, əmlakının, təhsilinin və ümumi xoş güzəranının qayğıkeşidir. Bütün bunları o dərəcədə yerinə yetirir, nə qədər ki, bunlar onun idarəetmə ərazisində yaşayanlara aid edilir və ümumi dövlət qanunu və sərəncamına qarşı çıxmır. Bundan görünür ki, özünüidarəetmə bir tərəfdən yerli işlərin qurucusu və icraçısıdır, digər tərəfdən isə ali hökumətin hakim orqanıdır. *Bu şəkildə, o ali hakimiyyət qarşısında yerli ictimaiyyət orqanı, yerli özümüidarəetmə qarşısında isə ali hakimiyyətin orqanıdır.*

Məlumdur ki, ali hökumət hər necə olsa da – diktator, monarxiya təmsilçisi, əgər Respublika şəklində, - birində də, ikincidə və üçüncüdə də özünüidarəetmə dinc şəkildə qurulsa, ictimai quruluşa mane olmamalı, əl verməli və bununla ali hökumətin ən yaxşı gözü və əli olmalı, hər yerə çatmalıdır.

*Özünüidarəetmə... Uzun zamandır ki, İngiltərədə də fəaliyyət göstərir. İngiltərədə monarxiya təmsilçi tipli hakimiyyətdir habelə Şimali-Amerika da respublikadır. Bu nümunələr bizə aydın şəkildə göstərir ki, özünüidarəetmə ali hakimiyyətin müxtəlif növündən asılı deyil. Özünüidarəetmənin öz adi bəhrəsini gətirməsi üçün özünə uyğun olaraq qurulmalı və əkilməlidir. Bu qurumda onun heç bir əsas mənsubiyyəti unudulmamalıdır, heç bir əsaslı fikri pozulmamalıdır. Əgər insan bu ehtiyatdan istifadə etməzsə, o zaman özünüidarəetmə bihudə bir söz, sadəcə bir ad olacaqdır...*

Özünüidarəetmənin ən başlıca əsasları bunlardır:

1. Səs və seçim hüququ yetkinlik yaşına çatmış hər bir yerli vətəndaşa verilməlidir; belə ki, hər bir sakinin öhdəlikdə öz payı olmalıdır;
2. Yerli idarə dairəsində yaşayan hər kəs idarənin tabeliyində olmalıdır; birinci halda olduğu kimi, imtiyazlar arasında bölgü və dərəcələrə ayırma yolverilməzdir və özünüidarəetmənin təbiətinə ziddir;
3. Yerli hakimləri və eləcə də məmurları yerli sakinlər seçməlidirlər;
4. Hər yerli vəzifəyə malik şəxs xüsusi böyüklərin qarşısında deyil, ictimai ədalət və qanun qarşısında məsuliyyət daşımalıdır.

*... Bizim aramızda xırda-xırda kəndlər çoxdur. Bəzən bu xırda kəndlərdə torpağa görə və ya bir-birinin arasında və yaxud da böyük kəndlər arasında elə bir düşmənçilik və mübahisələr olur ki, onları təkrar bir-biriilə birləşdirmək od və suyun birləşməsi kimi bir şey olur. Bir çox yerlərdə belə də olmuşdur, çünki yaxınlığına görə kəndləri birləşdirdilər və başqa yerli şəraitə diqqət vermədilər, və bunları bilənlər, - bildiyiniz kimi, - hakim dairələrdə çox azdırlar. Bu gün də bir çox belə pozulmuş kənd cəmiyyəti var və indiyə qədər elə biri tapılmamışdır ki, buna diqqət yetirsin, dərdinə əlac tapsın. Bundan əlavə, böyük kəndlərə yazılmış o qədər kiçik kəndlər var və kiçik olduqları üçün onların səsi səhrada fəryad edənin səsi qədər eşidilir - vəssalam. Çoxun yanında az nə edə bilər? Buda xırda kəndlərin dərdi başqa bir dərddi -, ayrı olmağı çox istəyirlər, bacarmırlar, çünki qayda-qanun məmurların olmasını tələb edir... Bu qədər məmuru kiçik kənd necə saxlasın?*

... Hesab edirik ki, dediklərimiz kəndlərin razılığını əldə etmək arzusunda olan hər şəxs üçün bu məsələ ilə bağlı qanunvericiliyə yenidən göz gəzdirmək işində yetərli bir dəlildir. Məsələ odur ki, bu zəncirdə kənd yalnız axırıncı halqadır. Onun üçündə həmin zəncir kəntdə başlayıb, kəntdə tamamlanmamalıdır. Kəndi- qəza; qəzanı isə quberniya izləməlidir...

... Tutalım camaat doğrudan da hazır deyil. Bəs hazır olmayanı hazırlamamalıyıqmı? Camaatı nə hazırlaşdırar? Təhsil, təlim, təcrübə, hazırlıq tələb olunan işlərdə məlumatlandırma. İnsanın əl-qolunu bağlayıb və ona deyirik ki, mübarizə etməyi öyrən; camaata hakimi seçmək imkanını vermirik və deyirik ki, yaxşı hakimləri seçməyi öyrən. Bu ona bənzəyir: üzməyi öyrən amma suya da girmə; yolu keç və evdən çölə çıxma. Camaat bu möcüzəni edə bilməyəcək ... xalq üçün çox vacibdir ki, onun gündəlik xırda işləri üçün lazımi hakimi ona çox yaxın olsun....

# FAYDALI RESURSLAR 2

## Gürcüstanın Orqan Qanunu
## Yerli Özünüidarəetmə Məcəlləsi
## (2018-ci il 1 iyul vəziyyəti ilə)

Yerli Özünüidarəetmə Məcəlləsi özünüidarəetmə sahəsində mövcud bir sıra qanunları birləşdirdi və bir sıra qaydaları sistemləşdirdi. Müvafiq olaraq, özünüidarəetmə sahəsini tənzimləyən qanunvericilik aktlarının konsolidasiyası baş verdi. "Yerli özünüidarəetmə məcəlləsi ilə" müqayisədə böyük həcm də bununla izah edilir. Tam mətnin dərc edilməsini, formatın məhdudiyyətinə görə, məqsədəuyğun hesab etmirik. Məcəllənin tam variantı ilə Gürcüstanın qanunvericilik carçısının internet səhifəsində tanış ola bilərsiniz:

https://matsne.gov.ge/index.php?option=com_ldmssearch&view=docView&id=2244429&lang=ge

Aşağıda verilmişdir:

- Yerli özünüidarəetmə Məcəlləsinin strukturunun qısa təsviri;
- Məcəllənin hissələrinin, fəsillərinin və maddələrinin siyahısı;
- Köməkçi dərslikdə verilən məsələlərə aid olan Məcəllənin maddələrindən geniş çıxarış.

Ümid edirik ki, belə bir struktur müəllimə təhlil edilən məsələlərdə düzgün istiqamət götürməsi üçün dəstək verəcəkdir.

## 1. Yerli özünüidarəetmə Məcəlləsinin strukturunun qısa təsviri

Məcəllə 8 hissədən, 21 fəsildən və 184 maddədən ibarətdir, onda bunlar təhlil edilir:

### I hissə - Yerli özünüidarəetmənin əsas prinsipləri - əsas mahiyyəti və məqsədləri

1-ci fəsil. Ümumi qaydalar – qanun nəyə aiddir, özünüidarəetmə nəyi təqdim edir, hansı ərazilərdə həyata keçirilir və onun hansı xüsusiyyətləri və fəaliyyət zəminləri vardır;

2-ci fəsil. İnzibati-ərazi qurumu məsələləri – bölgü yolu ilə yeni bələdiyyələrin (munisipalitetlərin) yaradılması, bələdiyyələrin (munisipalitetlərin) birləşməsi, sərhədlərin dəyişməsi və müxtəlif müvafiq dəyişikliklərin tənzimləyici normaları;

3-cü fəsil. Səriştələr – Özünüidarəetmənin özəl və nümayəndəlik (mərkəzdən verilmiş) səlahiyyətləri, mümkün əməkdaşlıq mexanizmləri.

### II hissə - Bələdiyyə (munisipalitet) orqanları – bu işi kim və hansı strukturlar həyata keçirirlər?

4-cü fəsil. Təmsilçi orqan –sakrebulonun ((şuranın)) hüquqları, fəaliyyət qaydası, strukturu (təsisatlar), vəzifəli şəxslər, onların seçki, fəaliyyət və hesabat vermə qaydası;

5-ci fəsil. İcraçı orqanlar – bələdiyyə başçısı/qamqebeli (sədr), bələdiyyənin/ qamqeobanın (şuranın) statusu, strukturu, səlahiyyətləri, fəaliyyəti, seçki və yenidən seçki qaydası;

6 –cı fəsil. Özünüidarəetmə orqanları tərəfindən qəbul edilmiş aktların strukturu və təyinatı.

### III hissə - Tbilisinin özünüidarəetməsi – Tbilisi özünüidarəetməsi başqalarından nə ilə fərqlənir?

7-ci fəsil fəsil. Tbilisinin statusu, əlavə hüquqlar, orqanlar, inzibati bölgü;

8-ci fəsil. Tbilisi sakrebulosu – 4-cü fəslə uyğun strukturla Tbilisi sakrebulosunu təsvir edir;

9-cu fəsil. Tbilisi bələdiyyəsi - 5-ci fəsildə təsvir edilmiş strukturlardan fərqli olaraq Tbilisi bələdiyyə başçısının hansı fərqli status və əlavə hüquqları vardır?;

10-cu fəsil. Tbilisi ərazi vahidlərinin – rayonların strukturu və fəaliyyət qaydası.

### IV hissə - Vətəndaşların iştirak formaları – vətəndaşların hansı cəlbetmə mexanizmləri vardır?

11-ci fəsil. Cəlbolunma zəminləri və özünüidarəetmələrin öhdəlikləri, qəsəbənin ümumi toplantısı, vətəndaş məsləhətçilərinin şurası petisiyanın təqdim edilməsi, özünüidarəetmənin fəaliyyətinin şəffaflığının başqa formaları.

**V hissə - Özünüidarəetmənin büdcəsi və iqtisadi əsasları - gəlirlər, xərclər və onların tənzimlənməsi**

12-ci fəsil. Büdcə - büdcə prosesi, hər növ gəlirlər və onların formaları, mərkəzi hakimiyyət tərəfindən köçürülmüş transferlər və onların növləri, gəlirin başqa mənbələri, borc, ödəmələr və təzminat qaydası;

13-cü fəsil. Özünüidarəetmənin əmlakı – mülkiyyətdə olan əmlakın idarəetmə qaydaları və prinsipləri;

14-cü fəsil. Əmlakın yaradılması - yeni əmlak mənbələri, onların idarə edilməsi;

15. Əmlak üzərində sərəncam – özəlləşdirmə və ya istifadəyə vermə qaydası (auksion, aksiyalar, başqa formalar)

**VI hissə - özünüidarəetmələr üzərində dövlət nəzarəti – özünüidarəetmə necə yoxlanılır?**

16-cı fəsil. İş fəaliyyətinə nəzarət - özünüidarəetmə tərəfindən buraxılan aktların qanunla uyğunluğu və həyata keçirilmiş fəaliyyətin keyfiyyətinin yoxlanılması, baş qaldırmış mübahisələrin həlli qaydası;

17-ci fəsil. Özünüidarəetmənin fəaliyyətinin auditi (dövlət, daxili və müstəqil);

18-ci fəsil. Birbaşa dövlət idarəetməsi - özünüidarəetmənin fəaliyyəti hansı halda dayandırılır, dövlət onu necə və hansı mexanizmlərlə əvəz edir və hansı müddətlə?

**VII hissə - Dairə şurası – Özünüidarəetmə və mərkəzi hakimiyyət arasında hansı zəncir vardır?**

19-cu fəsil. Dairə məşvərət şurası - onun hüquqları, təşkili və fəaliyyət qaydası.

**VIII fəsil – Labüd və yekun qaydalar – Məcəllənin mərhələlərlə fəaliyyət sxemi**

20-ci fəsil. Labüd qaydalar – yeni inzibati qurum necə və hansı müddətdə həyata keçirilməlidir; maliyyə və əmlak resurslarının munisipalitetlər üçün ötürülməsi; bunun üçün hansı növ insani, texniki, vaxt resurslarının və strukturlarının hazırlanması lazımdır; bu fəaliyyətin həyata keçirilməsində hansı qurumlar məsuliyyət daşıyırlar?

Fəsil 21. Yekun qaydalar – Məcəllənin qəbulu nəticəsində qüvvəsini itirmiş köhnə aktların siyahısı və Məcəllənin fəaliyyət qaydası.

## 2. Yerli özünüidarəetmə Məcəlləsinin hissələrinin, fəsillərinin və maddələrinin siyahısı

### I hissə - Yerli özünüidarəetmə

### I fəsil – Ümumi müddəalar

Maddə 1. Qanunun fəaliyyət sahəsi;
Maddə 2. Yerli özünüidarəetmə anlayışı;
Maddə 3. Bələdiyyələr – Özünüidarəedən şəhər və özünüidarəedən icma;
Maddə 4. Əhalinin məskunlaşmasının ilkin ərazi vahidi və munisipalitetin inzibati vahidi;
Maddə 5. Yerli özünüidarəetmənin həyata keçirilməsinin hüquqi əsasları və nəzərləri;
Maddə 6. Gürcüstan vətəndaşları tərəfindən yerli özünüidarəetmənin həyata keçirilmə hüququ;
Maddə 7. Bələdiyyənin səlahiyyətlərinin həyata keçirilməsinin zəminləri;
Maddə 8. Bələdiyyənin simvolları;
Maddə 9. Bələdiyyə orqanlarının iş və fəaliyyət dili.

### II fəsil – Yerli özünüidarəetmənin inzibati-ərazi qurumu

Maddə 10. Bələdiyyənin yaradılması və işıqlandırılması. Bələdiyyənin inzibati mərkəzinin təyin edilməsi və dəyişdirilməsi;
Maddə 11. Bələdiyyənin inzibati sərhədlərinin dəyişdirilməsi;
Maddə 12. Bələdiyyə şurası ilə məşvərətin aparılması qaydası;
Maddə 13. Bələdiyyənin yaradılması, ləğv edilməsi, onun inzibati sərhədlərin dəyişdirilməsi haqqında qərarın şikayətləndirmə qaydası;
Maddə 14. Bələdiyyənin qeydiyyatı.

### III fəsil - Bələdiyyənin səlahiyyəti

Maddə 15. Bələdiyyənin səlahiyyət növləri;
Maddə 16. Bələdiyyənin özəl səlahiyyətləri;
Maddə 17. Bələdiyyənin nümayəndəlik qaydası və şərtləri;
Maddə 18. Bələdiyyənin özəl və nümayəndəlik səlahiyyətlərin sahəsində dövlət standartları və texniki reqlamentlər;
Maddə 19. Bələdiyyənin səlahiyyətlərinin həyata keçirilmə formaları və mexanizmləri;
Maddə 20. Bələdiyyənin qeyri-sahibkar (qeyri-kommersiya) hüquqi şəxsin təsisi və ona üzvlük;
Maddə 21. Birgə fəaliyyətin həyata keçirilməsinin təşkilinə munisipalitetin hüququ;
Maddə 22. Bələdiyyənin sərhədlərarası əməkdaşlığı.

## II hissə - Bələdiyyə orqanları

### IV fəsil - Bələdiyyənin təmsilçi orqanı

Maddə 23. Bələdiyyə sakrebulosu;
Maddə 24. Bələdiyyə sakrebulosunun səlahiyyəti;
Maddə 25. Yeni seçilmiş Bələdiyyə sakrebulosunun birinci iclası və toplantısı;
Maddə 26. Bələdiyyə sakrebulosunun iş qaydası;
Maddə 27. Bələdiyyə isakrebulosunun bürosu;
Maddə 28. Bələdiyyə sakrebulosunun komissiyası;
Maddə 29. Bələdiyyə sakrebulosunun müvəqqəti işçi qrupu;
Maddə 30. Bələdiyyə sakrebulosunun fraksiyası;
Maddə 31. Bələdiyyə sakrebulosunun aparatı;
Maddə 32. Bələdiyyə sakrebulosunun vəzifəli şəxsləri;
Maddə 33. Bələdiyyə sakrebulosunun sədri;
Maddə 34. Bələdiyyə sakrebulosunun sədri vəzifəsindən istefa, onun səlahiyyətlərinin dayandırılması;
Maddə 35. Bələdiyyə sakrebulosunun sədrinin səlahiyyətləri;
Maddə 36. Bələdiyyə sakrebulosunun sədr müavini;
Maddə 37. Bələdiyyə sakrebulosunun komissiyasının sədri;
Maddə 38. Bələdiyyə sakrebulosunun fraksiyasının sədri və fraksiya sədrinin müavini;
Maddə 39. Bələdiyyə sakrebulosunun vəzifəli şəxsinin vəzifə uyğunsuzluğu;
Maddə 40. Bələdiyyə sakrebulosunun üzvlük statusu;
Maddə 41. Bələdiyyə sakrebulosunun üzvünün əmək haqqı;
Maddə 42. Bələdiyyə sakrebulosunun üzvünün vəzifə uyğunsuzluğu;
Maddə 43. Bələdiyyə sakrebulosunun üzvünün səlahiyyətlərinin vaxtından əvvəl kəsilməsi və dayandırılması;
Maddə 44. Bələdiyyə sakrebulosunun üzvünün iş formaları;
Maddə 45. Bələdiyyə sakrebulosunun üzvünün ümumi səlahiyyətləri və öhdəlikləri;
Maddə 46. Bələdiyyə sakrebulosunun üzvünün səlahiyyətlərinin Munisipalitetin sakrebulo iclasında həyata keçirilməsi;
Maddə 47. Bələdiyyə sakrebulosunun üzvünün seçicilərlə ünsiyyəti

### V fəsil- Bələdiyyənin icraçı orqanı

Maddə 48. Mer/bələdiyyə başçısı;
Maddə 49. Merin /bələdiyyə başçısının seçkisi;
Maddə 50. Meriya/bələdiyyə;
Maddə 51. Mer /bələdiyyə başçısı üçün etimadsızlığın elan edilməsi;
Maddə 52. Bələdiyyənin vəzifəli şəxsləri;
Maddə 53. Bələdiyyənin vəzifəli şəxslərinin və başqa qulluqçuların əmək haqqı;
Maddə 54. Merin/bələdiyyə başçısının səlahiyyətləri;

Maddə 55. Merin /bələdiyyə başçısının vəzifə uyğunsuzluğu;
Maddə 56. Merin/bələdiyyə başçısının səlahiyyətlərinin dayandırılma və kəsilməsi əsasları;
Maddə 57. Merin /bələdiyyə başçısının birinci müavini və müavini (müavinləri);
Maddə 58. Merin /bələdiyyə başçısının birinci müavini və müavininin əmək haqqıları;
Maddə 59. Meriyanın /bələdiyyənin vəzifəli şəxslərinin səlahiyyətlərinin dayandırılması və kəsilməsi;
Maddə 60. Meriyanın /bələdiyyənin struktur vahidinin rəhbəri.

### VI fəsil – Bələdiyyə orqanlarının və vəzifəli şəxslərin inzibati-hüquqi aktları

Maddə 61. Bələdiyyə orqanlarının və vəzifəli şəxslərin inzibati-hüquqi aktları;
Maddə 62. Bələdiyyənin inzibati-hüquqi aktının şikayətləndirilməsi.

## III hissə − Gürcüstanın paytaxtı − Tbilisi

### VII fəsil – Gürcüstanın paytaxt statusu

Maddə 63. Gürcüstanın paytaxtı və onun statusu;
Maddə 64. Tbilisinin özəl səlahiyyətləri;
Maddə 65. Tbilisinin orqanları;
Maddə 66. Tbilisinin inzibati vahidləri.

### VIII fəsil - Tbilisinin təmsilçi orqanı

Maddə 67. Tbilisi sakrebulosu;
Maddə 68. Tbilisi sakrebulosunun səlahiyyətləri;
Maddə 69. Tbilisi sakrebulosunun növbədənkənar iclasının çağırılması;
Maddə 70. Tbilisi sakrebulosunun komissiyaları;
Maddə 71. Tbilisi sakrebulosunun sədr müavinləri.

### IX fəsil - Tbilisinin icraçı orqanlarının sistemi

Maddə 72. Tbilisi bələdiyyəsi;
Maddə 73. Tbilisinin bələdiyyə başçısı;
Maddə 74. Tbilisi hakimiyyəti;
Maddə 75. Hakimiyyətin səlahiyyətləri;
Maddə 76. Tbilisi bələdiyyə başçısının birinci müavini və müavinləri;
Maddə 77. Tbilisi bələdiyyəsinin struktur vahidləri;
Maddə 78. Tbilisi orqanlarının maliyyə nəzarəti və yoxlanışı;
Maddə 79. İctimai Hüquqlu hüquqi şəxsin təsis edilməsi.

### X fəsil – Tbilisi bələdiyyəsinin ərazi orqanı – Tbilisi rayon qamqeobası

Maddə 80. Tbilisi rayon qamqeobası;
Maddə 81. Rayon qamqeobasının vəzifəli şəxsləri;
Maddə 82. Rayon qamqebelisi;
Maddə 83. Rayon qamqebelisinin müavinləri;
Maddə 84. Rayon qamqeobasının struktur vahidləri.

## IV hissə - Yerli özünüidarəetmənin həyata keçirilməsində vətəndaşların iştirakı

### XI fəsil – Yerli özünüidarəetmənin həyata keçirilməsində vətəndaşların iştirakı

Maddə 85. Yerli özünüidarəetmənin həyata keçirilməsində vətəndaşların iştirakının zəmini və formaları;
Maddə 85$^{1}$. Məlumatın əlçatması
Maddə 85$^{2}$. Qəsəbənin ümumi toplantısı
Maddə 85$^{3}$. Qəsəbənin ümumi toplantısının səlahiyyəti
Maddə 85$^{4}$. Qəsəbənin ümumi toplantısının çağırılma qaydası
Maddə 85$^{5}$. Qəsəbənin ümumi toplantısının iş qaydası
Maddə 86. Petisiya
Maddə 86$^{1}$. Vətəndaş məsləhətçiləri şurası
Maddə 87. Bələdiyyənin sakrebulo və bələdiyyənin sakrebulo komissiyası iclaslarında iştirak
Maddə 88. Bələdiyyə başçısı və bələdiyyənin sakrebulo üzvünün gördüyü iş barəsində hesabatların dinlənilməsi.

## V hissə - Bələdiyyənin büdcəsi və iqtisadi əsasları

### XII fəsil - Munisipalitetin büdcəsi

Maddə 89. Bələdiyyənin büdcəsi;
Maddə 90. Bələdiyyənin büdcəsinin müstəqilliyi;
Maddə 91. Bələdiyyənin büdcə layihəsinin müzakirəsi və təsdiqlənməsi;
Maddə 92. Bələdiyyənin büdcə gəlirləri;
Maddə 93. Yerli vergilər və rüsumların müəyyənləşdirilməsi və inzibatiləşdirilmə qaydası;
Maddə 94. Bələdiyyənin büdcəsi üçün ayrılası transfer növləri;
Maddə 95. Bərabərləşdirmə transferi;
Maddə 96. Kapital transferi;

Maddə 97. Hədəf transferi;
Maddə 98. Xüsusi transfer;
Maddə 99. Munisipalitet büdcəsinin ehtiyat fondu;
Maddə 100. Munisipalitet tərəfindən kredit götürülməsi və qrant alınması;
Maddə 101. Munisipalitet büdcəsinin ödənişləri;
Maddə 102. Ödənişlərin istiqamətlərini müəyyənləşdirdikdə müstəqillik;
Maddə 103. Gəlirlərin müavinatı.

## XIII fəsil - Bələdiyyənin əmlakı

Maddə 104. Fəslin tənzimləmə sahəsi;
Maddə 105. Terminlərin izahatı;
Maddə 106. Munisipalitetin əmlakı;
Maddə 106[1]. Munisipalitetin/munisipalitetlərin ictimai hüquqlu hüquqi şəxsi
Maddə 107. Munisipalitet üçün bu qanunla nəzərdə tutulmuş əmlak;
Maddə 108. Munisipalitetin əmlakında olan əmlakın dövlət üçün əmlaka təmənnasız verilməsi;
Maddə 109. Munisipalitetin əmlak üzərində hüququ;
Maddə 110. Munisipalitet tərəfindən əmlak hüquqlarının həyata keçirilməsinin əsas prinsipləri.

## XIV fəsil - Bələdiyyənin əmlakının yaradılması

Maddə 111. Bələdiyyənin əmlakının yaradılması mənbələri;
Maddə 112. Dövlət mülkiyyətində olan əmlakın munisipalitetin mülkiyyətinə verilməsi;
Maddə 113. Dövlət mülkiyyətində olan əmlakın Bələdiyyənin mülkiyyətinə təmənnasız verilməsi;
Maddə 114. Dövlət tərəfindən Bələdiyyənin mülkiyyətinə verilmiş əmlakın qeydiyyatı.

## XV fəsil - Bələdiyyə əmlakının özəlləşdirilməsi və faydalanma hüququ ilə verilməsi

Maddə 115. Bələdiyyənin əmlakının özəlləşdirmə, faydalanma və idarəçilik hüququ ilə verilməsinin tənzimlənməsi və ilkin özəlləşdirmə qiymətinin müəyyənləşdirilməsinin xüsusi halları;
Maddə 116. Bələdiyyənin nümayəndəsi, əmlak üzərində sərəncam verdikdə;
Maddə 117. Bələdiyyənin əmlakını əldə edən;
Maddə 118. Bələdiyyənin əmlakın özəlləşdirmə formaları;
Maddə 118[1]. Tbilisi əmlakının özəlləşdirilmə qaydası
Maddə 118[2]. Munisipalitetin mülkiyyətində olan daşınmaz əmlakın özəlləşdirilməsinin xüsusi şərtləri
Maddə 119. Hərracın elan edilməsi və təşkili;

Maddə 120. Bələdiyyənin əmlakının özəlləşdirilməsi haqqında sazişin rəsmiləşdirilməsi və sazişin ləğv olunması;

Maddə 121. Bələdiyyənin əsas (özgəninkiləşdirilməmiş) əmlakının özgəninkiləşdirmə qaydası;

Maddə 122. Bələdiyyənin əmlakının faydalanma hüququ ilə verilmə formaları və qaydası;

Maddə 122[1]. Tbilisi əmlakının faydalanma hüququ ilə verilmə formaları və qaydası;

Maddə 123. Bələdiyyə üçün nümayəndəlik səlahiyyətinin həyata keçirilməsi üçün əmlakın faydalanma hüququ ilə ötürülməsi;

Maddə 124. Munisipalitetin əmlakında olan qeyri-maddi əmlakin xeyri;

Maddə 125. Payların və aksiyların sərəncamı formaları;

Maddə 126. Payların və aksiyların hərrac növləri;

Maddə 126[1]. Tbilisi mülkiyyətində olan payların yaxud da aksiyaların və ya sertifikatlarla təqdim edilmiş aksiyaların birbaşa və ya vəsatətçi ilə, ictimai və ya özəl təkliflə, xarici ölkənin tanınmış fond birjasında və ya verilən vaxtda beynəlxalq kapital bazarlarında mövcud təcrübənin müvafiq təkliflərinin başqa forma ilə özəlləşdirilmə qaydası

Maddə 127. Munisipalitetin mülkiyyətində olan payların və aksiyaların idarəetmə hüququ ilə verilməsi;

Maddə 127[1]. Munisipalitet mülkiyyətində olan tələblərin və hüquqların üzərində sərəncam verilməsi

Maddə 127[2]. Özəlləşdirilmiş Tbilisi əmlakını əldə edən üçün, faydalanma hüququ ilə verilən və ya idarəetmə hüququ ilə verilən Tbilisi əmlakını qəbul edən üçün bu əmlakla bağlı şərtin (şərtlərin) dəyişdirilməsi və ya ləğv edilməsi

Maddə 128. Munisipalitetin əmlakının sərəncamı nəticəsində daxil olmuş məbləğlər.

## VI hissə- Bələdiyyə orqanlarının fəaliyyətinin dövlət nəzarəti və audit. Birbaşa dövlət idarəçiliyi

### Fəsil XVI – Bələdiyyə orqanlarının iş fəaliyyətinə dövlət nəzarəti

Maddə 129. Dövlət nəzarəti anlayışı və növləri;

Maddə 130. Hüquqi nəzarət və dairə nəzarəti orqanları;

Maddə 131. Dövlət nəzarətinin həyata keçirilməsi qaydası və prinsipi;

Maddə 132. Hüquqi nəzarət;

Maddə 133. Dairə nəzarəti;

Maddə 134. Sənədlərin və məlumatın tələb edilməsi;

Maddə 134[1]. Tövsiyə təlimatı

Maddə 135. İnzibati-hüquqi aktın dayandırılması və ləğv edilməsi;

Maddə 136. Yerli özünüidarəetmənin əvəzedilməsi;

Maddə 137. Hüquqi məsləhət;

Maddə 138. Dövlət nəzarət orqanının iş fəaliyyətinin açıqlığı.

### XVII fəsil - Bələdiyyə orqanlarının iş fəaliyyətinin auditi

Maddə 139. Munisipalitet orqanlarının iş fəaliyyətinin qanuniliyinin və effektivliyinin təmin edilməsi;
Maddə 140. Munisipalitet orqanlarının iş fəaliyyətinin dövlət auditi, müstəqil audit və daxili audit.

### XVIII fəsil – Birbaşa dövlət idarəçiliyi. Şuranın buraxılması və onun fəaliyyətinin dayandırılması, Şuranın (sakrebulonun) və bələdiyyə başçısının/ merin səlahiyyətlərinə vaxtından əvvəl son verilməsi

Maddə 141. Şuranın (sakrebulonun) buraxılması və onun fəaliyyətinin dayandırılması;
Maddə 142. Şuranın və bələdiyyə başçısının səlahiyyətlərinə vaxtından əvvəl son verilməsi;
Maddə 143. Birbaşa dövlət idarəçiliyinin təsis edilməsi;
Maddə 144. Birbaşa dövlət idarəçiliyinin həyata keçirilməsi;
Maddə 145. Birbaşa dövlət idarəçiliyinin həyata keçirilmə müddəti.

## VII hissə - Dairə məşvərət şurası

### XIX fəsil – Dairə məşvərət şurasının statusu və səlahiyyəti

Maddə 146. Dairə məşvərət şurasının statusu;
Maddə 147. Dairə məşvərət şurasının tərkibi;
Maddə 148. Dairə məşvərət şurasının səlahiyyətləri;
Maddə 149. Dairə məşvərət şurasının fəaliyyət qaydası.

## VIII hissə - Labüd və yekun müddəalar

### XX fəsil – Labüd müddəalar

Maddə 150. Yerli özünüidarəetmə orqanlarının seçkiləri və səlahiyyət müddəti;
Maddə 151. Özünüidarəedən şəhərlər və munisipalitetlərin inzibati mərkəzləri;
Maddə 152. Bələdiyyənin ərazi optimallaşdırması;
Maddə 153. Qanunun fəaliyyətə düşməsi ilə əlaqədar həyata keçiriləsi tədbirlər;
Maddə 154. Büdcələr arasında gəlirlərin ayrılması;
Maddə 155. Qeyri-maliyyə fəallıqlarının artımının ümumi həcminin müəyyənləşdirilməsi;
Maddə 156. Yerli özünüidarəetmənin ictimai xidmətlərinin ştat sayının müəyyənləşdirilməsinin müvəqqəti qaydası;
Maddə 157. Yerli özünüidarəetmənin ictimai xidmətlərinin öyrənilməsi;
Maddə 158. Yeni yaradılmış munisipalitetlərin maddi-texniki təminatı;

Maddə 159. Bələdiyyə ərazisində infrastrukturun inkişafının təminatı;

Maddə 160. Bələdiyyələrin inzibati sərhədlərinin təyin edilməsi üçün kartoqrafik materialların hazırlanmasının təminatı;

Maddə 161. Keçid mərhələsində hüquqi aktların fəaliyyəti;

Maddə 162. Bələdiyyələr üçün kənd təsərrüfatı təyinatlı torpaqların verilməsi müddəti;

Maddə 163. Bələdiyyə tərəfindən içməli suyun çatdırılması və su xidmətinin istifadəsinin təminatı səlahiyyətlərinin həyata keçirilməsi şərtləri;

Maddə $163^1$. Bələdiyyədə yanğın xidmətinin təhlükəsizliyinin və fövqəladə hallardan əhalinin və ərazinin qorunmasının təminatının müvəqqəti qaydası;

Maddə $163^2$. Auksion forması ilə özəlləşdirilmiş Tbilisi əmlakını alan üçün, faydalanma hüququ ilə ötürülmüş və ya idarəetmə hüququ ilə verilən Tbilisi əmlakını qəbul edənlər üçün bu əmlakla bağlı şərtin (şərtlərin) dəyişdirilməsi və ya ləğv edilməsi qaydası

Maddə 164. Gürcüstanın işğal edilmiş ərazilərində yerli özünüidarəetmənin həyata keçirilməsi;

Maddə 165. Qanunun fəaliyyəti ilə əlaqədar həyata keçirilәsi başqa tədbirlər.

## XXI fəsil – Yekun müddəalar

Maddə 166. Qanununun qüvvəyə minməsi ilə əlaqədar qüvvəsini itirmiş normativ aktlar;

Maddə 167. Qanunun qüvvəyə minmə qaydası.

**Gürcüstan prezidenti**
**Qiorqi Marqvelaşvili**
**Kutaisi**
**5 fevral 2014-cü il.**
**N1958-IIS**

## 3. Yerli Özünüidarəetmə Məcəlləsindən geniş çıxarış

(Bir sıra maddələr daha geniş təqdim edilmişdir, nəinki Şagirdin kitabında)

**Gürcüstanın Orqan Qanunu**

***Yerli Özünüidarəetmə Məcəlləsi***

*(2018-ci il 1 iyul vəziyyəti ilə)*

*Çıxarış*

## I HİSSƏ – Yerli özünüidarəetmə

### FƏSİL I - Ümumi müddəalar

**Maddə 1. Qanunun fəaliyyət sahəsi**

Bu Qanun Yerli Özünüidarəetmənin icrasının hüquqi əsaslarını, Yerli Özünüidarəetmə Orqanlarının hüquq və vəzifələrini, onların yaranma və fəaliyyəti qaydalarını, maliyyə və əmlaklarını, vətəndaşlarla, dövlət hakimiyyət orqanları ilə, ictimai və özəl hüquqi şəxslərlə münasibətini, həmçinin Yerli Özünüidarəetmə Orqanlarının fəaliyyətinə dövlət nəzarətini və birbaşa dövlət idarəçiliyinin icra qaydalarını müəyyən edir.

**Maddə 2. Yerli Özünüidarəetmənin anlayışı**

1. Yerli özünüidarəetmə özünüidarəetmə vahidində qeydiyyatdan keçmiş Gürcüstan vətəndaşlarına verilən hüquq və imkanlardır ki, onlar tərəfindən seçilmiş Yerli Özünüidarəetmə Orqanları vasitəsi ilə, Gürcüstan Qanunvericiliyi əsasında yerli əhəmiyyətli məsələləri həll etsinlər.

2. Özünüidarəetmə vahidi Bələdiyyədir (munisipalitetdir). Bələdiyyə inzibati sərhədləri olan icmadır (Özünüidarədən şəhər) və ya inzibati sərhədləri və inzibati mərkəzi olan, seçki ilə müəyyən olunan yerli özünüidarəetmənin təmsilçi və icra orqanlarına malik (bundan sonra – Bələdiyyə Orqanları) və öz əmlakı, büdcəsi, gəlirləri olan icmadır. Bələdiyyə (munisipalitet) ictimai hüquqlu hüquqi şəxsdir.

**Maddə 3. Bələdiyyələr (munisipalitetlər) − Özünüidarəedən şəhər və Özünüidarəedən icma**

1. Yerli Özünüidarəetmə bələdiyyələrdə (munusipalitetlərdə) − özünüidarəedən şəhər və icmada həyata keçirilir.

2. Özünüidarəedən şəhər şəhər kateqoriyasına aid bu Qanuna uyğun olaraq munisipalitet (bələdiyyə) statusu verilmiş və ya veriləcək bir icmadır.

3. Özünüidarəedən icma bu Qanuna uyğun olaraq munisipalitet statusu verilmiş və ya veriləcək bir neçə icmanın birləşməsindən əmələ gələn yaşayış məntəqəsidir.

**Maddə 4. Əhalinin məskunlaşmasının ilkin ərazi vahidi və bələdiyyənin inzibati vahidi**

1. Əhalinin məskunlaşmasının ilkin ərazi vahidi adı, inzibati sərhədləri, ərazisi və qeydiyyata alınmış əhalisi olan qəsəbədir. Qəsəbənin kateqoriyalarıdır:

a) Kənd - sərhədlərində əsasən kənd təsərrüfatı təyinatlı torpaq sahəsi və digər təbii sərvətləri olan, infrastrukturu mühüm dərəcədə kənd təsərrüfatının fəaliyyətinin həyata keçirilməsinə yönədilmiş yaşayış məntəqəsi;

b) Qəsəbə - ərazisində sənaye müəssisələri və ya turist, kurort obyektləri, yerli iqtisadi-mədəni mərkəz vəzifəsini yerinə yetirən müalicəvi və sosial mədəniyyət mərkəzləri olan yaşayış məntəqəsi. Qəsəbənin infrastrukturu əsasən kənd təsərrüfatı fəaliyyətinin həyata keçirilməsinə yönəldilməyib. Qəsəbə kateqoriyasına Özünüidarəetmə vahidinin inzibati mərkəzi və ya gələcəkdə iqtisadi inkişaf və əhalinin artımı perspektivi olan yaşayış məntəqəsi aid edilə bilər;

c) Şəhər – ərazisində sənaye müəssisələri və ya turist, müalicəvi, həmçinin, yerli iqtisadi-mədəni mərkəz vəzifəsini yerinə yetirən sosial-mədəni müəssisələr şəbəkəsi olan yaşayış məntəqəsi. Şəhər infrastrukturu kənd-təsərrüfatı fəaliyyətinin həyata keçirilməsinə yönəldilməyib. Şəhər kateqoriyasına qeydiyyatda olan əhalisinin sayı 5000-dən çox olan qəsəbə aid edilə bilər. Əhalisinin sayı 5000-dən az olan qəsəbə əgər, özünüidarəetmə vahidinin inzibati mərkəzidirsə və ya onun gələcəkdə iqtisadi inkişaf və əhalinin artımı perspektivi varsa, yaxud da bu Qanunun 3-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq özünüidarəetmə şəhər kimi müəyyən olunubsa ona şəhər kateqoriyası verilə bilər.

2. Qəsəbənin yaradılması və ləğv olunması, qəsəbəyə müvafiq kateqorianın verilməsi və dəyişdirilməsi, həmçinin qəsəbənin inzibati sərhədlərinin dəyişdirilməsi qaydalarını Gürcüstan Hökuməti müəyyən edir.

3. İdarəetməni optimallaşdırmaq üçün munisipalitet inzibati vahidlərə bölünə bilər. Özünüidarəedən icmada inzibati vahidin ərazisi bir və ya bir neçə qəsəbənin ərazisinə uyğun gəlir. Özünüidarəedən şəhərdə inzibati vahid qəsəbənin bir hissəsidir.

4. Bələdiyyənin inzibati vahidinin yaradılması və ləğv olunması, həmçinin özünüidarəedən şəhərin sərhədlərinin dəyişdirilməsi haqqında qərarları qamqebelinin/bələdiyyə başçısının və ya sakrebulonun üzvlərinin ən azı üçdə bir hissəsinin təqdimatı ilə, tam tərkibin əksəriyyətinin qərarı ilə sakrebulo qəbul edir.

**Maddə 5. Yerli Özünüidarəetmənin həyata keçirilməsinin hüquqi əsasları və şərtləri**

1. Yerli özünüidarəetmənin həyata keçirilməsinin hüquqi əsaslarıdır: Gürcüstan Konstitusiyası, „Yerli Özünüidarəetmə haqqında Avropa Xartiyası“, Gürcüstanın Beynəlxalq Müqavilə və Razılaşmaları, bu qanun, Gürcüstanın digər qanunvericiliyi və qanuna tabe olan normativ aktlarıdır.

2. Acarıstan Muxtar Respublikasında Yerli Özünüidarəetmə Orqanlarının səlahiyyətləri "Acarıstan Muxtar Respublikasının statusu haqqında" Gürcüstanın Konstitusiya Qanunu ilə "Acarıstan Muxtar Respublikası Konstitusiyasının təsdiqlənməsi haqqında" Gürcüstanın Əsas Qanunu ilə və bu Qanun normaları nəzərə alınaraq müəyyən olunur.

3. Gürcüstanın işğal olunmuş ərazilərində Yerli Özünüidarəetmənin həyata keçirilməsi məsələləri müvafiq ərazidə Gürcüstanın yurisdiksiyası bərpa edildikdən sonra müəyyən olunacaq.

4. Yerli Özünüidarəetmə Orqanlarının hüquq və səlahiyyətləri Azad Sənaye Zonalarına aid edilmir.

**Maddə 6. Gürcüstan Vətəndaşları tərəfindən yerli özünüidarəetmənin həyata keçirilməsi hüququ**

1. Gürcüstan vətəndaşları Yerli Özünüidarəetməni Gürcüstan Konstitusiyasına, "Yerli Özünüidaretmə haqqında Avropa Xartiyası"na, Gürcüstanın Beynəlxalq Müqavilə və Razılaşmalarına, bu Qanuna və Gürcüstanın digər normativ aktlarına uyğun olaraq həyata keçirirlər.

2. Gürcüstan vətəndaşlarının bu Qanunla və seçki Qanunvericiliyi ilə müəyyən olunmuş qaydada irqindən, dərisinin rəngindən, dilindən, cinsindən, dinindən, siyasi və digər baxışlarından, milli, etnik və sosial mənsubiyyətindən, mənşəyindən, əmlak və rütbə durumundan aslı olmayaraq Yerli Özünüidarə Orqanlarını seçmək və bu Orqanlara seçilmək hüquqları var.

**Maddə 7. Munisipalitet (bələdiyyə) səlahiyyətlərinin həyata keçirilməsi üçün təminatlar**

1. Dövlət və Bələdiyyə Orqanlarının əlaqəsi qarşılıqlı əməkdaşlıq prinsipinə əsaslanır.

2. Bələdiyyə səlahiyyətlərinin icrasını təmin etmək üçün Dövlət hakimiyyət orqanları müvafiq hüquqi, maliyyə-iqtisadi və təşkilati şərait yaratmalıdırlar.

3. Dövlət hakimiyyət orqanları bu Qanunla müəyyən olunan Bələdiyyələrin səlahiyyətlərinə aid olan məsələlərlə bağlı qərar qəbul olunana qədər ölkənin Bələdiyyələrinin yarısından çoxunu birləşdirən qeyri-sahibkar (qeyri-kommersiya) hüquqi şəxslərlə məsləhətləşmələr keçirməlidirlər.

4. Bələdiyyə Gürcüstan Qanunvericiliyi ilə müəyyən olunmuş Yerli Özünüidarəetmənin səlahiyyətlərinin icrasını məhdudlaşdıran inzibati-hüquqi aktlar və hərəkətlərlə bağlı məhkəməyə müraciət etmək səlahiyyətinə malikdir.

5. Bələdiyyə Şurası (sakrebulo) Gürcüstan Qanunvericiliyinə uyğun olaraq, Gürcüstan Konstitusiyasının yeddinci[1] fəsli ilə bağlı normativ aktların konstitusionallığı məsələsinə baxılması üçün Gürcüstan Konstitusiya Məhkəməsinə şikayətlə müraciət etmək səlahiyyətinə malikdir. Gürcüstan Konstitusiya Məhkəməsinə şikayətin təqdim olunması ilə bağlı qərarı Bələdiyyə Şurası (sakrebulo) tam tərkibin əksəriyyəti ilə qəbul edir.

6. Əgər, Bələdiyyə Şurası (sakrebulo) başqa qərar qəbul etməzsə, Gürcüstanın ümumi məhkəmələrində və Gürcüstan Konstitusiya Məhkəməsində Bələdiyyəni İdarə heyətinin sədri/mer və ya onun tərəfindən səlahiyyətli şəxs təmsil edir.

**Maddə 8. Bələdiyyənin (munisipalitetin) simvolları**

1. Bələdiyyənin (munisipalitetin) gerbi və bayrağı var. Onun başqa simvolları da ola bilər.

2. Bələdiyyənin (munisipalitetin) gerbini, bayrağını və digər simvollarını Gürcüstan parlamenti yanında fəaliyyət göstərən Dövlət Heraldika Şurası ilə əvvəlcədən məsləhət və Şuranın razılığı ilə Bələdiyyə Şurası (sakrebulo) hazırlayır. Bələdiyyə simvolları Gürcüstan Qanunvericiliyi ilə müəyyən olunmuş qaydada qeydiyyatdan keçirilməlidir.

Bələdiyyə simvollarının istifadə qaydası Gürcüstan Hökumətinin normativ aktları ilə müəyyən olunur.

**Maddə 9. Bələdiyyə (munisipaliteti) Orqanlarının fəaliyyəti və fəaliyyət dili**

Bələdiyyə Orqanlarının fəaliyyət və kargüzarlıq dili Gürcüstanın dövlət dilidir.

## FƏSİL III - Bələdiyyənin hüquq və səlahiyyətləri

**Maddə 15. Bələdiyyənin hüquq və səlahiyyətlərinin növləri**

1. Bələdiyyənin hüquq və səlahiyyətlərinin növləridir:

a) Bələdiyyənin xüsusi hüquq və səlahiyyətləri;

b) Bələdiyyənin nümayəndəlik səlahiyyətləri.

2. Bələdiyyənin xüsusi hüquq və səlahiyyətləri Bələdiyyənin sərbəst şəkildə və xüsusi cavabdehliklə həyata keçirdiyi hüquq və səlahiyyətlərdir.

3. Bələdiyyənin nümayəndəlik səlahiyyətləri Bələdiyyəyə Qanun əsasında və ya Gürcüstan Qanunvericiliyinə müvafiq qaydada əldə olunmuş müqavilə əsasında, müvafiq maddi və maliyyə təminatı ilə nümayəndəlik dövlət/muxtar respublika hökuməti orqanının hüquq və səlahiyyətləridir.

**Maddə 16. Bələdiyyənin xüsusi hüquq və səlahiyyətləri**

1. Bu maddənin ikinci hissəsi ilə müəyyən olunmuş Bələdiyyənin xüsusi hüquq və səlahiyyətləri müstəsna hüquq və səlahiyyətlərdir. Bu Qanuna uyğun olaraq Bələdiyyənin xüsusi hüquq və səlahiyyətlərinin həcmi (sərhədləri) və icra qaydaları bu Qanunun birbaşa şəkildə Gürcüstan Qanunvericiliyinə müvafiq xüsusi hüquq və səlahiyyətlərin icrasını tənzimləyən imkanlarını göstərdiyi hallar istisna olmaqla yalnız Qanunvericilik aktı əsasında müəyyən oluna bilər.

2. Bələdiyyənin xüsusi hüquq və səlahiyyətləridir:

a) Bələdiyyənin büdcə layihəsini hazırlamaq, müzakirə etmək və təsdiqləmək, təsdiq olunmuş büdcəyə dəyişikliklər etmək, büdcənin yerinə yetirilməsi haqqında hesabatı dinləmək və büdcəyə qiymət vermək; Gürcüstan Qanunvericiliyinə uyğun olaraq büdcə xərclərini müəyyən etmək, xəzinə maliyyə əməliyyatlarını və bank əməliyyatarını həyata keçirmək;

b) Bələdiyyə mülkiyyətində olan əmlakın idarə olunması və əmlakın bu Qanunla, həmçinin Gürcüstanın digər Qanunvericilik və Qanuna tabe normativ aktları ilə müəyyən olunmuş qaydada istifadəsi;

c) Yerli əhəmiyyətli təbii sərvətlərin, həmçinin, su və meşə resurslarının və Bələdiyyə mülkiyyətində olan torpaq resurslarının Qanunla müəyyən olunmuş qaydada idarə olunması;

ç) Yerli vergi və rüsumların Qanunla müəyyən olunmuş qaydada qəbul olunması və ləğv olunması, onların Qanunla nəzərdə tutulmuş miqdar çərçivəsində bölünməsinin müəyyən olunması; yerli vergilərin götürülməsi;

d) Bələdiyyənin ərazi planlaşdırılması və müvafiq sahə üzrə norma və qaydaların müəyyən olunması; şəhərsalma sənədlərinin, həmçinin torpaqdan istifadənin baş planının, təkmilləşdirilmənin nizamlanması planının, yaşayış məntəqələri ərazilərinin istifadə və təkmilləşdirilmənin nizamlanması qaydalarının təsdiqlənməsi;

e) Bələdiyyə ərazisinin abadlaşdırılması və müvafiq mühəndislik infrastrukturunun inkişaf etdirilməsi; Bələdiyyə ərazisində küçələrin, parkların, bağçaların və digər ictimai yerlərin təmizlənməsi, ərazinin yaşıllaşdırılması, küçə işıqlandırmasının təmin olunması;

ə) Möhkəm (məişət) tullantılarının toplanılması və ərazidən uzaqlaşdırılması;

f) Su təchizatı (həmçinin texniki su ilə təmin etmə) və çirkab sularının təmin olunması; yerli əhəmiyyətli meliorasiya sisteminin inkişaf etdirilməsi;

g) Bələdiyyənin idarəsində olan məktəbəqədər və məktəbdənkənar tədris qurumlarının yaradılması və onların fəaliyyətlərinin Gürcüstan Qanunvericiliyi ilə təyin olunan qaydada təmin olunması;

g1) Bələdiyyənin idarəsində olan məktəbəqədər və məktəbdənkənar tədris qurumlarının yaradılması və onların fəaliyyətlərinin təmin olunması;

g2 ) Bələdiyyənin idarəsində olan məktəbəqədər və məktəbdənkənar tədris qurumlarının Gürcüstan Qanunvericiliyi ilə təyin olunan qaydada avtorizasiyalarının təmin olunması;

h) Yerli əhəmiyyətli avtomobil yollarının idarəsi və yerli əhəmiyyətli yollarda yol hərəkətinin təşkili; avtonəqliyyat vasitələrinin dayanacaq yerləri ilə təmin olunması və dayanacaq/saxlama qaydalarının tənzim olunması;

x) Bələdiyyənin inzibati sərhədlərində müntəzəm sərnişin daşımaya icazənin verilməsi; əhalinin Bələdiyyə nəqliyyatı xidmətinin təşkili;

i) küçə ticarətinin, sərgilərin, bazar və yarmarkaların tənzimlənməsi;

j) Bələdiyyə ərazisində tikintiyə icazənin verilməsi, Gürcüstan Qanunvericilik aktları ilə müəyyən olunmuş qaydalarda və müəyyən olunmuş çərçivələrdə tikintiyə nəzarət edilməsi;

k) Yığıncaq və manifestasiyaların keçirilməsi ilə bağlı məsələlərin Qanunla müəyyən olunmuş qaydada nizamlanması;

q) Bələdiyyənin inzibati sərhədlərində yerləşən coğrafi obyektlər, xüsusi ilə, tarixən formalaşmış məhəllələr, Özünüidarə şəhərinin inzibati vahidi, bu və ya digər zona, mikrorayon, bulaq, meydan, prospekt, şosse yolu, döngə, dalan, çıxış, sahil, esplanad, bulvar, xiyaban, bağça, bağ, park, meşə-park, yerli əhəmiyyətli meşə, məzarlıq, fəxri xiyaban, tikinti-tikililər, nəqliyyat sistemi obyektləri Qanunla qəbul olunmuş qaydada adlandırılır;

l) Küçə reklamlarının yerləşdirilməsinin nizamlanması;

m) Ev heyvanlarına sahib olma qaydalarının müəyyən olunması və sahibsiz heyvanlarla bağlı məsələlərin həlli;

n) Məzarlıqların abadlaşdırılması və qorunması;

o) Yerli kimlik, yaradıcılıq fəaliyyəti və mədəni irsin mühafizəsi və inkişafı; yerli əhəmiyyətli mədəni abidələrinin qorunub-saxlanılması, yenidən qurulması və bərpası; Bələdiyyə idarəsində olan kitabxanaların, kulub müəssisələrininlərin, kino-teatların, muzeylərin, teatrların, sərgi salonlarının və idman-sağlamlıq obyektlərinin fəaliyyətinin təmin olunması və yeni obyektlərin inşaatı;

ö) Yerli əhəmiyyətli obyektlərə məhdud imkanlı şəxslər (əlillər), uşaqlar və yaşlılar üçün müvafiq infrasturkturun inkişaf etdirilməsi, həmçinin, ictimai toplantı yerinin və Bələdiyyə nəqliyyatının müvafiq olaraq uyğunlaşdırılmasının və təchizatının təmin olunması;

p) Evsizlərin sığınacaqla təmin olunması və qeydiyyatı.

r) öz səlahiyyətləri hüdudlarında “ictimai və özəl əməkdaşlıq haqqında” Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulmuş hüquqların həyata keçirilməsi.

3. Bələdiyyə öz təşəbbüsü ilə Gürcüstan Qanunvericiliyi ilə Hökumətin digər orqanlarının səlahiyyətində olmayan və Qanunla qadağan olunmayan istənilən məsələ ilə bağlı qərar qəbul edə bilər.

4. Yerli Özünüidarəetmə Orqanı bu maddənin 3-cü bəndi ilə müəyyən olunmuş qaydada işlə təminolmaya şəraitin yaradılması, kənd-təsərrüfatı kooperasiyalarının yaradılması, turizmin inkişafı, sosial yardım və sağlamlıq, yerli səviyyədə gənclərin siyasətinin inkişafına dəstək, kütləvi idmana dəstək, ətraf mühitin mühafizəsi, ictimai maarifləndirmə, gender bərabərliyinə dəstək, yerli əhəmiyyətli arxivin yaradılması, sağlam həyat tərzinin formalaşdırılması, insanların sağlamlığı üçün təhlükəsiz şəraitin yaradılması, Bələdiyyə ərazisinə səmayənini cəlb edilməsi, inovasiyanın inkişafına dəstək və s. məqsədlər üçün tədbirləri həyata keçirmək səlahiyyətinə malikdir.

**Maddə 17. Səlahiyyətlərin nümayəndəlik qaydaları və şərtləri**

1. Dövlətin/muxtar respublikanın hakimiyyət orqanı dövlətin/muxtar respublikanın hakimiyyət orqanının yerli səviyyədə icrası daha da effektiv ola biləcək hüquq və səlahiyyətlərini Bələdiyyəyə verə bilər.

2. Dövlətin/muxtar respublikanın hakimiyyət orqanı tərəfindən Bələdiyyəyə səlahiyyətlərin verilməsi Gürcüstan Qanunvericilik aktlarına və ya Muxtar Respublikanın Qanununa, həmçinin Gürcüstan və ya Muxtar Respublikanın Qanunvericiliyi əsasında əldə olunmuş müqaviləyə əsasən müvafiq maddi və maliyyə resursları verilməklə mümkündür.

4. Bələdiyyə nümayəndəlik səlahiyyətlərini Gürcüstan Qanunvericiliyi ilə nümayəndəlik çərçivəsi daxilində yerli şərtlərə uyğun şəkildə həyata keçirmək səlahiyyətinə malikdir.

5. Səlahiyyətlər təhvil verilərkən nümayəndəlik səlahiyyətlərinin icrasına dövlət sahə nəzarətini həyata keçirəcək nazirlik həmin aktla müəyyən etməlidir.

**Maddə 18. Bələdiyyənin xüsusi və nümayəndəlik səlahiyyətləri sahəsində dövlət standartları və reqlamentlər**

Bütün ölkə ərazisinin bərabər şəkildə sosial-iqtisadi inkişafı məqsədi ilə dövlət hakimiyyətinin müvafiq orqanlarının Bələdiyyənin xüsusi və nümayəndəlik səlahiyyətləri sahəsində müvafiq normativ aktlarla dövlət standartlarını və texniki qaydaları təsis etmək hüququ var.

**Maddə 19. Bələdiyyə səlahiyyətlərinin icra formaları və mexanizmləri**

Bələdiyyə Orqanları Bələdiyyə səlahiyyətlərini həyata keçirərkən Qanunvericiliyə uyğun olaraq:

a) İnzibati-hüquqi aktlar qəbul edir/verirlər;

b) Müvafiq proqramlar, strategiyalar, fəaliyyət planları və layihələr hazırlayır, təsdiq edir və həyata keçirirlər;

c) Satınalmalar həyata keçirirlər;

ç) Müqavilələr bağlayırlar;

d) Bələdiyyə mülkiyyətini alır və yaradırlar;

e) Onların mülkiyyətində olan əmlaka sahib olurlar və idarə edirlər, bu əmlakdan, həmçinin dövlətin/muxtar respublikanın və digər şəxslərin əmlakından istifadə edirlər;

ə) Özəl hüquqlu hüquqi şəxslər təsis edir və idarə edirlər;

f) Kredit götürürlər;

g) Müvafiq infrastrukturun tikintisini, qulluq-rəhbərliyini, bərpasını, yenidənqurulmasını və inkişafını həyata keçirirlər;

h) Xidmətin keyfiyyətini və idarəçiliyin səmərəliliyini artırmaq məqsədi ilə yeni texnologiyaların və elektron idarə sistemlərinin tədbiq olunmasını və inkişafını təmin edirlər;

x) Digər tədbirləri həyata keçirirlər.

**Maddə 21. Birgə fəaliyyətin icrası və təşkilində Bələdiyyənin rolu**

1. Bələdiyyələrin hüquqları var ki, bu Qanunla müəyyən edilmiş səlahiyyətlərin effektiv həyata keçirilməsi və əhali üçün keyfiyyətli xidmətin göstərilməsi məqsədilə, bu Qanuna və Gürcüstanın başqa qanunvericilik və qanuna tabe aktlarına müvafiq olaraq, bu Qanunla nəzərdə tutulmuş birgə özəl hüquqlü hüquqi şəxs yaratsınlar yaxud da bələdiyyə/bələdiyyələr tərəfindən əsaslandırılmış sahibkar hüquqlu hüqüqi şəxs tərəfdaşlar/səhmdarlar/təsisçilər və qeyri-sahibkar (qeyri-kommersiya) hüquqi şəxsli üzvlər olsunlar. Bələdiyyələr Gürcüstan Qanunu ilə müəyyən edilmiş hallarda və təyin edilən qaydada birgə xidmət yaratmaq səlahiyyətinə malikdirlər.

**Maddə 22. Bələdiyyənin sərhədlərarası əməkdaşlığı**

Bələdiyyə "İnzibati ərazi vahidləri və ya hakimiyyət orqanları arasında sərhədlərarası əməkdaşlıq haqqında" əldə rəhbər tutulan Avropa Konvensiyasına və Gürcüstan Qanunvericiliyinə müvafiq qaydada digər ölkələrin Yerli Özünüidarəetmə orqanları ilə əməkdaşlıq etməkdə səlahiyyətlidir.

## FƏSİL IV - Bələdiyyənin təmsilçi orqanları

**Maddə 24. Bələdiyyə Şurasının (sakrebulonun) səlahiyyətləri**

1. Bələdiyyə Şurasının səlahiyyətlərinə aiddir:

a) Bələdiyyənin inzibati-ərazi təşkili və onun eyniliyinin müəyyən edilməsi sahəsində:

a.a) Bələdiyyənin inzibati vahidlərinin yaradılması və ləğv olunması, onların sərhədlərinin müəyyən olunması sahəsində;

a.c) Bələdiyyənin yaradılması/ləğv olunması, inzibati mərkəzinin müəyyən olunması/dəyişdirilməsi və inzibati sərhədlərin dəyişdirilməsi haqqında vəsatətin təqdim olunması;

a.ç) Gürcüstan Qanunvericiliyinə müvafiq olaraq Bələdiyyə simvollarının (gerb, bayraq və digər simvolların) müəyyən olunması;

a.d) Bələdiyyənin fəxri rütbələrinin və mükafatlarının qəbul olunması və təltif qaydalarının müəyyən olunması;

a.e) Tarixən formalaşmış məhəllələr, Özünüidarəedən şəhərin inzibati vahidi, bu və ya digər zona, mikrorayon, bulaq, meydan, prospekt, şosse yolu, döngə, dalan, çıxış, sahil, esplanad, bulvar, xiyaban, bağça, bağ, park, meşə - park, yerli əhəmiyyətli meşə, məzarlıq, fəxri xiyaban, tikinti-tikililər, nəqliyyat sistemi obyektləri Qanunla qəbul olunmuş qaydada adlandırılır;

b) Təşkilati fəaliyyət sahəsində:

b.a) Bələdiyyə Şurasının reqlamentinin təsdiq olunması;

b.c) Bələdiyyə Şurası sədrinin və sədr müavininin seçilməsi və vəzifədən kənarlaşdırılması;

b.ç) Bələdiyyə Şurası üzvünün səlahiyyətlərinin tanınması və onun səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması haqqında qərarların qəbul olunması;

b.d) Bələdiyyə Şurası komissiyasının yaradılması, Komissiya Şurasının seçilməsi və vəzifədən kənarlaşdırılması, komissiyasının şəxsi tərkibinin və əsasnaməsinin təsdiq olunması və ona dəyişikliklərin edilməsi;

b.e) Bələdiyyə Şurasının müvəqqəti işçi qrupunun yaradılması və ləğv olunması, müvəqqəti işçi qrupunun tərkibinin müəyyən olunması və ona dəyişikliyin edilməsi;

b.ə) Bələdiyyə Şurası aparatının əsasnaməsinin və ştat nüsxəsinin təsdiqlənməsi;

b.f) Bu Qanunla nəzərdə tutulmuş halda Gürcüstan Konstitusiya Məhkəməsi və ümumi məhkəmələrdə Bələdiyyənin/Şuranın nümayəndəlik səlahiyyətlərinə malik şəxsin təyin olunması;

b.g) onun səlahiyyətlərinə aid olan ayrı-ayrı məsələlərin öyrənilməsi və müvafiq nəticələrin və tövsiyələrin hazırlanması, o cümlədən Gürcüstan qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və təyin edilən qaydada toplantı orqanlarının (Şura, komitə və s.) yaradılması və onların iş qaydalarının müəyyən edilməsi;

c) Bələdiyyənin icra Orqanlarının fəaliyyətinin nizamlanması və nəzarəti sahələrində:

c.a) Bələdiyyənin icra Orqanları və bu Orqanların vəzifəli şəxslərinin fəaliyyətinə nəzarət, onların hesabatlarını dinləmək və qiymətləndirmək;

c.b) Bu Qanuna uyğun olaraq İdarə heyətinin sədri/icra başçısının və onun struktur vahidlərinin qərarları və ştat nüsxələrinin təsdiqlənməsi;

c.c) Bu Qanunla müəyyən olunmuş qaydada İdarə heyətinin sədri/icra başçısı üçün etibarsızlığın elan olunması;

ç) Maliyyə-büdcə sahəsində:

ç.a) Bu Qanunla və Gürcüstanın digər Qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada Bələdiyyənin büdcə layihəsinin müzakirəsi və təsdiqlənməsi, təsdiq olunmuş büdcəyə dəyişikliklərin edilməsi, büdcənin icrasına nəzarət və büdcənin yerinə yetirilməsinini qiymətləndirilməsi;

ç.b) Gürcüstan Qanunvericiliyinə uyğun olaraq yerli vergilərin və rüsumların qəbul edilməsi və ləğv olunması;

ç.c) Bu Qanunla nəzərdə tutulmuş halda İdarə heyətinin sədrinin/icra başçısının təqdimatı ilə, Bələdiyyənin adı ilə imzalanmış müqavilənin təsdiq olunması, Bələdiyyə büdcəsinin ödəmələrinin beş faizindən çox olan razılaşmalara razılığın verilməsi;

ç.ç) “İctimai müəssisələrdə əmək haqqı barəsində” Gürcüstan Hökuməti tərəfindən müəyyən olunmuş miqdarın çərçivəsində İdarə heyətinin sədrinin/icra başçısının maaşının müəyyən olunması;

ç.d) Bələdiyyə Şurasının vəzifəli şəxslərinin, Bələdiyyə Şurası aparatının xidməti işçilərinin və İdarə heyətinin sədrinin/icra başçısının təqdimatı ilə Bələdiyyə/meriyanın vəzifəli şəxslərinin və digər qulluqçuların “İctimai müəssisələrdə əmək haqqı barəsində” Gürcüstan Qanunvericiliyi ilə müəyyən olunmuş rəsmi xidməti vəzifələrinin dərəcə sistemini nəzərə alaraq maaşlarının müəyyən olunması;

d) Bələdiyyənin əmlakının idarə və yönətimi sahəsində:

d.a) İdarə heyətinin sədrinin/icra başçısının təqdimatı ilə Bələdiyyənin əmlak idarəsi və yönətim qaydaları, 50%-dən artıq hissəsinin iştirakı ilə yaradılmış müəssisənin əmlakının bu Qanunla və Gürcüstanın digər Qanunvericilik və Qanuna tabe normativ aktları ilə müəyyən olunmuş qaydada idarə qaydasının müəyyən olunması;

d.b) İdarə heyətinin sədrinin/icra başçısının təqdimatı ilə Bələdiyyənin satınalma planının təsdiqlənməsi;

d.c) Gürcüstan Hökuməti tərəfindən təsdiq olunmuş qaydaya uyğun olaraq Bələdiyyə mülkiyyətində mövcud olan qeyri-kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin normativ qiymətinin, Bələdiyyə əmlakının başlanğıc özəlləşdirmə dəyərinin və icarənin başlanğıc dəyərinin müəyyən olunması;

d.ç) İdarə heyətinin sədrinin/icra başçısının təqdimatı ilə Bələdiyyə əmlakının özəlləşdirilməsi lazım gələn obyektlərinin siyahısının və özəlləşdirmə planının təsdiq olunması;

d.d) Bu Qanunla müəyyən olunmuş qaydada Bələdiyyə əmlakının dövlətə təmənnasız verilməsi haqqında qərarın qəbul olunması;

d.e) Gürcüstan Qanunvericiliyinə müvafiq olaraq Bələdiyyə əmlakında olan meşə və su ehtiyatlarının idarə qaydasının müəyyən olunması.

2. Bələdiyyə Şurasının səlahiyyətlərinə həmçinin bu Qanunun 16-cı və 17-ci maddələri ilə nəzərdə tutulmuş Bələdiyyənin başqa səlahiyyətlərinin icrası ilə bağlı qərarların qəbul olunması, həmçinin bu Qanunla, Gürcüstanın digər Qanunvericilik və Qanuna tabe normativ aktları ilə və Bələdiyyə Şurasının reqlamenti ilə ona verilmiş səlahiyyətlər daxildir.

3. Əgər, bu Qanun və ya Gürcüstan Qanunvericiliyi Bələdiyyənin xüsusi və təhvil alınmış səlahiyyətlərinin icrası üçün cavabdeh Bələdiyyə Orqanını müəyyən etmirsə, qeyd olunan səlahiyyəti Bələdiyyə Şurası və ya Bələdiyyə Şurasının tapşırığı ilə - İdarə heyətinin sədri/ icra başçısı həyata keçirir.

4. Bələdiyyə Şurasının bu Qanunla və ya Gürcüstan Qanunvericiliyi ilə Bələdiyyə Şurasının səlahiyyəti kimi birbaşa müəyyən olunmuş səlahiyyətləri digər Orqana və ya vəzifəli şəxsə verilə bilməz, əgər Qanun onun verilməsinə icazə verimirsə.

**Maddə 26. Bələdiyyə Şurasının (sakrebulonun) fəaliyyət qaydaları**

1. Bələdiyyə Şurasının sədri heç olmasa ayda bir dəfə Bələdiyyə Şurasının növbəti iclasını çağırır.

2. Bələdiyyə Şurasının növbədənkənar iclası çağrılır:

a) Bələdiyyə başçısının təklifi ilə;

b) Bələdiyyə Şurasının sədrinin təşəbbüsü ilə;

c) Bələdiyyə Şurasının siyahı tərkibinin ən az üçdə birinin yazılı tələbi ilə;

ç) Bələdiyyə Şurası fraksiyasının təklifi ilə;

d) Bələdiyyə ərazisində qeydiyyatda olan seçicilərin ən az bir faizinin tələbi ilə.

3. Bələdiyyə Şurasının növbədənkənar iclasının çağırılması ilə bağlı tələb (təklif) təqdim olunduqdan bir həftə müddətində Bələdiyyə Şurasının sədri növbədənkənar iclas çağırır. Əgər, Bələdiyyə Şurasının sədri bir həftə ərzində Bələdiyyə Şurasının iclasını çağırmazsa, Bələdiyyə Şurası özü toplaşa bilər.

5. Əgər, Bələdiyyə Şurasının tam tərkibinin yarısından çoxu iclasda iştirak edərsə, iclas səlahiyyətli hesab olunur.

6. Bələdiyyə Şurası qərarları açıq səsvermə yolu ilə qəbul edir. Gizli səsvermə yolu ilə ancaq şəxsin vəzifəyə təyin olunması, vəzifədən azad olunması və şəxsə qarşı impiçmentin tələbolunması məsələləri ilə bağlı qərarlar qəbul olunur.

**Maddə 32. Bələdiyyə Şurasının (sakrebulonun) vəzifəli şəxsləri**

Bələdiyyə Şurasının vəzifəli şəxsləridirlər:

a) Bələdiyyə Şurasının sədri;

b) Bələdiyyə Şurasının sədrinin müavini;

c) Bələdiyyə Şurası komissiyasının sədri;

ç) Bələdiyyə Şurasının fraksiya sədri;

e) Bələdiyyə Şurasının fraksiya sədrinin müavini.

**Maddə 34. Bələdiyyə Şurasının sədrinin vəzifədən uzaqlaşdırılması**

1. Bələdiyyə Şurası Bələdiyyə Şurasının sədrini vəzifədən kənarlaşdırmaq səlahiyyətinə malikdir.

**Maddə 40. Bələdiyyə Şurası üzvünün statusu**

1. Bələdiyyə Şurası üzvünün statusu onun Bələdiyyə Şurası üzvünün hüquq və səlahiyyətlərini, məsuliyyətlərini, fəaliyyət qaydalarını və təminatlarını əhatə edən Qanunla müəyyən olunmuş hüquqi vəziyyətidir.

2. Bələdiyyə Şurasına üzv olaraq seçki günü üçün 21 yaşı tamam olmuş Gürcüstan vətəndaşı seçilə bilər.

3. Bələdiyyə Şurası üzvü azad mandatdan yararlanır və onu dəvət etmək mümkünsüzdür. Bələdiyyə Şurasının üzvü səlahiyyətlərini yerinə yetirərkən seçicilərin və onu təqdim edən siyasi birliklərin qayda və tapşırıqları ilə məhdud deyil.

4. Bələdiyyə Şurasının üzvünün hüquq və vəzifələrinin başqa şəxsə verilməsi mümkünsüzdür.

5. Azad mandat Bələdiyyə Şurası üzvünü Gürcüstan Qanunvericiliyi və Bələdiyyə Şurasının reqlamenti ilə müəyyən olunmuş qaydada seçicilərlə işləməkdən və onlarla bağlı məsuliyyətdən azad etmir.

6. Bələdiyyə Şurasının üzvünün səlahiyyəti onun səlahiyyətinin tanındığı gündən başlayır və yeni seçilmiş Bələdiyyə Şurasının ilk iclasına və ya üzvün səlahiyyətlərinin vaxtından əvvəl dayandırılmasına qədər davam edir.

7. Bələdiyyə Şurası üzvünün səlahiyyəti, fəaliyyət qaydası və təminatı bu Qanunla və Bələdiyyə Şurasının reqlamenti ilə müəyyən olunur.

8. Bələdiyyə Şurasının üzvü ən azı bir Bələdiyyə Şurası komissiyasına üzv olmalıdır. Bələdiyyə Şurasının üzvü ümumi olaraq ikidən artıq olmayaraq başqa komissiyanın tərkibində də ola bilər.

9. Bələdiyyə Şurasının üzvünün işəgötürənin hüququnu məhdudlaşdırmaq, Bələdiyyə Şurasının, onun komissiyasının, fraksiyasının və müvəqqəti işçi qrupunun işində iştirak etmək hüququ yoxdur. Qeyd olunan əsasla işəgötürənin hüququnun məhdudlaşdırılması barədə razılaşmanı əhatə edən əmək müqaviləsi batil hesab olunur. Bu əsasla şəxsin işdən azad edilməsi, aşağı maaşlı işə keçirilməsi və ya başqa cür diskriminasiyası yol verilməzdir.

**Maddə 44. Bələdiyyə Şurası üzvünün fəaliyyyət formaları**

Bələdiiyyə Şurası üzvünün fəaliyyət formalarıdır:

a) Bələdiyyə Şurasının iclaslarında iştirak;

b) Bələdiyyə Şurası qərarlarının layihələrini hazırlamaq və təşəbbüs etmək;

c) Bələdiyyə Şurası komissiyalarının, fraksiyalarının və müvəqqəti işçi qrupunun fəaliyyətində iştirak etmək;

ç) Bələdiyyə Şurası qarşısında hesabat verən Orqana/vəzifəli şəxsə sualla müraciət etmək;

d) Seçiciləri qəbul etmək, onların məktub, şikayət və ya təkliflərini müzakirə etmək;

e) Gürcüstan Qanunvericiliyi ilə müəyyən olunan digər formalar.

**Maddə 47. Bələdiyyə Şurası üzvünün seçicilərlə münasibəti**

Bələdiyyə Şurasının üzvünün seçicilərlə münasibəti əhatə edir:

a) Seçicilərin hüquq və azadlıqlarını, maraqlarını qorumaq üçün Gürcüstan Qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlərin icrası;

b) Vətəndaşların qəbulu;

c) Dövlət hakimiyyət və Yerli Özünüidarəetmə Orqanları, ictimai təşkilatlar və siyasi birliklərin nümayəndələri ilə əməkdaşlıq;

d) Görülmüş işlərlə bağlı seçicilərin məlumatlandırılması

## FƏSİL V - Bələdiyyənin İcra Orqanı

**Maddə 48. Bələdiyyə başçısı/mer**

1. Bələdiyyənin icra Orqanı və Bələdiyyənin ali vəzifəli şəxsi Özünüidarəedən icmada İdarə heyətinin sədri, özünüidarəedən şəhərdə isə bələdiyyə başçısı, yəni merdir. Bələdiyyə başçısı/mer bu Qanuna, Gürcüstanın digər qanunvericilik və qanuna tabe normativ aktlarına və müvafiq bələdiyyənin normativ aktlarına uyğun olaraq bələdiyyəni təmsil edir və bələdiyyə səlahiyyətlərinin həyata keçirilməsini təmin edir.

2. Bələdiyyə başçısı/mer Bələdiyyə Şurası və əhalisi qarşısında hesabat verir.

**Maddə 49. Bələdiyyə başçısının/merin seçilməsi**

1. Bələdiyyə başçısı/mer birbaşa seçkilərlə, ümumi, bərabər seçki hüququ əsasında, gizli səsvermə yolu ilə Gürcüstanın Əsas Qanunu “Gürcüstan Seçki Məcəlləsi” ilə müəyyən olunmuş qaydada 4 il müddətinə seçilir.

2. Bələdiyyə başçısı/mer olaraq 25 yaşı tamam olmuş ən azı beş il Gürcüstanda yaşamış istənilən Gürcüstan vətəndaşı seçilə bilər.

**Maddə 50. İdarə heyəti sədrliyi/meriya**

İdarə heyəti sədrliyi/meriya İdarə heyətinin sədrinin/merin səlahiyyətlərinin icrasını təmin edən Bələdiyyə icra Orqanına bağlı bir qurumdur. İdarə heyətinin sədirliyinə/meriyaya İdarə heyəti sədri/mer rəhbərlik edir. İdarə heyəti/meriya struktur vahidlərindən ibarətdir. İdarə heyətinin/meriyanın struktur vahidləri müvafiq əsasnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Bələdiyyə Şurasının İdarə heyətinin/meriyanın tapşırıqlarının icrasını təmin edir. İdarə heyətinin/meriyanın struktur vahidlərinin onların müvafiq əsasnamələri və ştat cədvəli əsasında müəyyən olunmuş şöbələri ola bilər.

**Maddə 52. İdarə heyəti sədrliyinin/meryanın vəzifəli şəxsləri**

1. İdarə heyəti sədrliyinin/meryanın vəzifəli şəxsləridirlər:

a) İdarə heyəti sədri/mer;

b) İdarə heyətinin sədrinin/merinin birinci müavini;

c) İdarə heyəti sədrinin/merin müavini;

ç) İdarə heyəti sədrliyinin/meriyanın sturuktur vahidinin rəhbəri.

## HİSSƏ III - Gürcüstanın paytaxtı-Tbilisi

### FƏSİL VII - Gürcüstan paytaxtının statusu

**Maddə 64. Tbilisinin xüsusi hüquq və səlahiyyətləri**

Tbilisinin xüsusi hüquq və səlahiyyətləridir:

a) Bu Qanunun 16-cı maddəsi ilə nəzərdə tutulan səlahiyyətlər;

b) Təcili tibbi yardımla təmin etmək;

c) Gürcüstan paytaxtının inzibati sərhədlərində yerləşən təbii və antropogen …… obyektin adlandırılması;

ç) Möhkəm məişət tullantılarının idarəsi;

d) Çirkab suların təmizlənməsi və utilizasiyası.

**Maddə 65. Tbilisi Orqanları**

Tbilisidə Yerli Özünüidarəetmə Tbilisi Nümayəndəlik Orqanları – Tbilisi Şurası və Tbilisi İcra Orqanları sistemi – Tbilisi meryası vasitəsi ilə həyata keçirilir.

### FƏSİL VIII - Tbilisinin Nümayəndəlik Orqanları

**Maddə 67. Tbilisi Şurası**

Tbilisi Şurası üzvlərinin sayı və seçim qaydaları Gürcüstanın Əsas Qanunu “Gürcüstan seçki məcəlləsi” ilə müəyyən olunan Tbilisi Nümayəndəlik Orqanıdır.

### FƏSİL IX - Tbilisi İcra Orqanları sistemi

**Maddə 72. Tbilisi Meriyası**

1. Tbilisi Meriyası (Tbilisi meri, Tbilisi Hökuməti, Tbilisi meryasının struktur vahidləri və Tbilisi rayon Bələdiyyələri) Tbilisinin icra Orqanları sistemidir ki, Tbilisinin icra işlərini təmin edir.

2. Tbilisi meryasının vəzifəli şəxsləridirlər: Tbilisi meri, Tbilisi merinin birinci müavini (Vitse-mer) və müavin, Tbilisi meryasının strukur vahidinin rəhbəri və Tbilisi rayon İdarə heyətinin sədri.

**Maddə 74. Tbilisi Hökuməti**

1. Tbilisi Hökuməti (Bundan sonra – Hökumət) Gürcüstan Qanunvericiliyi ilə verilmiş səlahiyyətlər çərçivəsində Tbilisi Şurasının qərarlarını icra edən kollegial icra Orqanıdır.

2. Hökuməti Tbilisi Merindən, onun birinci müavinindən (vitse-mer) və müavinlərindən, Tbilisi Meriyasının struktur vahidinin rəhbərlərindən (Tbilisi Meriyasının sisteminə daxil olan, nəzarət və nəzarəti həyata keçirən struktur vahidlərinin rəhbərləri istisna olmaqla) və Tbilisi rayon İdarə heyəti sədirlərindən ibarətdir.

## HİSSƏ IV - Yerli Özünüidarəetmənin fəaliyyətində vətəndaşların iştirakı

### FƏSİL XI - Yerli Özünüiadrəetmə fəaliyyətinin icrasında vətəndaşların iştirakı

**Maddə 85. Yeli Özünüidarəetmənin fəaliyyətinin icrasında vətəndaşların iştirakının təmin olunması**

1. Yerli Özünüidarəetmənin iclasında vətəndaşların iştirakını təmin etmək üçün Bələdiyyə Orqanları, onların struktur vahidləri və vəzifəli şəxsləri, vətəndaşların qəbulu, Bələdiyyə Orqanlarının iclaslarında vətəndaşların iştirakı və qərarların qəbulu prosesinin şəffaflığı üçün, təşkilati və maddi-texniki şəraitlər yaratmağa borcludur.

2. Hər hansı bir şəxsin hüququ var ki, bu Qanunla, Gürcüstanın başqa Qanunvericilik və Qanuna tabe aktları və munisipalitet sakrebulosunun normativ inzibati-hüquqi aktları ilə müəyyən edilmiş çərçivələrdə və təyin edilən qaydalarda, məhdudiyyətsiz şəkildə yerli özünüidarəetmənin həyata keçirilməsində vətəndaşların iştirakı formalarından yararlansın.

3. Munisipalitet səlahiyyətlidir ki, yerli özünüidarəetmənin həyata keçirilməsində vətəndaşların iştirakının təmin edilməsi məqsədilə munisipalitet büdcəsində müvafiq proqramları nəzərə alsın.

4. Yerli özünüidarəetmənin həyata keçirilməsində vətəndaşların iştirakı formalarıdır:

a) Qəsəbənin ümumi toplantısı;

b) Petisiya;

c) Vətəndaş məsləhətçiləri Şurası;

Ç)Bələdiyyə Şurası və Bələdiyyə Şurasının komissiya iclaslarında iştirak;

d) Bələdiyyə başçısının və Bələdiyyə Şurasının üzvü tərəfindən görülən iş barəsində hesabatların dinlənilməsi.

5. Bələdiyyə səlahiyyətlidir ki, yerli özünüidarəetmənin həyata keçirilməsində vətəndaşların iştirakının bu qanunla müəyyən edilmiş formalarından başqa, müvafiq inzibati-hüquqi aktla yerli özünüidarəetmənin həyata keçirilməsində vətəndaşların iştirakının başqa formalarını müəyyən etsin, hansılar Gürcüstan Qanunvericiliyinə ziddiyyət təşkil etmirlərsə.

**Maddə 85[1]. Məlumatın əlçatması**

1. Bələdiyyə Orqanları Yerli özünüidarəetmənin həyata keçirilməsində vətəndaşların iştirakını təmin etmək məqsədilə öz fəaliyyətləri və yerli özünüidarəetmənin həyata keçirilməsində vətəndaşların iştirakının imkanları barəsində Bələdiyyə əhalisinin məlumatlandırılması üçün tədbirləri həyata keçirməlidirlər.

2. Bələdiyyə Orqanları və qurumlarının, o cümlədən Bələdiyyə büdcəsinin maliyyələşdirməsi ilə fəailiyyətdə olan özəl hüquqlu hüquqi şəxslərin fəaliyyətinin açıqlığı ilə, o cümlədən kollegial orqanın iclasının açıqlığı ilə və ictimai məlumatın verilməsi ilə bağlı məsələlər bu Qanunla, Gürcüstanın başqa Qanunvericilik və Qanuna tabe aktları ilə və bunların əsasında qəbul edilən Bələdiyyə Şurasının qərarları ilə tənzimlənirlər.

3. Bələdiyyə orqanları Gürcüstan Qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və təyin edilən qaydada qəbul edilən inzibati-hüquqi aktları, onların layihələrini və başqa açıq məlumatı dərc etməlidirlər. Bələdiyyə Orqanları eləcə də bu Qanunla müəyyən edilmiş səlahiyyətlərə müvafiq olaraq, dərc etməli və ya açıq elan etməlidirlər:

a) Bələdiyyə Şurasının, Bələdiyyə Şurası komissiyasının və Bələdiyyə Şurası bürosunun, eləcə də Hökumət yığıncaqlarının protokollarını, müvafiq toplantının keçirildiyindən 10 gün müddətində;

b) Vətəndaş Məsləhətçiləri Şurasının toplantılarının protokollarını, müvafiq toplantının keçirildiyindən 10 gün müddətində;

c) Məntəqənin ümumi toplantısının protokollarını, Meriya tərəfindən müvafiq protokolun və ya onun surətinin qəbul edildiyindən 10 gün müddətində;

Ç) Bu qanuna uyğun olaraq, qəsəbənin ümumi toplantısının gündəliyi və keçirildiyi tarix və yer barəsində məlumatı;

d) Hesabat ilinin Bələdiyyə büdcəsinin yerinə yetirilmə hesabatını, Bələdiyyə Şurası üçün onun təqdim edildiyindən 10 gün ərzində;

e) Bələdiyyə büdcəsinin layihəsini;

f) Bələdiyyənin özəlləşdirmə obyektlərinin siyahısını, Bələdiyyə Şurası tərəfindən onun təsdiq edildiyindən 10 gün müddətində;

g) Bələdiyyə əmlakının özəlləşdirilməsi planını, onun təsdiq edildiyindən 10 gün ərzində;

h) Bələdiyyə başçısı və Bələdiyyə Şurasının üzvü tərəfindən görülən iş barəsində bu Qanunla nəzərdə tutulmuş hesabatları, müvafiq hesabatın təqdim edildiyindən 10 gün ərzində;

x) Petisiyanı, onun qeydiyyatından 10 gün müddətində;

i) Bu Qanunun 51-ci maddəsinin birinci bəndi ilə nəzərdə tutulmuş yazılı təşəbbüsü, onun qeydiyyatından 10 gün müddətində;

4. Bu maddənin 3-cü bəndi ilə nəzərdə tutulmuş məlumat Gürcüstanın Ümumi İnzibati Məcəlləsinin 56-cı və 57-ci maddələrinə müvafiq olaraq və ya proaktiv dərc olunurlar.

5. Bələdiyyə Şurası müvafiq qərar əsasında bu maddənin 3-cü bəndi ilə nəzərdə tutulmuş icbari dərc olunmalı və ya açıq elan ediləsi yaxud da proaktiv dərc edilməli məlumatın siyahısını genişləndirməlidir.

**Maddə 85². Məntəqənin ümumi toplantısı**

1. Məntəqənin ümumi toplantısı (irəlidə – ümumi toplantı) kəndin/qəsəbənin/şəhərin əhalisinin özünütəşkil və yerli özünüidarəetməsinin həyata keçirilməsində vətəndaşların iştirakı formasıdır. Bu da müvafiq qəsəbədə qeydiyyata alınmış seçicilərin bu qəsəbə və Bələdiyyə üçün önəmli məsələlərinin təhlili, qərarın alınması və qeyd edilən Bələdiyyə Orqanları qarşısında təşəbbüskarlıq proseslərinə əməli cəlb olunmalarını təmin edir.

2. Ümumi toplantının adı müvafiq qəsəbə kateqoriyasının adından (“kənd”/”qəsəbə”/”şəhər”) və ümumi addan (“ümumi toplantı”) ibarətdir.

3. Ümumi toplantının üzvü müvafiq qəsəbədə qeydiyyata alınmış seçicidir. Ümumi toplantıda toplantı səsi hüququ ilə iştirak hüququ eləcə də müvafiq qəsəbə ərazisində mövcud daşınmaz əmlakının sahibinin və bu qəsəbədə yaşayan digər yetkinlik yaşına çatmış şəxsin vardır.

4. Bu Qanun ümumi toplantı səlahiyyətlərini, qeydiyyatda olan seçicilərin sayı 2000-dən çox olmayan qəsəbə üçün onun çağırılması və fəaliyyəti qaydasını müəyyən edir.

5. Qeydiyyatda olan seçicilərin sayı 500-dən çox olmayan qəsəbə üçün ümumi toplantının qəsəbənin ayrı-ayrı hissələrində mərhələlərlə çağırılması proseduru təsis edilə bilər. Ümumi toplantının qəsəbənin hissələrində keçirilməsi və fəaliyyət qaydasını Bələdiyyə Şurası bu Qanunun $85^1$ maddəsinin 6-cı bəndinə müvafiq olaraq müəyyən edir.

6. Qeydiyyatda olan seçicilərin sayı 2000-dən çox olan qəsəbədə Bələdiyyə Şurası bu maddənin 5-ci bəndinə uyğun olaraq, ümumi toplantının səlahiyyətlərini, onun çağırılması və fəaliyyət qaydasını Bələdiyyə Şurasının qərarı ilə müəyyən etməlidir, o cümlədən bu qəsəbədə bir neçə ümumi toplantı yarada bilər və bu Qanunu nəzərə almaqla, onların səlahiyyətlərini, adlarını və fəaliyyət qaydasını müəyyən edə bilər.

7. Ümumi toplantı öz fəaliyyətini aparmaq və ona dəstək vermək məqsədilə öz tərkibindən ümumi toplantıya məsləhətçi seçmək səlahiyyətindədir. Ümumi toplantının məsləhətçisinin namizədini adlandırmağa müvafiq ümumi toplantı üzvlərinin ən azı 5%-nin hüququ vardır.

8. Ümumi toplantı məsləhətçisi ümumi toplantını aparır, ümumi toplantının qərarını Bələdiyyənin müvafiq orqanları üçün təqdim edir, eləcə də ümumi toplantının ayrı-ayrı tapşırıqlarını yerinə yetirir.

9. Ümumi toplantı məsləhətçisinin səlahiyyət müddəti növbəti ümumi toplantının toplanılma müddətinə qədər müəyyən edilir. Ümumi toplantı məsləhətçisinin səlahiyyəti avtomatik davam etdirilir, əgər növbəti ümumi toplantı ümumi toplantının yeni məsləhətçisini seçməzsə. Ümumi toplantının məsləhətçisinin səlahiyyəti avtomatik olaraq ardıcıl ən çoxu 5 dəfə davam etdirilə bilər.

10. Ümumi toplantının fəaliyyətində qadın və kişilərin eyni iştirakı imkanı təmin edilməlidir.

**Maddə $85^3$. Qəsəbənin ümumi toplantısının səlahiyyətləri**

1. Ümumi toplantı səlahiyyətlidir:

a) Müvafiq qəsəbə üçün önəmli sosial və iqtisadi məsələləri təhlil etməli və Bələdiyyə orqanlarına təqdim etmək üçün müvafiq təklifləri hazırlamalıdır;

b) Müvafiq qəsəbədə həyata keçirilmiş layihələri Bələdiyyə büdcəsində onların əks etdirilməsinə qədər nəzərdən keçirməli və Bələdiyyə orqanlarına əsaslı iradları və təklifləri təqdim etməlidir;

c) Bələdiyyədə davam edən və həyata keçirilmiş layihələri nəzərdən keçirməli və Bələdiyyə orqanlarına təqdim etmək üçün əsaslı iradları və təklifləri hazırlamalıdır;

ç) Müvafiq qəsəbə üçün önəmli məsələlərin həllinə, xüsusilə də qəsəbə ərazisinin təmizlənməsinə, xeyriyyə işlərinə, qəsəbə infrastrukturunun təmirinə və qaydaya salınmasına və Gürcüstan Qanunvericiliyi ilə ziddiyyət təşkil etməyən sahələrinə yerli əhalinin cəlb olunmasını təşkil etməli və lazım gəldiyi halda, yardım üçün Bələdiyyə orqanlarına müraciət etməlidir;

d) Bələdiyyə Şurası üçün petisiyanın təqdim edilməsi barəsində qərar qəbul etməli;

e) Bələdiyyə başçısının təşəbbüsü ilə qəsəbənin sərhədlərinin təyin edilməsi və dəyişdirilməsi məsələlərini nəzərdən keçirməli və müvafiq təkliflər hazırlamalıdır;

ə) Bələdiyyənin müvafiq orqanının təqdimatı ilə qəsəbə ərazisindəki əmlakın Bələdiyyənin özəlləşdirmə obyektlərinin siyahısına daxil edilməsi məsələsini nəzərdən keçirməli və Bələdiyyənin müvafiq orqanına öz iradlarını təqdim etməlidir;

f) Bələdiyyə başçısı tərəfindən ümumi toplantıda təşəbbüs edilmiş məsələni nəzərdən keçirməlidir;

g) səlahiyyəti çərçivəsində ümumi toplantı məsləhəçisinə tapşırıqlar verməlidir;

h) Bu Qanunla və Bələdiyyə Şurasının müvafiq qərarı ilə müəyyən edilmiş başqa səlahiyyətləri həyata keçirməlidir.

2. Ümumi toplantıda məsələnin nəzərdən keçirilməsi nəticəsində qəbul edilən təklif, irad, tapşırıq ümumi toplantının qərarı şəklində Ümumi toplantının protokolu ilə sənədləşir.

3. Ümumi toplantının qərarı reaksiya göstərilməsi üçün Bələdiyyənin müvafiq orqanlarına bu Qanunun $85^1$ maddəsinin 5-ci bəndi ilə müəyyən edilmiş qaydada təqdim edilir. Bələdiyyə orqanları Ümumi toplantının qərarını nəzərdən keçirməli və bu Qanunla və Gürcüstanın Ümumi İnzibati Məcəlləsi ilə müəyyən edilmiş müddətlərdə ümumi toplantının üzvlərinə və ya ümumi toplantının məsləhətçisinə müzakirə nəticəsi barəsində sübutlu cavabı çatdırmalıdırlar.

4. Bələdiyyə orqanları bu maddənin birinci bəndinin “b” və “c” yarımmadələri ilə nəzərdə tutulmuş məsələlərin ümumi toplantıya nəzərdən keçirilməsi üçün təqdim edilməsini təmin etməlidirlər.

**Maddə $85^4$. Qəsəbənin ümumi toplantısının çağırılması qaydası**

1. Ümumi toplantının çağırılmasının təşəbbüs edilməsi hüququ var:

a) Müvafiq qəsəbədə qeydiyyata alınmış seçicilərin ən azı 5%-nin;

b) Bələdiyyə başçısının/merin – şəxsi təşəbbüsü ilə və ya Bələdiyyə Şurasının vəsatəti ilə;

c) Ümumi toplantının məsləhətçisinin.

2. Bu maddənin birinci bəndinin “a” yarımmadəsi ilə nəzərdə tutulmuş halda, Ümumi toplantının çağırılması təşəbbüsü üçün müvafiq qəsəbədə qeydiyyatdan keçmiş ən azı 3 seçici tərkibi ilə təşəbbüs qrupu yaradılır. Təşəbbüs qrupu Bələdiyyə başçısına ümumi toplantının çağırılması barəsində təşəbbüsün qeydiyyatı barəsində ərizəni təqdim edir. Ərizədə təşəbbüs qrupu üzvünün adı, soyadı, ünvanı, əlaqə telefon nömrəsi (olduğu halda) göstərilməlidir. Ərizəyə təşəbbüs qrupu üzvlərinin şəxsiyyətini təsdiqləyən sənədin surətləri və ümumi toplantının gündəliyi əlavə edilməlidir. Ümumi toplantının gündəliyinə daxil edilən məsələləri təşəbbüs qrupu konkret olaraq formalaşdırmalıdır.

3. Təşəbbüs qrupu və Ümumi toplantının çağırılması barəsində təşəbbüsü Bələdiyyə qeydiyyatdan keçirir. Təşəbbüsün qeydiyyat arayışını təşəbbüs qrupuna Bələdiyyə başçısı və ya onun tərəfindən səlahiyyət verilmiş qulluqçu müvafiq ərizənin təqdim edildiyindən 3 iş günü ərzində verir.

4. Təşəbbüs qrupunun tərkibi və ümumi toplantının çağırışı barəsində təşəbbüsün qeydiyyatı barəsində məlumat və ümumi toplantının gündəliyi bu Qanunun 851 maddəsinin 4-cü bəndinə uyğun olaraq dərc edilir.

5. Bu Qanunun tələbləri və ya Ümumi toplantının gündəliyinə daxil edilən məsələlərin təhlili-həlli Bələdiyyənin yaxud da Ümumi toplantının səlahiyyətlərinə aid olmadığı halda, qeydiyyatın rədd edilməsinə yol verilir.

6. Təşəbbüs qrupu üzvünün hüququ vardır ki, Bələdiyyə başçısının və ya onun tərəfindən səlahiyyət verilmiş qulluqçunun rəddini Gürcüstanın Ümumi İnzibati Məcəlləsinə müvafiq olaraq şikayətləndirsin.

7. Təşəbbüs qrupu Ümumi toplantının çağırılması təşəbbüsünü göstərən seçicilərin siyahısını qeydiyyat arayışını aldığı gündən tərtib etməyə başlayır. Siyahıda müvafiq qəsəbədə qeydiyyatda duran seçicinin adı, soyadı, doğum tarixi (gün, ay, il), Gürcüstan vətəndaşının şəxsi nömrəsi, qeydiyyat yeri və imzası göstərilməlidir. Siyahının hər bir vərəqində təşəbbüs qrupunun üzvü öz imzasını atır.

8. Qeydiyyat arayışının qəbul edildiyindən ən geci 1 ay ərzində təşəbbüs qrupu Bələdiyyə başçısına Ümumi toplantının çağırılması barəsində ərizəni təqdim edir. Ərizədə Ümumi toplantının çağırıldığı tarix, vaxt və yer (müvafiq qəsəbə ərazisi çərçivəsində) göstərilir. Ərizəyə bu maddənin 7-ci bəndi ilə təyin edilən qaydada toplanılmış, müvafiq qəsəbədə qeydiyyatda duran seçicilərin ən azı 5%-nin imzaları əlavə olunur.

9. Ümumi toplantının çağırılması tarixi olaraq bu maddənin 8-ci bəndi ilə nəzərdə tutulmuş ərizənin təqdim edildiyi gündən ən tezi 15-ci günü müəyyən edilə bilər.

10. Ümumi toplantı Ümumi toplantının çağırılması tarixi, vaxtı və yeri barəsində məlumatın qeydiyyatı arayışını aldığı halda toplanılmaq səlahiyyətindədir. Qeydiyyat arayışını Bələdiyyə başçısı və ya onun tərəfindən səlahiyyətli qulluqçu müvafiq ərizənin təqdim edildiyindən 5 iş günü müddətində verir. Bu Qanunun tələblərinin pozulduğu halda, qeydiyyatın rəddinə yol verilir. Bələdiyyə başçısı və ya onun səlahiyyətli qulluqçusunun qeydiyyata rəddi bu maddənin 6-cı bəndinə uyğun olaraq şikayətləndirilə bilər.

11. Ümumi toplantının gündəliyi və çağırılması tarixi, vaxtı və yeri barəsində məlumat bu Qanunun $85^{1}$ maddəsinin 4-cü bəndinə əsasən məlumatın qeydiyyatından 3 gün ərzində dərc olunur.

12. Bu maddənin birinci bəndinin “c” yarımmadəsi ilə nəzərdə tutulmuş halda Ümumi toplantının çağırılması barəsində təşəbbüsün Bələdiyyə tərəfindən qeydiyyatı gərək deyil. Qeyd edilən halda, Ümumi toplantının çağırılma tarixi, vaxtı və yeri barəsində məlumat bu maddənin 8-ci – 11-ci bəndləri ilə təyin edilən qaydada qeydiyyata alınır, Ümumi toplantının çağırılması təşəbbüsünə malik seçicilərin proseduru istisna olunmaqla.

13. Bələdiyyə başçısı tərəfindən Ümumi toplantının çağırılması bu maddənin 4-cü, 9-cu və 11-ci bəndlərinə əməl etməklə təşəbbüsü edilir. Bələdiyyə Şurasının vəsatəti ilə Bələdiyyə başçısı tərəfindən Ümumi toplantının çağırılması prosedurunu Bələdiyyə Şurası müəyyən edir. Bələdiyyə başçısının hüququ yoxdur ki, Ümumi toplantının gündəliyinə Ümumi toplantının məsləhətçisinin seçilmə məsələsini daxil etsin.

14. Ümumi toplantının məsləhətçisi seçilmiş qəsəbədə Bələdiyyə başçısı öz təşəbbüsü ilə Ümumi toplantınının ildə ən azı 2 dəfə çağırılmasını təmin etməlidir.

15. Ümumi toplantının çağırılmasının təşkili, o cümlədən bu maddənin 11-ci bəndi ilə nəzərdə tutulmuş məlumatın müvafiq qəsəbədə yayımlanmasını Bələdiyyə və təşəbbüs qrupu, eləcə də Ümumi toplantının məsləhətçisi (olduğu halda) təmin edir.

**Maddə $85^5$. Qəsəbənin Ümumi toplantısının fəaliyyəti qaydası**

1. Ümumi toplantı səlahiyyətlidir, əgər Ümumi toplantı üzvlərinin ən azı 20%-i iştirak edirsə. Ümumi toplantıda iştirak edən Ümumi toplantı üzvlərinin qeydiyyatının təşkilini təşəbbüs qrupu və ya bələdiyyənin səlahiyyətli qulluqçusu yaxud da Ümumi toplantının üzvləri təmin edir/təmin edirlər. Qeydiyyat zamanı Ümumi toplantı üzvünün adı, soyadı, doğum tarixi (gün, ay, il), Gürcüstan vətəndaşının şəxsi nömrəsi, qeydiyyat yeri və imzası göstərilir.

2. Ümumi toplantının bu Qanunun $85^4$ maddəsinin birinci bəndinin “a” yarımmadəsi əsasında çağırıldığı halda, Ümumi toplantının işini təşəbbüs qrupunun imzasının müvafiq ərizədə birinci göstərildiyi üzvü aparır, onun olmadığı halda isə - təşəbbüs qrupunun başqa üzvü və ya təşəbbüs qrupunun razılığı ilə - onun səlahiyyətli qulluqçusu. Ümumi toplantının bu Qanunun $85^4$ maddəsinin birinci bəndinin “b” yarımmadəsi əsasında çağırıldığı halda, Ümumi toplantının işini Bələdiyyənin səlahiyyətli qulluqçusu aparır. Ümumi toplantının məsləhətçisi seçilən qəsəbədə Ümumi toplantının işini məsləhətçi aparır.

3. Ümumi toplantı protokolunun tərtib edilməsini Ümumi toplantının katibi təmin edir. Ümumi toplantının bu Qanunun $85^4$ maddəsinin birinci bəndinin “a” yarımmadəsi əsasında çağırıldığı halda, Ümumi toplantının katibi funksiyasını təşəbbüs qrupunun üzvü yerinə yetirir, bu Qanunun $85^4$ maddəsinin birinci bəndinin “b” yarımmadəsi əsasında çağırıldığı halda, - Bələdiyyənin səlahiyyətli qulluqçusu. Ümumi toplantının məsləhətçisi seçilən qəsəbədə Ümumi toplantının katibi funksiyasını Ümumi toplantının məsləhətçisi və ya onun tərəfindən səlahiyyətli şəxs yerinə yetirir.

4. Ümumi toplantı Ümumi toplantıda iştirak edən Ümumi toplantı üzvlərinin səs çoxluğu ilə qərarı qəbul edir. Səsvermə, bir qayda olaraq, əl qaldırmaqla keçirilir. Bu maddənin 2-ci bəndi ilə müəyyən edilmiş şəxs səsvermə formasını Ümumi toplantı üzvlərinə tanış edir. Ümumi toplantının qərarı ilə səsvermənin başqa forması təyin edilə bilər. Ümumi toplantının mərhələlərlə, qəsəbənin ayrı-ayrı hissələrində keçirildiyində Ümumi toplantıda iştirak edən toplantı üzvlərinin hamısının səsləri toplanır, əgər ki, bu maddənin 6-cı bəndi ilə nəzərdə tutulmuş Bələdiyyə şurasının qərarı ilə başqa heç nə müəyyən edilməmişdirsə.

5. Ümumi toplantıda Ümumi toplantının protokolu tərtib edilir. Ümumi toplantı protokolunda Ümumi toplantının keçirildiyi tarix və yer, protokol nömrəsi, Ümumi toplantı tərəfindən nəzərdən keçirilən məsələ və qəbul edilən qərar, Ümumi toplantıda iştirak edən Ümumi toplantı üzvlərinin sayı və lazım gəldiyi halda, başqa məlumat göstərilir. Ümumi toplantı protokoluna bu maddənin 2-ci və 3-cü bəndləri ilə müəyyən edilmiş şəxslər imza atırlar. Ümumi toplantı protokolunun surətinin Bələdiyyəyə təqdimatını bu maddənin 2-ci bəndi ilə müəyyən edilmiş şəxs Ümumi toplantının keçirildiyindən 7 gün ərzində təmin edir.

6. Şura öz qərarı ilə Ümumi toplantının tipik qaydasını təsdiq edir. Ümumi toplantının tipik qaydası ilə bu Qanuna uyğun olaraq ümumi toplantının çağırılması ilə bağlı başqa məsələlər, Ümumi toplantının qəsəbənin hissələrində keçirilməsi, Ümumi toplantıda məsələlərin təşəbbüs edilməsi, onların təhlili və səsvermənin keçirilməsi proseduru, Ümumi toplantının katibinin və ümumi toplantının məsləhətçisinin hüquqları və öhdəlikləri, Ümumi toplantının məsləhətçisinin seçilmə proseduru müəyyən edilir. Bu Qanunun və Gürcüstanın başqa Qanunvericilik və Qanuna tabe aktlara müvafiq olaraq, Ümumi toplantının tipik qaydası ilə eləcə də Ümumi toplantının fəaliyyəti ilə bağlı başqa məsələlər də müəyyən edilə bilər.

7. Şura öz qərarı ilə Ümumi toplantının tipik qaydasını təsdiq edir. Ümumi toplantının tipik qaydası ilə bu Qanuna uyğun olaraq ümumi toplantının çağırılması ilə bağlı başqa məsələlər, Ümumi toplantının qəsəbənin hissələrində keçirilməsi, Ümumi toplantıda məsələlərin təşəbbüs edilməsi, onların təhlili və səsvermənin keçirilməsi proseduru, Ümumi toplantının katibinin və ümumi toplantının məsləhətçisinin hüquqları və öhdəlikləri, Ümumi toplantının məsləhətçisinin seçilmə proseduru müəyyən edilir.

8. Bu Qanunun və Gürcüstanın başqa Qanunvericilik və Qanuna tabe aktlara müvafiq olaraq, Ümumi toplantının tipik qaydası ilə eləcə də Ümumi toplantının fəaliyyəti ilə bağlı başqa məsələlər də müəyyən edilə bilər.

**Maddə 86. Petisiya**

1. Petisiyanı təqdim etmək hüququ növbəti subyektlərin vardır:

a) Bələdiyyə ərazisində qeydə alınmış seçicilərin ümumi sayının ən azı 1 %-nin;

b) Ümumi toplantının.

2. Bələdiyyə Şurası petisiyanın təqdim edilməsi hüququnu Bələdiyyə ərazisində qeydiyyatda duran seçicilərin daha az sayına verə bilər.

3. Ümumi toplantı qərarına əsasən, Ümumi toplantı adından petisiyanın təqdim edilməsini Ümumi toplantının məsləhətçisi və ya Ümumi toplantı tərəfindən səlahiyyətli şəxs təmin edir.

4. Petisiya Bələdiyyə Şurası sədrinin adına yazılır və daxil edilir. Petisiya şəklində təqdim edilə bilər:

a) Normativ inzibati-hüquqi akt layihəsi;

b) Hazırlanası normativ inzibati-hüquqi akt layihəsinin əsas prinsipləri və ya konkret təkliflər;

c) Bələdiyyə üçün və ya məntəqə üçün ümumi əhəmiyyət kəsb edən problemlərdən irəli gələrək, məsələlərin Bələdiyyənin Şura iclasında öyrənilməsini, təhlilini və həllini tələb etmək.

5. Petisiya əhatə etməlidir:

a) müvafiq ərizə mətnini;

b) Petisiyanı təqdim edən subyektin məruzəçisinin/məruzəçilərinin (ən çoxu 3 şəxs) adını, soyadını, ünvanını, əlaqə telefon nömrəsini (olduğu halda) və Gürcüstan vətəndaşının şəxsiyyətini təsdiq edən sənədin surətini;

c) Petisiyanın təqdim edilməsi tarixini;

Ç) bu maddənin birinci bəndinin “a” yarımmadəsi ilə nəzərdə tutulmuş halda - müvafiq Bələdiyyə ərazisində qeydiyyatdan keçmiş petisiyanı təqdim edən seçicilərin siyahısını;

d) Bu maddənin 4-cü bəndinin “a” yarımmadəsi ilə nəzərdə tutulmuş halda – normativ inzibati-hüquqi aktın layihəsini, bu maddənin 4-cü bəndinin “b” yarımmadəsi ilə nəzərdə tutulmuş halda – hazırlanası normativ inzibati-hüquqi akt layihəsinin əsas prinsipləini və ya konkret təkliflərini;

e) Bu maddənin 4-cü bəndinin “c” yarımmadəsi ilə nəzərdə tutulmuş halda – konkret formalaşdırılmış tələbini və müvafiq əsaslandırmanı.

6. Müvafiq Bələdiyyə ərazisində qeydiyyatdan keçmiş petisiyanı təqdim edən seçicilərin siyahısı növbəti məlumatları əhatə etməlidir: müvafiq Bələdiyyə ərazisində qeydiyyatdan keçmiş seçicinin adını, soyadını, doğum tarixini (gün, ay, il), Gürcüstan vətəndaşının şəxsi nömrəsini, qeydiyyat yerini və imzasını.

7. Petisiyanı Bələdiyyə Şurası aparatı qeydiyyatdan keçirir. O, petisiyanın bu Qanunun 851 maddənin 4-cü bəndinə uyğun olaraq dərc edilməsini təmin edir.

8. Petisiyanı təqdim edən subyektin məruzəçisinə/məruzəçilərinə petisiyanın qeydiyyat vəsiqəsi onun qeydiyyatdan keçirilməsi barəsində müraciətdən 3 iş günü müddətində verilir. Qeydiyyatın rədd edilməsinə yol verilir, əgər bu Qanunun tələbləri pozulmuşdur və ya petisiya ilə nəzərdə tutulmuş məsələnin həlli Bələdiyyə səlahiyyətinə aid deyil.

9. Petisiyanı təqdim edən subyektin məruzəçisinin/məruzəçilərinin hüququ var ki, qeydiyyatdan keçirilmənin rədd cavabını Gürcüstan Qanunvericiliyinə uyğun olaraq, məhkəmədə şikayətləndirsin/şikayətləndirsinlər.

10. Bu maddənin 4-cü bəndinin “a” yarımmadəsi ilə nəzərdə tutulmuş petisiyanı Bələdiyyə Şurası təhlil edir və Bələdiyyə Şurasının qərarını qəbul etmək üçün bu Qanunla və Bələdiyyə Şurası reqlamenti ilə təyin edilən qaydada müvafiq qərarı qəbul edir.

11. Bu maddənin 4-cü bəndinin “b” və ya “c” yarımmadəsi ilə nəzərdə tutulmuş petisiya Bələdiyyə Şurasının bürosunun qərarı ilə, onun qeydiyyatından 7 gün müddətində Bələdiyyə Şurasının işçi qrupunun yaradılması təklifi ilə öyrənilməsi üçün Bələdiyyə Şurasının müvafiq komissiyasına və ya Bələdiyyə Şurasına verilir və ya qeyd edilən petisiya səlahiyyətinə müvafiq olaraq, baxılması üçün Bələdiyyə başçısına göndərilir.

Bələdiyyə Şurası bürosu tərəfindən petisiyanın göndərilməsindən 1 ay müddətində petisiyanın öyrənilməsi üçün Bələdiyyə Şurasına göndərilir və ya Bələdiyyə Şurasının müvafiq komissiyasına petisiyanı göndərir.

12. Bələdiyyə Şurasının müvafiq komissiyası və ya işçi qrup bu maddənin 11-ci bəndi ilə müəyyən edilmiş qayda ilə qəbulundan 15 gün müddətində petisiyanı nəzərdən keçirir və növbəti qərarlardan birini qəbul edir:

a) petisiyaya uyğun olaraq, Bələdiyyə Şurasına qərar layihəsinin hazırlanmasının məqsədyönlü hesab edilməsi barəsində;

b) Bu maddənin 4-cü bəndinin "c" yarımmadəsi ilə nəzərdə tutulmuş petisiyanın öyrənilməsi və Bələdiyyə Şurasının iclasına baxılması üçün təqdimat barəsində;

c) Petisiyanın təhlilinin məqsədyönlü hesab edilməsi barəsində.

13. Bu maddənin 11-ci və 12-ci bəndləri ilə nəzərdə tutulmuş qərarlar qəbul edildiyindən 5 gün ərzində petisiyanı təqdim edən subyektə tanış edilməlidir.

14. Bu maddənin 12-ci bəndinin "a" yarımmadəsi ilə nəzərdə tutulmuş qərarın qəbul edildiyi halda, onun qəbulundan 1 ay müddətində Bələdiyyə Şurasının iclasına təhlil etmək üçün müvafiq normativ inzibati-hüquqi aktın layihəsini təqdim edir. Bələdiyyə Şurası müvafiq qərarın layihəsini Bələdiyyə qərarının qəbulu üçün bu Qanunla və Bələdiyyə Şurasının reqlamenti ilə təyin edilən qaydada nəzərdən keçirir.

15. Bu maddənin 12-ci bəndinin "b" yarımmadəsi ilə nəzərdə tutulmuş qərarın qəbul edildiyi halda, onun qəbulundan 1 ay müddətində petisiya haqqında nəticə hazırlanır və nəticə ilə birlikdə nəzərdən keçirmək üçün Bələdiyyə Şurasının iclasına petisiya təqdim edilir.

16. Bu maddənin 12-ci bəndinin "c" yarımmadəsi ilə nəzərdə tutulmuş qərar qəbul edildiyindən 15 gün müddətində təqdim edilir. Bələdiyyə Şurası müvafiq məlumatı nəzərə alır və ya Bələdiyyə Şurasının müvafiq komissiyasının və ya iş qrupunun qərarı ilə razılaşmır yaxud da başqa, müvafiq qərar qəbul edir.

17. Bu maddənin 14-cü və 15-ci bəndləri ilə müəyyən edilmiş müddətlər Bələdiyyə Şurasının qərarı ilə 1 ay uzadıla bilər.

18. Bələdiyyə başçısı Bələdiyyə Şurası bürosu tərəfindən səlahiyyətlərinə uyğun olaraq, göndərilmiş petisiyanı nəzərdən keçirməli və təhlil nəticələri barəsində Bələdiyyə Şurasına və petisiyanı təqdim edən subyektə petisiyanı təhlil etmək üçün qəbulundan 1 ay müddətində tanış etməlidir. Bu müddət Bələdiyyə Şurası bürosunun razılığı ilə 1ay uzadıla bilər.

19. Bələdiyyə Şurasının/Şuranın komissiyasının/İş qrupunun iclasında petisiyanı Bələdiyyə Şurasına/Şura komissiyasına/İşçi qrupun iclasına bu qanunun 87-ci maddəsinin 4-cü bəndinə əsasən təqdim edirlər, toplantı səs hüququ ilə petisiyanı təqdim edən subyektin məruzəçisi/məruzəçiləri iştirak edir/edirlər.

20. Bu maddənin 18-ci bəndi ilə nəzərdə tutulmuş halda, Bələdiyyə Şurası Bələdiyyə başçısından petisiyanın təhlili nəticələri haqqında hesabatı və ya petisiya barəsində əlavə məlumatı Bələdiyyə Şurasının iclasında şəxsən təqdim etməsini tələb etmək səlahiyyətindədir.

21. Petisiyanın təhlilindən sonra Bələdiyyə Şurası müvafiq qərarın qəbul edildiyindən 10 gün ərzində petisiyanı təqdim edən subyektə tanış edir, bu maddənin 22-ci bəndi ilə nəzərdə tutulmuş haldan başqa.

22. Petisiyanın Ümumi toplantı tərəfindən təqdim edildiyi halda, petisiyanın təhlili nəticələri barəsində məlumatı Bələdiyyə orqanlarının müvafiq xidmətləri Ümumi toplantıya birbaşa – müvafiq qərarın qəbul edildiyindən 1 ay müddətində təqdim etnəlidirlər və ya Ümumi toplantının məsləhətçisinə təqdim etməlidirlər – müvafiq qərarın qəbul edildiyindən 10 gün müddətində.

23. Petisiyanın qeydiyyatı, imzaların yoxlanılması və petisiyanın təhlili ilə bağlı başqa prosedurlar bu maddəyə uyğun olaraq Bələdiyyə Şurasının reqlamenti ilə müəyyən edilir.

24. Bələdiyyə Şurası səlahiyyətlidir ki, bu maddənin normalarının nəzərə alınması ilə, Bələdiyyə Şurasının qərarı ilə petisiyanın elektron forma ilə təqdimatı qaydasını müəyyən etsin.

**Maddə 86¹. Vətəndaş Məsləhətçiləri Şurası**

1. Vətəndaş Məsləhətçiləri Şurası Bələdiyyənin/rayon qamqebelisinin toplantı orqanıdır. Vətəndaş məsləhətçiləri Şurasının tərkibinə istehsalçı hüquqi şəxslərin, qeyri-hökumət təşkilatlarının və Bələdiyyə əhalisinin nümayəndələri daxildirlər. Bu Qanuna uyğun olaraq, Vətəndaş Məsləhətçiləri Şurasının tərkibini Bələdiyyə başçısı/rayon qamqebelisi təsdiq edir. Vətəndaş Məsləhətçiləri Şurasının tərkibi ən azı 10 üzvlə təsdiq edilir.

2. Vətəndaş Məsləhətçiləri Şurasına bir cinsin nümayəndələrinin sayı 1/3-dən az olmamalıdır. Vətəndaş Məsləhətçiləri Şurası bu bəndin tələbinin pozulduğunda səlahiyyətli olmur.

3. Bələdiyyə başçısı onun tərəfindən təsdiq edilən Vətəndaş Məsləhətçiləri Şurasına baxılması üçün Bələdiyyənin büdcə layihəsini, Bələdiyyənin yer planlaşdırma sənədlərini, Bələdiyyənin coğrafi obyektlərinin adları barəsində təklifləri, eləcə də başqa önəmli inzibati-hüquqi aktların layihələrini, infrastruktur və sosial layihələri təqdim etməlidir. Bələdiyyə başçısı tərəfindən təsdiq edilmiş Vətəndaş Məsləhətçiləri Şurasının başqa səlahiyyətləri və onun fəaliyyət qaydası Vətəndaş Məsləhətçiləri Şurasının qaydası ilə müəyyən olunur ki, bunu da Bələdiyyə başçısı təsdiq edir.

4. Rayon qamqebelisi tərəfindən təsdiq edilmiş Vətəndaş Məsləhətçiləri Şurasının səlahiyyətləri və fəaliyyət qaydası Vətəndaş Məsləhətçiləri Şurasının qaydası ilə müəyyən edilir və bunu da rayon qamqebelisi təsdiq edir.

5. Vətəndaş Məsləhətçiləri Şurasının qərarı Vətəndaş Məsləhətçiləri Şurasının toplantısının protokolu ilə rəsmiləşdirilir. Vətəndaş Məsləhətçiləri Şurası ən azı 3 ayda bir dəfə toplanır.

**Maddə 87. Bələdiyyə Şurası və Bələdiyyə Şurası komissiyasının iclaslarında iştirak**

1. Bələdiyyə Şurası və Bələdiyyə Şurası komissiyasının, o cümlədən Hökumətin iclasları açıq keçirilir, Gürcüstan Qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar istisna edilməklə.

2. Hər hansı bir şəxsin hüququ var ki, əvvəlcədən bildiriş yaxud da əvvəlcədən icazə xaricində Bələdiyyə Şurasının və Bələdiyyə Şurası Komissiyasının ictimai iclaslarında iştirak etsin.

3. Bələdiyyə Şurası və Bələdiyyə Şurası Komissiyasının ictimai iclaslarında iştirak etmək istəyənlər üçün toplantı zalında yer ayrılmalıdır. Toplantıda iştirak etmək istəyənlərin sayı onlar üçün iclas zalında ayrılan yerlərin sayından çox olarsa, o zaman Bələdiyyə aparatı əlində olan texniki vasitələrin istifadəsini təmin etməlidir ki, bunlar da iclasda iştirak etmək istəyənlərin iclasın gedişini dinləmək imkanını verəcəkdir.

4. Bələdiyyə Şurasının və Bələdiyyə Şurasının komissiyasının ictimai iclaslarında iştirak edən şəxslərin hüququ var ki, əvvəlcədən icazə xaricində, amma yalnız iclasın sədrinin razılığı olduğu halda, Bələdiyyə Şurasının reqlamenti ilə təyin edilən qaydada məruzəçiyə və həmməruzəçiyə suallar versinlər və izahatlar versinlər, məlumatı təqdim etsinlər.

**Maddə 88. Bələdiyyə başçısının və Bələdiyyə Şurasının üzvü tərəfindən görülən işin barəsində hesabatların dinlənilməsi**

1. Bələdiyyə başçısı və Bələdiyyə Şurasının üzvü məcburdurlar ki, ildə bir dəfə, noyabrın 1-dən gec olmayaraq, Bələdiyyə Şurasının müvafiq qərarı ilə müəyyən edilmiş qaydada bələdiyyə seçiciləri ilə ictimai görüşlər təşkil etsinlər və gördükləri iş barəsində onlara hesabatı təqdim etsinlər, hesabatı təhlil etdikdə Bələdiyyənin seçiciləri tərəfindən verilən suallara cavab versinlər.

2. Bələdiyyə ərazisində qeydiyyatdan keçmiş seçicilərin hüququ var ki, heç bir məhdudiyyət olmadan Bələdiyyə başçısının və Bələdiyyə Şurasının üzvünün ictimai hesabatlarının təhlilində iştirak etsinlər.

3. Bələdiyyənin müvafiq orqanları Bələdiyyə başçısının və Bələdiyyə Şurasının üzvü tərəfindən görülən iş haqqında bu qanunla nəzərdə tutulmuş hesabatların dərc edilməsini təmin etsinlər.

## 4. FƏSİL VI - Bələdiyyə Orqanlarının fəaliyyətinə dövlət nəzarəti və aduit. Birbaşa dövlət idarəçiliyi

### FƏSİL XVI - Bələdiyyə Orqanlarının fəaliyyətinə dövlət nəzarəti

**Maddə 129. Dövlət nəzarəti anlayışı və növləri**

1. Dövlət nəzarəti icra hakimyyəti Orqanları tərəfindən Bələdiyyə Orqanlarının fəaliyyətinin Qanuniliyinin və təhvil verilmiş səlahiyyətlərin bir dəfəlik icrasının təmin olunması məqsədi ilə həyata keçirilən işdir.

2. Dövlət nəzarətinin növləridir: hüquqi nəzarət və sahə nəzarəti.

3. Hüquqi nəzarət Bələdiyyə Şurasının normativ inzibati-hüquqi aktlarının Gürcüstan Qanunvericiliyii ilə uyğunluluğunun təmin olunması üçün həyata keçirilir.

4. Sahə nəzarəti Bələdiyyə tərəfindən ona təhvil verilmiş səlahiyyətlərin Qanuni və bir dəfəlik icrasını təmin edir.

# FAYDALI RESURSLAR 3

**Fəsil XII. Gürcüstan Parlamentinin seçkiləri**

**Maddə 109. Gürcüstan Parlamentinin seçki qaydası və səlahiyyəti müddəti**

1. Gürcüstan Parlamentinin 77 üzvü proporsional seçki sisteminin əsasında seçilir, qalan 73 üzvü isə majoritar seçki sisteminin əsasında.

2. Gürcüstan Parlamenti 4 il müddətinə seçilir.

**Maddə 111. Passiv seçki hüququ**

1. Gürcüstan Parlamentinin üzvlüyünə seçki hüququna malik, gürcü dilini bilən 21 yaşından yuxarı Gürcüstan vətəndaşı seçilə bilər.

2. Gürcüstan Parlamentinin üzvlüyünə son 2 il ərzində Gürcüstanda yaşamayanvə heç bir ölkədə Gürcüstanın konsulluğunda qeydiyyatda durmayan vətəndaş seçilə bilməz.

3. Gürcüstan Parlamentinin üzvlüyünə narkoman və ya narkotik istifadəçisi seçilə bilməz, müvafiq seçki komissiyası bu şəxsi seçilmiş elan etdiyi halda, Gürcüstan Parlamentinin hüququ yoxdur ki, onun səlahiyyətlərini tanısın.

**Fəsil XV. Yerli özünüidarəetmə orqanlarının seçkiləri**

**Maddə 134. Aktiv və passiv seçki hüququ**

1. Bələdiyyənin nümayəndəlik orqanının – Şura üzvlüyünə səsvermə gününə 21 yaşı tamam olan və ən azı 5 il ərzində yaşamış Gürcüstan vətəndaşı seçilə bilər.

2. Özünüidarəetmə şəhərinin/özünüidarəetmə icmasının başçısı olaraq seçki hüququna malik 25 yaşından Gürcüstan vətəndaşı seçilə bilər ki, hansı da ən azı 5 il ərzində Gürcüstanda yaşamışdır.

3. Gürcüstan vətəndaşı eyni zamanda başqa nümayəndəlik orqanının üzvü və ya özünüidarəetmə şəhərinin/özünüidarəetmə icmasının başçısı ola bilməz.

**Maddə 135. Bələdiyyənin nümayəndəlik orqanının – Şuranın və Özünüidarəetmə şəhərinin/özünüidarəetmə icmasının başçısının səlahiyyət müddətləri**

1. Növbəti seçkilərdə seçilmiş Bələdiyyənin nümayəndəlik orqanının – Şuranın və Özünüidarəetmə şəhərinin/özünüidarəetmə icmasının başçısının səlahiyyəti müddəti 4 ildir.

2. Şuranın yeni tərkibinin səlahiyyəti başlayır, köhnənin isə səlahiyyətləri yeni seçilmiş Şuranın birinci toplantısında bitir.

4. Özünüidarəetmə şəhərinin/özünüidarəetmə icmasının yeni seçilmiş başçısının səlahiyyəti başlayır, keçmiş başçının səlahiyyəti isə müvafiq seçki komissiyası tərəfindən seçki nəticələrinin yekunlaşdırma protokolunun tərtib edildiyindən (bələdiyyə başçısının seçilmiş elan edildiyindən) 11-ci gün bitir.

# Terminlərin izahatlı lüğəti

**Hesabat vermək**

yerli hakimiyyət tərəfindən həyata keçirilmiş fəaliyyət haqqında tam məlumatın çatdırılması. Bu, əhalinin hakimiyyətin fəaliyyətini qiymətləndirmək yoludur.

**İngilis-sakson ölkələri**

ingilisdilli ölkələr: ABŞ, Britaniya, Avstraliya, Kanada və s.

**Seçkilər**

İctimai hakimiyyətin təmsilçi orqanlarının (parlamentin, sakrebulonun) və ictimai hakimiyyətin vəzifəli şəxslərinin və icra şaxəsinin (məsələn, prezidentin, bələdiyyə başçısının/qamqebelinin) səsvermə ilə seçilməsi.

**İcraçı orqan**

hakimiyyətin şaxəsi. O, təmsilçi orqan tərəfindən qəbul edilmiş qərarları ictimai xidmət sahəsində icra edir.

**Aktiv seçki hüququ**

vətəndaşın hüququ, səs vermə vasitəsilə ictimai hakimiyyətin seçimli orqanlarını və vəzifəli şəxsləri seçsin.

**Benefisiarlar**

insanlar qrupu, hansı birbaşa bu və ya digər fəaliyyətin nəticəsində (məsələn, pensiya sisteminin benefisiarları təqaüdçülər, xəstəxananın – xəstələr, gənclər düşərgəsinin – gənclər).

**Birləşmiş Millətlər Təşkilatı**

BMT (United Nations Organization, UNO; qısaldılmış - United Nations, UN) - ümumi sülhün təminatının və dövlətlərin əməkdaşlığının beynəlxalq təşkilatıdır. O, 1945-ci ildə yaradılmışdır. Gürcüstan BMT-yə 1992-ci ildə üzv oldu, 1993-cü ildə isə Gürcüstanda Birləşmiş Millətlər Təşkilatının ofisi açıldı. Gürcüstanda eləcə də BMT-nin Uşaqlar üçün Fondu (UNICEF) fəaliyyət göstərir, hansı ki, Gürcüstana uşaqların müdafiəsi, sağlamlığı və təhsil sahəsində dövlət sosial islahatın aparılmasında köməklik göstərir.

**Qəzet**

*(ital. Gazzeta) müəyyən aralıqla, müntəzəm buraxılan nəşr. O, ictimaiyyət üçün mühüm və maraqlı yeni xəbərlərdən, müxtəlif mövzular üzrə məqalələrdən, eləcə də redaksiya məqaələlərindən və reklamdan ibarətdir.*

**Qubernator**

*Mərkəzi hakimiyyətin müvəkkili munisipalitetlərin müəyyən qrupunda (məsələn, tarixi Quriya ərazisində - "Lançxuti, Ozurqeti, Çoxatauri özünüidarəedən icmaların və özünüidarəedən şəhərin – Ozurqeti munisipalitetlərində")*

**Qərb ölkələri**

*Qərbi Avropa və Şimali Amerika ölkələri nəzərdə tutulur.*

**Demokratiya**

*(yunanca, xalqın idarəetməsi) – dövlət və hökümətin, siyasi rejimin tərəqqi forması. O, çoxluğun idarəetməsi üzərində əsaslanmışdır*

- ***Birbaşa demokratiya** – demokratik idarəetmə forması. Bu zaman qərarın qəbul edilməsi prosesinə hər bir vətəndaş birbaşa cəlb olunur.*
- ***Nümayəndəlik demokratiyası** – demokratik idarəetmə forması. Bu zaman vətəndaşlar öz nümayəndələrini seçirlər (Parlament, sakrebulo (şura)) və onlara önəmli məsələlərin həllini həvalə edirlər, özləri isə seçkilər vasitəsilə nümayəndələrinin işlərinə nəzarət edirlər.*

**Demokratik dövlət**

*demokratik idarəetməyə əsaslanan dövlət.*

**Desentralizasiya**

*idarəetmə sistemi, bu zaman ictimai hakimiyyətin bəzi funksiyalarının həyata keçirilmə hüququ özünüidarəetmənin yerli orqanlarına verilir.*

**Özünüidarəetmə vahidi (munisipalitet)**

*Gürcüstan qanunvericiliyi ilə yerli özünüidarəetmənin rəsmi adı. Özünüidarəetmə vahidinin iki növü vardır - özünüidarəedən şəhər və özünüidarəedən icma.*

**Özünüidarəedən icma**

*bir neçə məntəqənin (urban – şəhər və qəsəbə və rural – kənd) birliyidir, buna da Yerli Özünüidarəetmə Məcəlləsinə müvafiq olaraq munisipalitet statusu verilmişdir (2006-cı ilə qədər onlara rayonlar deyilirdi). İcma mərkəzi özünüidarəedən şəhər statusu olmayan şəhər də ola bilər.*

**Özünüidarəedən şəhər**

*urban (şəhər) tipində məntəqədir və bu da şəhərlər üçün xarakterik məsələlərin həllinə yönəlmiş və Özünüidarəetmə Məcəlləsi tərəfindən munisipalitet statusu verilmişdir.*

**Özünüidarəetmə**

*Avropa Xartiyasına əsasən, hakimiyyətin yerli orqanlarının hüquq və imkanlarıdır ki, öz məsuliyyətləri və yerli əhalinin maraqlarına müvafiq olaraq qanun çərçivəsində ictimai işlərin mühüm hissəsini tənzimləsin və idarə etsin.*

**İyerarxiyaçılıq**

*(İyerarxiya - yunanca, təmiz idarəçilik) hakimiyyət strukturlarında idarəçilik prinsipi. Aşağı hakimiyyət orqanlarının tabeçilik qaydası daha yuxarı hakimiyyət orqanlarına qədər.*

**Majoritar seçki sistemi**

*parlamentin və sakrebulonun üzvlərinin seçkiləri, birmandatlıq və ya çoxmandatlıq seçki dairələrinə əsasən.*

**Munisipalitet**

*Gürcüstan qanunvericiliyi ilə özünüidarəedən vahidin adı.*

**Yayım**

*ictimai yayım, ictimai yayımın Acarıstan televiziyası və radiosu, lisenziya sahibi və ya avtorizə edilmiş fiziki və ya hüquqi şəxs, hansı ki, şəxsi redaksiya məsuliyyəti ilə öz yayım toru ilə nəzərdə tutulmuş məhsulun verilişini elə həyata keçirir ki,yayım toru ilə müəyyənləşdirilmiş vaxt ərzində tamaşaçı/dinləyici üçün eyni zamanda əlçatan olsun.*

**Orqan qanunu**

*Qanunlarla münasibətdə növbəti iyerarxiya təsir göstərir: Konstitusiya /Konstitusiya qanunu, konstitusiya razılaşması, beynəlxalq müqavilə və razılaşma; orqan qanunu, "adi qanun". Aşağı səviyyəli qanun ondan yuxarıda duran qanunlarla ("Normativ aktlar haqqında Gürcüstan qanunu", maddə 7) ziddiyyət təşkil etməməlidir.Orqan qanunu elə bir mühüm sahələrin tənzimlənməsi üçün qəbul edilir, hansı Konstitusiya ilə xüsusi hesab edilir və ya belə bir qanunun qəbul edilməsi Konstitusiyada göstərilmişdir. Adi qanunlardan fərqli olaraq, orqan qanununun həm qəbul edilməsi və eləcə də dəyişdirilməsi mürəkkəbdir. Məsələn, əgər adi qanun əksəriyyət tərəfindən qəbul edilirsə (150 deputatdan 100 –ü müzakirədə iştirak edirdi və onlardan 60-ı qanunu dəstəklədi) orqan qanununun müzakirəsi prosesi müddətlərə uzadılmışdır və onun qəbulunu siyahı tərkibinin yarıdan çox hissəsi dəstəkləməlidir (150dən 76 deputat).*

**Passiv seçki hüququ**

*vətəndaşın hüququ ki, ictimai hakimiyyətin seçimli vəzifəsini tutmaq üçün özü səs toplasın.*

**Petisiya**

*munisipalitet ərazisində qeydiyyata alınmış seçicilərin ümumi sayının ən azı 1 faizinin hüququ ki, hər hansı bir aktual məsələnin həlli layihəsini hazırlasın və sakrebuloya təqdim etsin. Sakrebulo 1 ay ərzində onu təhlil etməlidir. Təhlildə petisiya təşəbbüskarının iştirak etmək və məruzə ilə çıxış etmək hüququ var.*

**Polis**

*Yunanıstanda şəhər-dövlət.*

**Prodüser**

*(ing. Producer ) şəxs, hansı ki, televiziyanın/ radionun yeni xəbər xidmətində yeni xəbərlərin planlaşdırılmasına və hazırlıq prosesinə rəhbərlik edir və yeni xəbərlərin buraxılışında məsuliyyət daşıyır.*

**Təbliğat (lat. Propaganda**

*yayımlanası – məlumatın çatdırılma formasıdır, istənilən kommunikasiya formasının plan ölçülü insanın düşüncəsinə, emosiyalarına və davranışına təsir mexanizminin istifadəsi.*

**Proporsional seçki sistemi**

*parlament və sakrebulo üzvlərinin seçkiləri, partiya siyahılarının əsasında.*

**Jurnalistika**

*İctimai fəaliyyətin sahələrindən biridir. Onun məqsədi aktual informasiyanın əldə edilməsi, işlənilməsi və kütləvi kommunikasiyanın vasitəsilə yayımlanmasıdır. "Jurnalistika" termini fransız sözündən götürülmüşdür "Journal" (gündəlik, qəzet, dövri nəşr), hansı ki, öz növbəsində latın dilindən gəlir. Əvvəllər yalnız çap mediasını , qəzetləri, jurnalları, müxtəlif nəşrləri nəzərdə tuturdu. Zaman keçdikdən sonra termin genişləndi və hal-hazırda jurnalistikanın geniş spektrini əhatə edir.*

**Jurnalist**

*Məlumatı tapan, üzərində işləyən və yayımlayan şəxs. Müasir dövrdə jurnalistin hər hansı bir media vasitəsinin əməkdaşı olması vacib deyil.O, müstəqil çalışa bilər.*

**Ratifikasiya**

*(ratifikasiyalaşdırma) – dövlətin tamhüquqlu nümayəndəsi tərəfindən imzalanmış bu dövlətin ali hakimiyyət orqanı tərəfindən beynəlxalq müqavilənin təsdiqlənməsi.*

**Redaktor**

*(fr.Rédacteur) - 1. Kitabın, jurnalın, qəzetin nəşriyyatına rəhbərlik edən və onun məzmununu təsdiqləyən şəxs. 2. mətni redaktə edən şəxs.*

**İctimai rəy sorğu**

*bu və ya digər məsələ ilə əlaqədar vətəndaşların yanaşmalarının və ya mövqelərinin müəyyənləşdirilməsi; hərçənd bu termin seçicilərin rəyini qeyd etmək üçün də istifadə edilir. Media rəy sorğusundan müxtəlif məsələyə olan ictimai yanaşmanın işıqlandırılması üçün istifadə edir, partiyalar isə - siyasi əhval-ruhiyyənin təyin edilməsi üçün. Belə ki, ictimai rəy sorğusu qeyri-rəsmi referendum kimi hesab edilə bilər.*

**Konstitusiya məhkəməsi**

*qanunun Konstitusiya ilə uyğunluğunu təhlil edən məhkəmə.Misal üçün: əgər siz düşünürsünüz ki, kimsə sizə zərər vermişdir (kiminləsə, hə hansı bir təşkilatla və ya dövlət müəssisəsi ilə mübahisəniz var), o zaman hüququnuzu müdafiə etmək üçün adi məhkəməyə müraciət edə bilərsiniz ki, qanuna uyğun olaraq qərara alsın ki, hansı tərəf ədalətlidir. Əgər qanunun özünün sizin hüquqlarınızı tapdaladığını düşünürsünüzsə (yəni qanun Konstitusiya ilə təmin edilmiş hüquqlara ziddir) siz Konstitusiya məhkəməsinə müraciət edirsiniz ki, araşdırsın ki,həqiqətən də qanun Konstitusiyaya ziddirmi. Belə olduğu halda, bu qanun Parlament tərəfindən dəyişilməlidir.*

**Sammit (zirvə)**

*yüksək səviyyədə çoxtərəfli beynəlxalq görüş və toplantı.*

**Açıq məlumat**

*rəsmi sənəd (o cümlədən: çertyoj, maket, sxem, plan, fotoşəkil, elektron informasiya, video və audio yazılar), yəni ictimai müəssisədə mühafizə olunan, eləcə də ictimai müəssisə və ya xidməti işlə əlaqədar xidmət tərəfindən qəbul olunan, işlənilən, yaradılan və ya göndərilən məlumat. İctimai müəssisədə mühafizə olunan hər hansı bir məlumat açıqdır. Dövlət, kommersiya və ya şəxsi sirrdən ibarət olmadığı halda, ictimai müəssisədə mövcud açıq məlumatla hamı tanış ola bilər. İctimai müəssisə açıq məlumatın surətinin əlçatılmasının təmin edilməsinə məcburdur.*

**İctimai xidmət** — *zərurətinə ictimai tələbatlar səbəb olan xidmət və ya məhsul və onun çatdırılması da yalnız ictimai (yerli və ya mərkəzi) hakimiyyətin səlahiyyətindədir. İctimai xidmət ictimai olaraq hamı üçün mənfəət gətirən sahələri əhatə edir (yolların salınması, işıqlandırma, içməli su ilə təminat, məktəblərin yaradılması və fəaliyyəti, vətəndaşların təhlükəsizliyi və s.)*

**Seqreqasiya** — *diskriminasiyanın kəskin forması. Qanunun və ya qaydaların əsasında etnik qrupların ayrılmasını nəzərdə tutur. Müəyyən etnik və ya irqi qrupun ictimai həyatdan təcrid olunması, bu qruplar, onların üzvləri üçün maneə yaradan hüquqi və ya faktiki məhdudiyyətlərin təsis edilməsi, xüsusi yaşayış məntəqələrində yerləşdirilmələri; hərəkət məhdudiyyəti, ictimai həyatın ən aşağı pilləsində məcburən saxlanmaları, təhsil sahəsində ayrı tədrisin təsis edilməsi və s.*

**Subsidiarlıq** — *Özünüidarəetmənin Avropa Xartiyasının ən əsas prinsiplərindən biri, onun əsasında hüquq-vəzifələrin həyata keçirilməsi vətəndaşlara daha yaxın olan hakimiyyət orqanı tərəfindən baş verir.*

**Gizli səsvermə** — *seçkilərin bülletenlə həyata keçirilməsi, bu zaman seçicilər başqasından gizli olaraq onlar üçün arzu edilən namizədin adını dairəyə alırlar.*

**Xartiya** — *ictimai-siyasi əhəmiyyətə malik olan bəzi sənədin adı – bəyannamənin sinonimi.*

**Mesopotamiya** — *Fərat və Dəclə çayları arasında ərazi, hazırkı İraq ərazisi.*

**Şumer** — *Cənubi Mesopotamiya ərazisində ən qədim dövlət.*

**Mərkəzləşdirmə**

*Yerli özünüidarəetmənin məhdudlaşdırılması hesabına idarəetmənin bir mərkəzdə cəmləşməsi.*

**Senzura**

*(lat. censura) Hakimiyyətin çap məhsullarına, səhnə tamaşalarına, radio və televiziya verilişlərinə nəzarətidir, bəzən də şəxsi yazışmanın yoxlanılmasıdır ki, hakimiyyət üçün qəbul edilməyən məlumatın yayımlanmasına yol verilməsin və ya məhdudiyyət qoyulsun. Demokratik ölkələrin qanunvericiliyi məlumat azadlığını tanıyır və senzuranı qadağan edir.*

**Təmsilçi orqan**

*struktur, hansında vətəndaşlar öz nümayəndələrini seçirlər, hansılar b.a. “oyunun qaydalarını” təyin etməli və icraçı şaxə tərəfindən aparılan fəaliyyətə nəzarət edirlər.*

**Heraldika**

*gerbşünaslıq; gerbin tərtibi və izahatı.*

## İstifadə edilən ədəbiyyat


1. Gürcüstan Konstitusiyası;
2. Yerli özünüidarəetmənin Avropa Xartiyası;
3. Gürcüstanın Ümumi İnzibati Məcəlləsi;
4. Gürcüstanın Orqan Qanunu – Yerli Özünüidarəetmə Məcəlləsi;
5. Gürcüstanın Seçki Məcəlləsi;
6. Uşaq hüquqları Konvensiyası;
7. „Gürcüstanda yerli demokratiyanın bələdçisi" – Avropa Şurasının informasiya bürosu Gürcüstanda, 2004
9. Bertran Klod-Jan. Media etikası və hesabat vermə sistemləri - La Deontologie des Medias, Azadlıq İnstitutu, Tbilisi 2004;
10. Millətçilik, Gürcüstan Respublikasında özünüidarəetmə islahatları, 1918, cild I, Tbilisi, 2017, https://www.scribd.com/document/355542506/
11. Losaberidze Davit, Xalqa yaxın, daha çox gəlirlərlə, daha çox hüquqlarla – Özünüidarəetmənin 100 il öncə islahatının ən yaxşı tarixi, http://droa.ge/?p=26188
12. Yayımçıların davranış Məcəlləsi;
13. Gürcüstan Parlamentinin Milli Kitabxanasının vətəndaş təhsili elektron lüğəti;
14. Gürcüstan Jurnalist Etikası Məcəlləsi;
15. Gürcüstanda yerli demokratiyanın inkişafının illik hesabatları - 2005, 2006, 2007, 2008, 2009-2010, 2011-2012, 2013-2014, 2016-2017 illər; "Açıq Cəmiyyət - Gürcüstan" Fondu
16. Çavçaçvadze İlya, "Millət və tarix" publisistikası;
17. Vaxtanq Xmaladze, „Gürcüstanda yerli özünüidarəetmə: keçmiş, müasirlik, tendensiya" – BMT proqramı, Gürcüstan, Tbilisi, 1997;